RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 23 (8902) ÇƏRŞƏNBƏ, 2 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

◆ 2 fevral Gənclər Günüdür

# Zəfərin gəncləri



Gənclik bütün cəmiyyətlərdə uğur və dinamizm rəmzi, intellekt və mübarizə simvoludur. Gənclik bütün proseslərin avanqardı, lokomotivi, yüksək enerjinin, yeni ümidlərin, xəyalların yaradıcısı və ən əsası, bir ölkənin gələcəyidir.

Müasir Azərbaycan gəncliyi haqqında da ən müsbət fikirləri söyləmək və gənclərlə qürurlanmaq mümkündür. Bu gün Azərbaycan gəncinin səsi dünyanın ən nüfuzlu ali məktəblərində eşidilir, kreativ yaradıcı gənclərin yeni kəşfləri, ixtiraları dünya miqyasında yüksək mükafatlara layiq görülür. Azərbaycan gəncliyi bütün sahələrdə aparıcı qüvvə kimi iştirak edir, yaradıcılıq eşqi, yüksək potensialı ilə dövlətimizin inkişafı naminə çalışır.

Gənclik yeni nəsil deməkdir. Kökünə bağlı, əcdadının yolu ilə gedən, milli, mənəvi dəyərlərinə sadiq, əyilməz, alnıaçıq, həm də tükənməz gücdür.

Bu gün Azərbaycan gənci həm də yüksək vətənpərvərlik ruhunda böyüyən qəhrəmandır, igiddir. 44 günlük Vətən müharibəsindəki Şanlı Zəfər bunun bariz təcəssümüdür. Məhz müstəqillik dövrünün gəncləri göstərdiyi şücaət, igidliklə adlarını Azərbaycan tarixinin şərəfli səhifələrinə yazdılar. Bu tarixi Zəfər eyni zamanda xalqın, xüsusən Azərbaycan gəncliyinin milli vətənpərvərlik ruhunun yüksək olduğunu, Vətən, dövlət, bayraq sevgisini parlaq şəkildə nümayiş etdirdi.

Ardı 10-cu səh.



## Ən gənc QƏHRƏMAN

### Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubovun fəxarətli və örnək dolu döyüş gündəliyi

O, həyatda heç zaman yadından çıxmayacaq, ölümün bir addımlığında olduğu və döyüşçü kimi taleyinin dəyişdiyi savaş səhnəsini Xocalının Sığnaq kəndində yaşamışdı...

O gün gənc əsgər heç bilmirdi ki, neçə saatdır sayıqlıqla meşənin ortasından qıvrıla qıvrıla uzanan yolun mühafizəsini çəkir. Bircə onu bilirdi ki, artıq günəş əyilir, axşamın toranı çökür, amma ondan arxa mövqedə olan döyüşçü yoldaşlarının düşmənlə günortadan başlayan atışması hələ də davam edir...

Qəfildən başını çevirəndə isə üzərində iriçaplı pulemyot olan ağ rəngli bir "Pikap"ın meşənin içərisindən arxa-arxaya yola çıxdığını görür. Amma maşının üzərindəki döyüşçünün geyiminin oxşarlığından bir anlıq tərəddüdə düşür, gələnlərin özününkülərmi, düşmənmi olmasını dəqiq kəsdirə bilmir. Və elə o bir anda beynindən minlərlə güman keçir, şübhə yaranır: ya bilmədən öz döyüşçülərini vuraraq Vətən xaini olacaqdı, ya da vurmayaraq onlardan arxada vuruşan döyüş yoldaşlarının düşmən tərəfindən qırılmasına zəmin yaradacaqdı...

İki çıxılmaz yol arasında çırpındığı bu anda maşındakı silahlının gözünü nişangaha qoyub onu vurmaq istəməsi bütün tərəddüdlərinə son qoyur...

Ardı 5-ci səh.

## 19 yaşında ən ali hərbi təltifi aldı

### Vətən Müharibəsi Qəhrəmanı Azər Abdullazadənin döyüş yolu gənclərin vətənpərvərliyinin ən gözəl nümunələrindəndir

Hərbi xidmətdən ehtiyata buraxılmağına cəmi bir neçə gün qalmışdı. Səbirsizliklə oktyabr ayının gəlməsini gözləyirdi. Əsgərlik dövründə nümunəvi hərbi xidmət keçmiş, peşəkar tankçı kimi formalaşmışdı. Əsgərliklə bağlı yaxşı xatirələri vardı və bunları ailəsinə, dostlarına danışacaqdı. Danışdı, lakin yalnız əsgər kimi deyil, həm də Vətən müharibəsinin iştirakçısı kimi...

Söhbət Vətən Müharibəsi Qəhrəmanı, cəsur tankçı Azər Abdullazadədən gedir. 2001-ci il fevralın 18-də Tərtər rayonunun Cəmilli kəndində anadan olan Azər orta təhsilini başa vurduqdan sonra, 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. "N" saylı hərbi hissədə tankçı kimi qulluq edib. Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib. Göstərdiyi igidliklərə görə "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunub, Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

### "Cəbhəyə gedən əsgərlərə qoşulmaq istəyirdim"

*Vətən müharibəsi başlayanda Azərin hərbi xidmətini başa vurmağına cəmi bir neçə gün qalmışdı. Amma ürəyində bir arzusu var idi. Cəbhəyanı bölgədə böyüdüyü, əmisi Birinci Qarabağ müharibəsində şəhid olduğu üçün torpaqlarımızın azadlığı uğrunda döyüşmək, şəhidlərimizin intiqamını almaq arzusu onda hələ uşaq yaşlarından yaranmışdı. 2016-cı ilin Aprel döyüşləri isə ürəyində və hafizəsində dərin iz buraxmışdı. Yaşadığı kənddən keçən ordumuzun kolonlarının arxasınca qaçaraq əsgərləri izləyərmiş, onlara qoşularaq torpaqlarımızın azadlığı uğrunda döyüşə yollanmaq üçün alışıb yanmışdı...*

- Məni hələ kiçik yaşlarımdan müharibəyə bağlayan, düşmənlə mübarizəyə səsləyən xatirələr vardı.

Ardı 6-cı səh.






## Prezident İlham Əliyev 2 fevral Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm".

Milli Məclisin iclasında

## Parlament Şuşa Bəyannaməsini təsdiq etdi



Fevralın 1-də Milli Məclisin yaz sessiyasında ilk plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ötən il Milli Məclisin 38 iclasının keçirildiyini, 222 qanun və qərarın qəbul edildiyini diqqətə çatdıran Sahibə Qafarova qeyd edib ki, parlamentin fəaliyyəti Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləməyə yönəlib, ölkənin ictimai-siyasi həyatının mühüm məsələlərinə münasibət bildirilib.

Ardı 2-ci səh.

## Döyüş meydanında silahını, bayrağını atıb qaçan erməni gəncləri



### Ermənistanda gənclər ağır vəziyyətdən bezib ölkəni tərk edir, ordudan yayınır, ailə qurmaq belə istəmirlər

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanda müasir gənclər ordusu ölkəmizin sosial-iqtisadi və ictimai-siyasi həyatında yaxından iştirak edir.

Onlar elm, təhsil, mədəniyyət, idman və hərbi quruculuq sahəsində uğurlar qazanaraq Azərbaycanın dünyada tanıdılmasına, vətənimizin müdafiəsinə, ərazi bütövlüyümüz və dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə layiqli töhfələrini verirlər.

Ardı 10-cu səh.

## Z.T.Salahovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Zərifə Teymur qızı Salahova "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2022-ci il*

## 2022-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109 cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2022-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Axundova Lalə Əhməd qızı
Bayramova Emiliya Polad qızı
Əliyev Azər Ruslan oğlu
Gülaliyeva Səyyarə Müşfiq qızı
Hidayətov Coşqun Hikmət oğlu
Hüseynov Orxan İsa oğlu
Xəlilli Əliqənbər Yadigar oğlu
Qasımov Əziz Kamal oğlu
Quliyev Azər Alik oğlu
Muradov Suad Rəşad oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2022-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Baltikyanı ölkələrə rəsmi səfəri başlayıb






Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Baltikyanı ölkələrə rəsmi səfəri başlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə fevralın 1-də parlament nümayəndə heyətinin Baltikyanı ölkələrə rəsmi səfəri başlayıb.

Nümayəndə heyətinin tərkibinə Latviya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamran Bayramov, Litva ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nəsib Məhəməliyev, Estoniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əhmədova, deputatlardan Rəşad Mahmudov, Elnur Allahverdiyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Fevralın 1-də Milli Məclis Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini Riqa Beynəlxalq Hava Limanında ölkəmizin Latviyadakı səfiri Elnur Sultanov, Latviyanın ölkəmizdəki səfiri Dainis Qarançs və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclis Sədrinin Latviya Prezidenti, Seymin sədri, bu ölkənin Baş naziri və digər rəsmi şəxslərlə bir sıra görüşləri nəzərdə tutulub.

# Son 30 ildə Azərbaycan-ABŞ əlaqələri inkişaf, dostluq və tərəfdaşlıq baxımından uğurlu olub

"Son 30 ildə Azərbaycan-ABŞ əlaqələri inkişaf, dostluq və tərəfdaşlıq baxımından uğurlu olub".




AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Caspian Policy Center"in təşkil etdiyi "ABŞ-Xəzər diplomatik münasibətlərinin 30 ili" mövzusunda vebinarda deyib.

H.Hacıyev qeyd edib ki, Azərbaycan 2001-ci il sentyabrın 11-də baş verən terror aktından sonra ABŞ-ın başlatdığı mübarizəyə hərbi və logistik dəstək göstərib. Azərbaycan son 30 ildə yaxşı dost olduğunu sübut edib. Bu dəstəyin regional təhlükəsizliyin vacib komponenti olduğu təsdiq edilib. Prezidentin köməkçisi, həmçinin Azərbaycanın ABŞ-a İraq və Əfqanıstandakı missiyalarda da dəstəyini vurğulayıb.

# Parlament Şuşa Bəyannaməsini təsdiq etdi





*Əvvəli 1-ci səh.*

Milli Məclisin Sədri deyib ki, parlamentin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də davam edib. Yanvarın 17-də Monteneqro parlamentinin sədri Aleksa Beçiçin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə olub. Görüşlər zamanı bir sıra məsələlər müzakirə edilib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əzəli torpaqlarımızı Ermənistanın işğalından azad etməsi barədə Monteneqro parlamentinin sədrinə məlumat verilib.

Görüşdə Sahibə Qafarova qeyd edib ki, Ermənistanın 30 illik işğalından azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işləri aparılır. "Biz Qafqazın bu bölgəsində, Azərbaycan Prezidentinin dediyi kimi, müharibədən deyil, sülhdən danışmaq istəyirik. Ümid edirik ki, Sülh Sazişi tezliklə imzalanacaqdır", - deyə Sahibə Qafarova bildirib.

Monteneqro parlamentinin sədri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğulayıb. O, Monteneqronun Azərbaycanla dost olduğunu deyərək ölkəmizin əldə etdiyi nailiyyətlər münasibəti ilə xalqımızı təbrik edib.

Görüş zamanı bir sıra digər məsələlər, o cümlədən parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, deputatların beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığının və dəstəyinin davam etməsinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Spiker diqqətə çatdırıb ki, yanvar ayının sonlarında Milli Məclisin nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında iştirak edib. Sessiyada nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AŞ PA-nın Monitorinq komitəsi sədrinin birinci müavini seçilib. Sahibə Qafarova bu münasibətlə həmkarını ürəkdən təbrik edib, fəaliyyətində ona yeni uğurlar arzulayıb.

Milli Məclisin Sədri bildirib ki, yaz sessiyasında parlamenti gərgin və maraqlı iş gözləyir: "Bu sessiyada deputatlar qanun layihələrini müzakirə etməklə yanaşı, Konstitusiyanın və qanunların tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatını dinləyəcəklər. Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2021-ci ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun illik hesabat və məruzələri də dinləniləcək.

Yay sessiyası ərzində də Milli Məclisin beynəlxalq əlaqələrini daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün lazımi tədbirlər görüləcək. Bu məqsədlə üzv olduğumuz beynəlxalq təşkilatlarda fəaliyyətimizi ardıcıl davam etdirəcək, bir sıra xarici səfərlər həyata keçiriləcək, bəzi xarici ölkələrin parlament sədrləri və nümayəndə heyətləri ilə Bakıda görüşlər keçiriləcək. Həm Bakıda, həm də xarici ölkələrdə bizim iştirakımızla beynəlxalq tədbirlərin keçirilməsi nəzərdə tutulur".

Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin yaz sessiyasının yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə edib və deputatlara uğurlar arzulayıb.

Sonra iclasın gündəliyi qəbul edilib. Spiker qeyd edib ki, ilk 3 məsələ Milli Məclisin qərar layihələridir. İlk olaraq Milli Məclisin 2022-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında qərar layihəsi müzakirəyə çıxarılıb. Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov, Musa Quliyev, deputatlardan Əli Məsimli, Fazil Mustafa, Naqif Həmzəyev, Bəhruz Məhərrəmov, Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Fəzail Ağamalı, Sahib Alıyev, Əziz Ələkbərov, Aydın Hüseynov, Vahid Əhmədov yaz sessiyasının qanunvericilik işləri planı haqqında fikirlərini açıqlayıblar. Sənədin mütərəqqi olduğunu deyən deputatlar, burada əks olunan məsələlərin aktuallığı, təklif olunan qanun layihələrinin əhəmiyyəti barədə danışıblar, bir sıra təkliflərini səsləndiriblər.

Milli Məclisin 2022-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra Milli Məclisin İntizam komissiyasının və Hesablayıcı komissiyasının yaradılması haqqında qərar layihələri qəbul olunub.

Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti iki məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında qanun layihələridir. Həmin layihələr bir oxunuşda qəbul ediləcək.

Parlamentin Sədri bildirib ki, dördüncü məsələ bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə arasında münasibətləri müttəfiqlik səviyyəsinə yüksəltmiş və ikitərəfli əlaqələrin yeni strateji yol xəritəsini müəyyən etmiş Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanun layihəsidir. Dost və qardaş xalqlarımızın arzu və niyyətlərinin bariz ifadəsi olan bu Bəyannamə ölkələrimiz arasında strateji tərəfdaşlığın inkişafında tamamilə yeni səhifə açıb.

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. O, Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə təqdim olunan bu sənədin millətimiz və dövlətimiz üçün tarixi əhəmiyyət kəsb etdiyini deyib. Bildirilib ki, bu tarixi sənəd parlamentdə ratifikasiya olunmalıdır. Komitə sədri Şuşa Bəyannaməsini Azərbaycan dövlətçilik tarixinin ən mühüm sənədlərindən biri kimi qiymətləndirib. Bu gün gərgin olan beynəlxalq münasibətlərdə Türkiyə və Azərbaycan əlaqələrini müttəfiqlik səviyyəsinə yüksəldən bu tarixi sənədin regionda yeni yaradılmış reallığın qorunması və inkişaf etdirilməsi istiqamətində əhəmiyyətindən danışan komitə sədri onu azad olunmuş Qarabağın müdafiəsini, Azərbaycanın gələcəyini ən yüksək səviyyədə təmin edən sənədlərdən biri kimi qiymətləndirib.

Deputatlar komitə sədri Səməd Seyidovun Şuşa Bəyannaməsi barədə məlumatını alqışlayaraq öz dəstəklərini ifadə ediblər. Parlamentin Sədri Sahibə Qafarova məsələyə münasibətində bildirib ki, biz - Altıncı çağırış Milli Məclisin deputatları çox xoşbəxtik ki, belə bir sənədə səs veririk.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə qanun layihəsi qəbul edilib.

Komitə sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsini də müzakirəyə təqdim edib. 2021-ci il oktyabrın 11-də Belqrad şəhərində imzalanmış sazişə əsasən, hər bir tərəfin dövlətinin ümumvətəndaş pasportlarına malik olan vətəndaşları digər tərəfin dövlətinin ərazisinə daxil olmaq, oradan çıxmaq və ya tranzit keçmək və oraya ilk daxil olduğu tarixdən etibarən 180 günlük müddət ərzində 90 gündən artıq olmayaraq orada qalmaq üçün viza tələbindən azad edilir. Sənəd Azərbaycanla Serbiya arasında münasibətlərin inkişafının təşviq edilməsi və hər iki dövlətin vətəndaşlarının hərəkətinin asanlaşdırılması baxımından əhəmiyyətlidir.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında" Saziş səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik edilməsi barədə məlumat verib. Bildirilib ki, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2022-ci il yanvarın 1-dək dayandırılmışdı. Qanuna edilən dəyişiklikdə həmin müddətin daha bir il - 2023-cü il yanvarın 1-dək uzadılması təklif olunur. Qeyd edilib ki, bu sahədə yoxlamaların dayandırılması sahibkarlığın inkişaf etdirilməsi, şəffaflığın artırılması baxımından çox əhəmiyyətlidir.

Deputatlar Razi Nurullayev və İltizam Yusifov sənəd barədə fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, sənəd Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında parlamentə daxil olub. Qanunun 9.6-cı maddəsi yeni redaksiyada təklif olunur. Dəyişikliyə əsasən, Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydası və təminat norması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Məsələnin vacibliyini qeyd edən komitə sədri beynəlxalq təcrübənin, eyni zamanda Vətən müharibəsi zamanı əldə olunan təcrübənin bu dəyişikliyi etməyə əsas verdiyini söyləyib.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov mahiyyətcə bir-birinə bağlı olan növbəti iki məsələ - "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihələri ilə bağlı ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, hər iki sənəd Azərbaycan Prezidentinin "Bakı şəhərində nəqliyyat vasitələri sahiblərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması və yol hərəkətinin təşkili sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 6 iyul tarixli Fərmanına əsasən hazırlanıb. Aparılan dəyişikliklər yol hərəkətinin təkmilləşdirilməsi, piyadaların təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədardır. Belə ki, "Yol hərəkəti haqqında" qanunun bir sıra maddələrinə dayanma, durma, parklanma, o cümlədən ödənişli parklanma ilə tənzimləmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq düzəlişlər təklif olunur. İnzibati Xətalar Məcəlləsində isə bu sahədə olan cərimələrin sərtləşdirilməsi nəzərdə tutulur.

Deputatlar Fazil Mustafa, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Rüfət Quliyev dəyişikliklər barədə fikirlərini, qeyd və təkliflərini bildiriblər.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin onuncu və on birinci məsələləri də Prezidentin bir məktubu ilə parlamentə daxil olub və bu qanun layihələri də mahiyyətcə bir-birinə bağlıdır.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Qaz təchizatı haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, sənəd dəm qazından zəhərlənmələrin və qaz partlayışı hadisələrinin profilaktikası üçün qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.O, qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının müayinəsi və texniki xidmətin səmərəliliyinin yüksəldilməsinin, neqativ halların operativ aradan qaldırılmasının, qaz paylayıcısının məsuliyyətinin artırılmasının vacibliyini vurğulayıb. Qeyd edilib ki, qanunun müvafiq maddələrinə bir sıra dəyişikliklər edilib, yeni anlayışlar və tənzimləmələr təsbit olunub.

Diqqətə çatdırılıb ki, layihədə qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, havalandırma və havadəyişmə xətlərinin müayinəsi və onlara texniki xidmətlə bağlı səlahiyyətlərin aidiyyəti dövlət qurumlarından qaz paylayıcısına ötürülməsi təklif olunur. Sənədə əsasən, qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, habelə havalandırma xətlərinin işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi, o cümlədən nöqsan və pozuntuların aşkar edilməsi məqsədilə qaz paylayıcısı tərəfindən müayinənin ödənişsiz həyata keçirilməsi də təklif edilir.

Bundan əlavə, layihədə ixtisaslaşdırılmış podradçıya dair tələblər, müayinəyə və texniki xidmətə nəzarətin həyata keçirilməsinə, istehlakçı tərəfindən sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qaz paylayıcısına vurulmuş zərərin hesablanmasına dair müddəalar da öz əksini tapıb.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibatı Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, məcəlləyə qaz qurğuları və qaz xətlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmət qaydalarına əməl edilməməsi ilə bağlı 279.0.1-1-ci maddənin əlavə edilməsi təklif olunur.

Bununla yanaşı, ətraf mühitə, insanların sağlamlığına və onların əmlakına təhlükə yarada bilən neqativ halların vaxtında müəyyən edilməsi, həmin halların aradan qaldırılması, həmçinin bu sahəyə nəzarətin gücləndirilməsi məqsədi ilə məcəllənin 542-ci maddəsi yeni redaksiyada təklif olunur. Dəyişikliyə əsasən, fiziki şəxslərin iki yüz manatdan dörd yüz manatadək, vəzifəli şəxslərin min manatdan min beş yüz manatadək, hüquqi şəxslərin iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulur.

Deputatlar Soltan Məmmədov və Razi Nurullayev dəyişikliklərə münasibət bildirdikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda son olaraq "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, qanunun beş maddəsində dəyişiklik nəzərdə tutulur və bu dəyişiklikləri şərti olaraq 3 qrupa bölmək olar. Belə ki, qanunun 8-ci maddəsinə görə, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin edilməsi əvvəl dini mərkəzdə idisə, dəyişiklikdən sonra bu səlahiyyətlər müvafiq icra orqanına ötürüləcək.

Qanunun 9-1.4-cü maddəsinə təklif edilən dəyişikliyə görə, dini qurumun hüquqi ünvanı dəyişdikdə, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana 10 gün müddətində məlumat verilməlidir.12-ci maddənin ikinci və üçüncü hissələrində də müəyyən dəyişikliklər aparılıb. Yeni redaksiyada verilmiş mətndə deyilir ki, dini qurumlar dövlət qeydiyyatına alınması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təsis protokolu, nizamnaməsi, habelə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə olunmuş ərizə ilə müraciət edir. Dini icmaların təqdim etdiyi ərizəyə onu təsis etmiş azı əlli nəfər yetkinlik yaşına çatmış şəxs və ya onların səlahiyyətli nümayəndələri, habelə vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini təlimin əsasları, o cümlədən dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar əlavə edilir.

Qanunun 18-ci maddəsinə edilən əlavəyə görə isə, ianə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi orqan müəyyən edir. Həmçinin müasir çağırışlara uyğun olaraq, dini qurumların ianələri yalnız ənənəvi üsullarla deyil, bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul edilə bilər.

Deputatlar layihə barədə fikirlərini və qeydlərini diqqətə çatdırıblar. Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# YAP Mərkəzi Aparatında "Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli" mövzusunda konfrans keçirilib

Fevralın 1-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Gənclər Birliyinin təşkilatçılığı ilə 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Azərbaycan gəncliyinin milli ideoloji inkişaf modeli" mövzusunda konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları YAP Mərkəzi Aparatının foyesində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr edilmiş rəsm sərgisi ilə tanış olublar.

Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Azərbaycanda dövlət gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfransda açılış nitqi ilə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, gənclik enerji, təşəbbüskarlıq, yaradıcılıq və yenilikçilik deməkdir. Dünya təcrübəsi göstərir ki, tarixi ənənələri, mütərəqqi dəyərləri mənimsəmiş, milli ideologiya ətrafında sıx birləşmiş, vətənpərvərlik ideyası əsasında tərbiyə olunmuş - yetişmiş gənclik inkişaf mənbəyidir. Çünki cəmiyyətin dinamik və aparıcı qüvvəsi olan gənclərin fiziki və mənəvi potensialından səmərəli, məqsədyönlü şəkildə istifadə edilməsi həm milli tərəqqiyə mühüm töhfə verir, həm də parlaq perspektivlər formalaşdırır. Burada əsas strateji məqam dövlətin uğurlu, milli maraqlara və müasir çağırışlara əsaslanan gənclər siyasəti həyata keçirməsidir. Onun sözlərinə görə, XX əsrin 90-cı illərinin əvvəlindən bugünə qədər dünyanın ictimai-siyasi mənzərəsinə nəzər saldıqda müxtəlif ölkələrdə çoxsaylı kataklizmlərin, qarşıdurma və ziddiyyətlərin baş verdiyini görürük. Təbii ki, siyasi, iqtisadi, sosial və digər amillərlə əlaqədar baş verən bu hadisələr - cərəyan edən proseslər bir çox hallarda həmin xalqlar üçün çox ağır fəsadlara səbəb olur, ölkələr uzun müddət xaos və anarxiya məkanına çevrilir. Belə konfrontasiyaların meydana çıxmasında, eyni zamanda, bəzi xarici güc mərkəzlərinin təhriki və təşviqi də xüsusi rol oynayır. Həmin qüvvələr müxtəlif vasitələrlə təsir altına saldıqları gənclərdən də ölkələrin milli maraqlarına qarşı istifadə edirlər. Təbii ki, cəmiyyətdə ideoloji boşluqların hökm sürməsi, gənclərin milli ruhda, vətənpərvərlik ideyası əsasında tərbiyə olunmamaları xarici qüvvələrin müdaxiləsini asanlaşdıran neqativ amil kimi çıxış edir. Xalqımızın xoşbəxtliyi ondadır ki, Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı olan Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti nəticəsində Azərbaycanda xalq-iqtidar birliyi tam təmin olunub, bəzi geosiyasi mərkəzlərin qaranlıq planları və dağıdıcı ssenarilərinin reallaşmasının qarşısı alınıb, Azərbaycan sabitlik adası və təhlükəsizlik məkanı kimi uğurlu inkişaf yoluna çıxıb. Belə bir şəraitdə Azərbaycan gəncliyi də həm ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etmək missiyasını uğurla yerinə yetirib, həm də respublikamızın ərazi bütövlüyünün təmin olunmasında öz üzərinə düşən vəzifənin öhdəsindən məsuliyyətlə və şərəflə gəlib. Bu reallıq ölkə gəncliyinin vətənpərvərlik ruhunun timsalında və xalqımızın mübarizə əzminin fonunda müasir müstəqil Azərbaycan dövlətinin mütərəqqi simasının, sarsılmaz qüdrətinin və parlaq gələcəyinin əyani ifadəsidir.

"İnkaredilməz həqiqətdir ki, Azərbaycanda uğurlu - tarixi ənənələrə, ictimai və milli dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına, reallıqlarına uyğun gənclər siyasətinin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandırırdı. Heydər Əliyev qeyd edirdi ki, hər bir xalqın, millətin, ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir", - deyən YAP Sədrinin müavini qeyd edib ki, Ulu Öndər gənclər siyasəti sahəsində vacib qərarlar qəbul etməklə, mühüm fərman və sərəncamlar imzalamaqla gənc dövlətin gənclər siyasətinin hüquqi əsaslarını formalaşdırıb, demokratik inkişafı təmin etməklə gəncliyin inkişafının ictimai-siyasi özüllərini möhkəmləndirib: "Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılması məqsədilə Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması bu kontekstdə xüsusi vurğulanmalıdır. Ümummilli Liderin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi müdrik dövlət xadiminin və Azərbaycan dövlətinin gəncliyin inkişafına xüsusi diqqət və qayğısının bariz təzahürü - əyani göstəricisidir. Bununla yanaşı, Heydər Əliyevin 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" Fərman imzalaması respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait və imkanların genişləndirilməsi baxımından müstəsna əhəmiyyətə malik olub. Bütövlükdə, Ulu Öndərin gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərinin müəyyənləşdirilməsi, təşkilati-hüquqi əsasların formalaşdırılması yönündə atdığı addımlar Azərbaycanın inkişafına, yeni cəmiyyət, hüquqi dövlət quruculuğuna töhfə olub.

Ümummilli Liderimiz qeyd edirdi ki, hər bir Azərbaycan gənci müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Məhz Heydər Əliyevin siyasəti nəticəsində öz xalqının ali mənafeyini, dövlətinin strateji maraqlarını düşünən - nəzərə alan, öz fəaliyyətində rəhbər tutan mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyi formalaşıb. Heç şübhəsiz, Ulu Öndər Heydər Əliyevin xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri üçün ən böyük miraslarından biri siyasi varisliyi təmin etməsidir. O, özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq Lider - şəxsiyyət yetişdirməklə dövlətçilik tariximizin ən böyük xidmətlərindən birini göstərib. Cənab İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyulub. Dövlət başçısının gənclər siyasəti isə milli tərəqqiyə təkan verən çox mühüm amillərdən biri olub".

Vurğulanıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, 2007-ci ilin "Gənclər ili" elan edilməsi, bu istiqamətdə mühüm addımların atılması - çoxşaxəli tədbirlərin həyata keçirilməsi gənclərin ölkənin ictimai-siyasi, mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb olub, növbəti illər üçün zəngin təcrübə və ənənələr formalaşdırıb. Bununla yanaşı, 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, 2013-cü il 2 iyul tarixində isə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi Azərbaycan gənclərinin müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək yeni nailiyyətlər qazanmasına stimul və dayanıqlı zəmin yaradıb. Digər tərəfdən, dövlət başçısı ötən müddət ərzində gənclər siyasətinin təkmilləşməsinə, bu sahədə təşkilati-hüquqi əsasların möhkəmlənməsinə, bütövlükdə, Azərbaycan gəncliyinin inkişafına xidmət edən çox mühüm qərarlar verib, fərman və sərəncamlar imzalayıb. "Azərbaycan gəncliyi 2005-2009-cu illərdə" Dövlət Proqramı, "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və digər bu kimi sənədlərin qəbul edilməsi isə gənclər siyasətinin səmərəliliyinin artırılmasına, bu yenilikçi və aparıcı qüvvənin potensialının Azərbaycanın inkişafına yönləndirilməsinə yeni və daha geniş imkanlar yaradıb.

"Ən mühüm məqamlardan biri odur ki, gənclər Prezident İlham Əliyevin islahatlar kursunun çox mühüm qüvvəsini təşkil edir. Daha dəqiq desək, dövlət başçısının kadr islahatları, gənclərə müxtəlif vəzifələrdə etimad göstərilməsi, onların məsul vəzifələrə, idarəetmə işinə irəli çəkilməsi, qabiliyyət və bacarıqlarını nümayiş etdirmələri üçün şərait yaradılması Azərbaycanın inkişafının sürətlənməsini və milli gücünün artmasını şərtləndirir", - deyən Tahir Budaqov diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi əsasında həyata keçirilən layihələr, görülən işlər də fiziki və mənəvi cəhətdən sağlam gəncliyin formalaşmasına - gənclərin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlər əsasında yetişməsinə, müxtəlif sahələrdə böyük uğurlar qazanması və ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etməsinə fundamental töhfə olub: "Onu da qeyd etmək istəyirəm ki, ölkəmizdə könüllülər hərəkatının geniş vüsət alması gənclər siyasətinin səmərəliliyinin artması baxımından olduqca önəmlidir. Dövlət başçısının müvafiq sərəncamı əsasında 2020-ci il "Könüllülər ili" elan edilib və genişmiqyaslı tədbirlər, səmərəli fəaliyyət nəticəsində Azərbaycanda könüllülük artıq bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata, gənclərin həyat tərzinə çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın ayrı-ayrı sahələrinə yayılaraq cəmiyyətimizin müxtəlif təbəqələrini əhatə edir. Şübhəsiz ki, könüllülük hərəkatı gələcək üçün sərmayədir.

Sadalananlardan əlavə, həm Prezident İlham Əliyevin, həm də Mehriban xanım Əliyevanın idmanın inkişafına xüsusi diqqət və qayğı ilə yanaşmaları sağlam gəncliyin inkişafına xidmət edən çox mühüm amillərdəndir. Respublikamızda idmanın maddi-texniki bazası davamlı olaraq möhkəmləndirilir, idmançıların sosial-məişət məsələləri həll edilir və bu sahədə mütərəqqi təcrübə tətbiq olunur. Bunun nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, gənclərimiz mötəbər beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edərək üçrəngli bayrağımızın ən yüksək zirvədə dalğalanması şərəfinə və uğuruna nail olurlar.

Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçərək möhtəşəm nailiyyətlər qazanan Yeni Azərbaycan Partiyası da öz fəaliyyətində gənclərin potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir - böyük önəm verir, gəncliyin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirir. Ümumiyyətlə, partiyamızın siyasi dinamizmini təmin edən amillərdən biri uğurlu gənclər siyasətinin reallaşdırılması, Azərbaycan gəncliyinin Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə güclü ictimai dəstək nümayiş etdirməsidir. Bunun nəticəsi özünü gənclərin Yeni Azərbaycan Partiyasına daimi və sürətli axınında göstərir. Bu gün YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir".

Bildirilib ki, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Partiyamız tarixi ənənələrə, müasir çağırışlara və mütərəqqi dəyərlərə əsaslanan fəaliyyəti ilə milli həmrəyliyin ideoloji düsturu olan azərbaycançılıq məfkurəsinin geniş təbliğinə və mənimsənilməsinə vacib töhfələr verir. Dünya azərbaycanlılarının, o cümlədən mütərəqqi qüvvə olan gənclərin də milli ideologiyanı əxz edərək yüksək vətənpərvərlik nümayiş etdirməsində YAP-ın bu istiqamətdə məqsədyönlü fəaliyyətinin müstəsna rolu var. Bu, həmçinin Azərbaycanın sabitlik adası və təhlükəsizlik məkanı kimi sürətli və dayanıqlı inkişafına etibarlı zəmin yaradır. Əlbəttə, yenilikçi və fəal qüvvə olan, daim irəliyə baxan və perspektivi düşünən təbəqənin - sağlam düşüncəli gənclərin vahid seçiminin Yeni Azərbaycan Partiyası olması təsadüfi deyil. Çünki vətəndaşların ali mənafeyini qoruyan, gənclərin xalqa və dövlətə faydalı ideyalarını dəstəkləyən YAP Azərbaycanın dünəni, bu günü olduğu kimi, gələcəyi - aydın sabahı və parlaq perspektivi olduğunu da öz əməli fəaliyyəti ilə sübuta yetirib. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası Azərbaycanın bu gününün partiyasıdır, Azərbaycanın sabahının partiyasıdır, XXI əsrin partiyasıdır, üçüncü minilliyin partiyasıdır.

"Prezident İlham Əliyev gənclərə xitabən "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" deyə qətiyyətlə vurğulayıb. Reallıqlar birmənalı şəkildə təsdiqləyir ki, Azərbaycan gəncliyi dövlətə, Vətənə və xalqa sədaqət andını yüksək səviyyədə və inamla yerinə yetirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşib, Onun siyasətinə prinsipial dəstək ifadə edir. Sevindirici və təqdirəlayiq haldır ki, Heydər Əliyev ideyalarını dərindən mənimsəyən, milli məfkurəmiz olan azərbaycançılıq ideologiyasının ətrafında sıx birləşən gənc nəslin nümayəndələri qüdrətli Azərbaycan dövlətinin sağlam düşüncəli vətəndaşları kimi ölkəmizin inkişafına mühüm töhfə verir, respublikamızı beynəlxalq arenada layiqincə təmsil edirlər. Və əminliklə söyləmək olar ki, qüdrətli və nüfuzlu Azərbaycan Böyük yolun Müzəffər davamçısı olan İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər qazanacaq - yeni strateji zirvələr fəth edəcək, mütərəqqi Azərbaycan gəncliyi isə qalib və güclü dövlətin vətəndaşları kimi səmərəli fəaliyyət göstərərək öz üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, milli tərəqqiyə mühüm töhfə verəcəklər!", - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

Konfransda çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib ki, könüllülük nəcib xüsusiyyət kimi xalqımızın mental dəyərlərindəndir. Müstəqillik illərində də gənclərimiz könüllü şəkildə müxtəlif sahələrin inkişafına töhfələr veriblər. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra gənclərimiz dövlət quruculuğu prosesində fəal iştirak etdilər.

Ü.Mehdiyev qeyd edib ki, son illər könüllülüyün sürətlə inkişaf etdiyi Azərbaycan bu fəaliyyətin təbliğində və inkişafında özünəməxsus rol oynayır. "ASAN xidmət"in yaradılması ilə ölkəmizdə könüllülük hərəkatı böyük vüsət almağa başladı. Azərbaycanda geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücünün məhz gənclər olması sirr deyil. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olmasına diqqət ayıran Prezident İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Hazırda "ASAN xidmət"in 28 mindən çox könüllüsü var. Bu gün "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Eləcə də digər qurumlarda da könüllülər çalışırlar. O cümlədən könüllülük hərəkatında fəal iştirak edən YAP üzvü olan gənclər kifayət qədərdir.

Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyətinin olduğunu deyən Ü.Mehdiyev qeyd edib: "Azərbaycanda könüllülər hərəkatı ölkəmizdə keçirilən bir sıra mühüm beynəlxalq tədbirlərdə əhəmiyyətli fəaliyyəti ilə seçilib. Belə təcrübələr həm də gənclərin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Mən gənclərimizi daha da fəal olmağa, könüllülük hərəkatına qoşulmağa çağırıram".

Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin fevral ayında keçirilmiş Azərbaycan Gənclərinin I Forumu barədə xatirələrini bölüşüb. O, Azərbaycan təhsilinin keçdiyi inkişaf yolundan bəhs edib, təhsilimizin inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzolunmaz xidmətlərindən danışıb. Nazir müavini bildirib ki, Ulu Öndərin dediyi kimi, təhsil millətin gələcəyidir. Bu gün təhsilimizin davamlı inkişafı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqət mərkəzindədir.

Cəmiyyətin inkişafında təhsilin böyük əhəmiyyətə malik olduğunu deyən F.Qurbanov diqqətə çatdırıb: "Azərbaycan dövləti təhsilə xüsusi əhəmiyyət verir. Ölkəmizdə təhsilin inkişaf etdirilməsi üçün ardıcıl işlər görülür. Bu mənada gənclərin yüksək təhsil alması, yüksək bilikli vətəndaş kimi formalaşması onların dayanıqlı inkişafında mühüm rol oynayır. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizdə təhsil infrastrukturunun bərpa olunması müsbət nəticələrini göstərəcək. Biz gənclərimizin Vətən müharibəsindəki şücaətinin şahidi olduq. Bu, o deməkdir ki, Azərbaycan gəncliyi yüksək vətənpərvərlik ruhunda formalaşıb".

Nazir müavini elm və təhsilin hər bir dövlətin və cəmiyyətin inkişafında mühüm amil olduğunu vurğulayaraq deyib: "Bu gün Azərbaycan dövləti gənclərin yüksək təhsil alması üçün bütün lazımi addımları atır. Xüsusilə təhsilimizin maddi-texniki bazasının gücləndirilməsi, dünya təhsilinə inteqrasiyası istiqamətində sistemli tədbirlər həyata keçirilir. Gənc nəslin yüksək biliklərə sahib olması, vətənpərvər ruhda yetişdirilməsi, istedadlı gənclərin üzə çıxarılması, dünyanın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi və s. addımlar bu qəbildəndir. Gəncliyin inkişafı istiqamətində müxtəlif dövlət proqramları da icra olunub. Məsələn, 2007-2015-ci illəri əhatə edən Azərbaycan gənclərinin xaricdə təhsili ilə bağlı Dövlət Proqramı çərçivəsində 3558 gəncimiz 32 ölkənin 350 nüfuzlu ali məktəblərində təhsil aldılar. Həmin gənclərin böyük əksəriyyəti yüksək biliklərə sahib olan mütəxəssislər kimi dövlət və özəl sektorda çalışırlar. Bir məlumatı da diqqətinizə çatdırım ki, gənclərimizin xaricdə magistratura təhsili ilə bağlı yeni dövlət proqramı da hazırlanır. Həmin proqram 2022-2026-cı illəri əhatə edəcək. Bu proqramların məqsədi Azərbaycan gəncliyinin müasir biliklərə sahib olmasıdır".

O, Azərbaycanın gələcək inkişafı naminə müasir biliklərə yiyələnməyin, milli dəyərləri qorumağın, vətənpərvər olmağın gənclərimizin başlıca vəzifələrindən olduğunu diqqətə çatdırıb. Nazir müavini bu istiqamətdə gənclərə öz tövsiyələrini verib.

Konfransda çıxış edən Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini Fərhad Hacıyev Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs edib. Onun sözlərinə görə, bu gün Azərbaycanda yeni bir nəsil formalaşıb. "Biz artıq 25 ildir Azərbaycanda Gənclər Gününü qeyd edirik. Bu, Ulu Öndərimizin gənclərə bir töhfəsidir. Ulu Öndər Heydər Əliyev müdrik siyasi xadim, xalqını və millətini sevən böyük rəhbər kimi hər zaman Azərbaycan gəncliyinin inkişafının dəstəklənməsini ən başlıca prioritet hesab edib. Hətta ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra ilk görüşlərdən birini məhz gənclərlə keçirdi, yaratdığı ilk qurumlardan biri də Gənclər və İdman Nazirliyi oldu. Bu, onu göstərir ki, gəncliyin inkişafı Ulu Öndərin zamanından həmişə dövlətin ən başlıca prioritetlərindən biri olub", - deyə nazir müavini bildirib.

Nazir müavini qeyd edib ki, Prezident İlham Əliyev hazırda bu siyasəti uğurla davam etdirir, bu siyasət daha geniş vüsət alıb, müasir dünyanın çağırışlarına cavab verir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, yaradıcı gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Bu gün Azərbaycanın gənclər siyasəti dünyanın bir çox ölkələri üçün qabaqcıl nümunədir və artıq bu nümunə öyrənilir. Dövlətimiz gənclər üçün bütün imkanları yaradıb. Gənclərimiz bu imkanlardan yararlanmalıdırlar. Nümunə olaraq Gənclər Fondunun fəaliyyətini qeyd etmək istəyirəm. Fond fərdi şəkildə gənclərin təqdim etdiyi layihələri qiymətləndirir. Bunun nəticəsində bir çox gənclərimizin bacarıqlarının şahidi olmuşuq. Eyni zamanda, biz 44 günlük Vətən müharibəsində gənclərimizin qəhrəmanlığının, şücaətinin şahidi olduq. Biz belə gənclik ilə qürur duyuruq.

Konfransda çıxış edən Azərbaycan Ordusunun zabiti, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev bildirib ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Xüsusilə gənclərimizin yüksək vətənpərvərlik ruhu vurğulanmalıdır. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız 30 illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı Zəfərin qazanılmasında gənclərin rolunu xüsusi vurğulayıb. Vətən müharibəsində Azərbaycan gəncliyini sanki yenidən tanıdıq, böyük milli potensialımızı üzə çıxardıq. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil xalqın milli maraqlarının pozulmasına heç zaman yol verməz. Haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Canı-qanı bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edər. Vətən müharibəsi ərəfəsində, hərbi əməliyyatların gedişində hər yeri bayraqlarımızla bəzəyən, gur səsi ilə cəmiyyətimizi qələbə ovqatına kökləyən, inam yaradan da əsasən gənclərimiz idi. Prezident İlham Əliyevin səfərbərlik çağırışına on minlərlə gənc mərdliklə cavab verdi. Hamı döyüşə getmək üçün könüllü yazılırdı. Gənclərimiz yerli səfərbərlik idarələrindən dərhal orduya aparılmalarını israrla tələb edirdilər. Hər vəchlə cəbhədəki dostlarının, həmyaşıdlarının yanında olmağa, düşməndən qisas almağa can atırdılar. Hərb meydanına, qanlı savaşa ruh yüksəkliyi ilə yollanırdılar. Düşmənlə üz-üzə yalnız qələbə barədə düşünür, vətənpərvərlikləri, döyüş ruhları, hazırlıqları, əzmkarlıqları ilə işğalçının qorxulu yuxusuna çevrilirdilər. Onların azad edilmiş məskənlərimizdə üçrəngli bayrağımızı qaldırmaları, Dövlət Himnimizi oxumaları Azərbaycan gəncliyinin Vətən qarşısındakı müstəsna xidmətlərinin tarixdə əbədiləşmiş mənzərəsidir.

A.Mirzəyev qeyd edib ki, qazanılan Qələbə milli potensialımızı üzə çıxardı: "44 günlük Vətən müharibəsində qazandığımız Zəfər milli birliyimizin qələbəsidir. Azərbaycan gəncləri bu gün də öz missiyasını şərəflə davam etdirir, Vətənimizin keşiyində dayanırlar".

Konfransda yekun nitq söyləyən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan gəncliyinin uğurlarının bundan sonra da davam edəcəyinə əminliyini söyləyib. O, 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək gənclərimizə müstəqil ölkəmizin inkişafı naminə fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıb.

Konfransda Yeni Azərbaycan Partiyasının üzvü olan fəal gənclər müxtəlif nominasiyalar üzrə YAP tərəfindən diplomlar və müvafiq qurumlar tərəfindən hədiyyələrlə mükafatlandırılıb.

Sonra "Azərbaycan gəncliyi üçün yeni çağırışlar: Əsas prioritetlər" mövzusunda panel iclası keçirilib.

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı, Naxçıvan Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevin moderatorluğu ilə keçən panel iclasında Azərbaycan Gənclər Fondunun Gənclərlə iş şöbəsinin müdiri Seymur Hüseynov və "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyinin sədri Fəxrəddin Həsənzadə çıxış ediblər. Çıxışlarda Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin uğurlarından bəhs olunub.

# Azərbaycanın müdafiə naziri Ankarada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə qardaş ölkədə işgüzar səfərdədir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 1-də general-polkovnik Z.Həsənov Ankarada xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan parkı ziyarət edib, Ulu Öndərin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.

# Azərbaycan nümayəndə heyəti Anıtqəbri ziyarət edib

Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 1-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Müdafiə Nazirliyinin nümayəndə heyəti Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

Müdafiə naziri Xatirə kitabına ürək sözlərini yazıb.

Səfər fevralın 2-dək davam edəcək.

# Azərbaycan və Türkiyənin müdafiə nazirləri Ankarada birgə mətbuat konfransı keçiriblər

Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyənin milli müdafiə naziri Hulusi Akar fevralın 1-də Ankarada birgə mətbuat konfransı keçiriblər.



AZƏRTAC xəbər verir ki, nazir Hulusi Akar çıxışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə ən yüksək səviyyəyə çatan əməkdaşlıq əlaqələrinin davam etdirildiyini xatırladıb. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətinə toxunan Hulusi Akar deyib: "Şuşa Bəyannaməsi yolumuzu, strategiyamızı müəyyən edən sənəddir. Bu sənəd əsasında gördüyümüz işlər var. Hərbi təlim, əməkdaşlıq məsələləri ilə bağlı işlər davam edir. Bu işlərlə birlikdə müdafiə sənayesi, Silahlı Qüvvələrimizin arsenalı ilə bağlı nə edə biləcəyimizi də danışıqlar yolu ilə müəyyən edirik. Biz bu məsələlərdə mühüm addımlar atmışıq və atmaqda davam edirik".

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbəni xatırladan nazir Hulusi Akar bildirib: "Qarabağda genişmiqyaslı işlər görülür. Kənd təsərrüfatından heyvandarlığa, sənayedən yol infrastrukturuna qədər intensiv iş və tikinti aparılır. Bu baxımdan, irəliləyişin necə olacağını, bunun müdafiə və təhlükəsizlik məsələlərində əksini tapmasına dair müzakirələr apardıq. Əhəmiyyətli məsələlərdən biri də prezidentlərimizin görüşündən sonra Ermənistana sülh əlinin uzadılmasıdır. Biz gözləyirik və ümid edirik ki, bu sülh təklifinə düzgün qiymət veriləcək. Bu yolla çalışırıq ki, təkcə Ermənistan ilə Azərbaycan, yaxud Ermənistan ilə Türkiyə arasında deyil, bütün Qafqazda sülh və buna uyğun olaraq firavanlıq hökm sürsün".

Yüksək qonaqpərvərliyə görə Türkiyə tərəfinə minnətdarlığını ifadə edən nazir general-polkovnik Zakir Həsənov deyib ki, biz birgə fəaliyyətimizin istiqamətlərini müəyyən etmişik. Bu səfər çərçivəsində Azərbaycan və Türkiyə Silahlı qüvvələri arasında planlaşdırılan tədbirləri müzakirə etdik.

Qırx dörd günlük Vətən müharibəsindən sonra görüləsi işlərin hələ çox olduğunu diqqətə çatdıran general-polkovnik Zakir Həsənov bildirib: "Prezidentimizin tapşırığı ilə Azərbaycan Ordusunun strukturunda Türkiyə Silahlı Qüvvələrinin ordu strukturuna bənzər islahatlar aparırıq. Bu məsələdə Türkiyə Silahlı Qüvvələrinin Azərbaycana davamlı böyük dəstəyi var. Biz bu istiqamətdə xeyli yol qət etmişik".

Yüksək əməkdaşlığa görə türkiyəli həmkarına minnətdarlığını ifadə edən azərbaycanlı nazir əminliklə bildirib ki, qısa zamanda Azərbaycan Ordusu döyüş qabiliyyətini daha da artıraraq Türk Silahlı Qüvvələrinin bütün göstəricilərini tətbiq edəcək.

# Azərbaycan gəncləri böyük Zəfərimizin qazanılmasında əsas söz sahibi oldular

"2022-ci il partiyamızın həyatında çox əlamətdar bir ildir. Bu il Yeni Azərbaycan Partiyasının (YAP) təsis olunmasının 30 illik yubileyini qeyd edəcəyik. Yubiley ili ilə bağlı YAP Mərkəzi Aparatı tərəfindən xüsusi Tədbirlər Planı hazırlanıb. İl ərzində silsilə tədbirlər davam edəcək".




AZƏRTAC xəbər verir ki, bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, biz belə tədbirləri dövlətimizin, xalqımızın həyatındakı əlamətdar hadisələrlə əlaqələndiririk. 25 ildir ki, ölkəmizdə 2 fevral - Azərbaycan Gəncləri Gününün qeyd olunduğunu deyən YAP Sədrinin müavini gənclərin hər bir ölkənin inkişafında xüsusi rola malik olduğunu söyləyib: "Ulu Öndər Heydər Əliyevin sözləri ilə desək, "Azərbaycan gənclər ölkəsi, gənclər isə Azərbaycanın gələcəyidir". Gənclər siyasəti ilk növbədə milli maraqlara, milli adət-ənənələrə söykənərək, eyni zamanda müasirliyi, dünyada gedən qloballaşma proseslərinin müsbət tərəflərini özündə əks etdirərək inkişafa xidmət etməlidir. Azərbaycanda gənclər siyasətinin əsası Ulu Öndərimiz tərəfindən qoyulub. Bilirsiniz ki, hələ 1994-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradılıb. Bununla da dövlət gənclər siyasətini həyata keçirən qurum olaraq bu sahəyə xüsusi diqqətin göstərilməsi istiqamətində mühüm addımlar atıldı. Ardınca 1997-ci ildə 2 fevral - Azərbaycan Gəncləri Günü təsis edildi. O zamandan bugünə qədər bu əlamətdar bayramla əlaqədar tədbirlər davam edir. Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin imzaladığı "Dövlət gənclər siyasəti haqqında" Fərmanda gənclər siyasətinin bütün konseptual əsasları, istiqamətləri əksini tapdı".

Tahir Budaqov qeyd edib ki, Ulu Öndərin Azərbaycan dövləti, xalqı qarşısında ən böyük xidmətlərindən biri ölkədə siyasi varisliyin təmin edilməsidir: "Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Azərbaycanın tarixində yeni bir mərhələ başlandı. Gənclər Prezident İlham Əliyevin hər zaman diqqət mərkəzində olub. Ölkəmizdə gəncliyin inkişafı ilə əlaqədar Prezident tərəfindən mühüm qərarlar qəbul olunub. Prezident İlham Əliyev tərəfindən Gənclər Fondunun yaradılması, gənclər üçün Prezident mükafatının təsis edilməsi, həmçinin gəncliyin inkişafına xidmət edən 10-na yaxın dövlət proqramının qəbul olunması bu baxımdan böyük əhəmiyyətə malikdir. Bütün bu işlərin əsas istiqamətlərindən biri də təbii ki, gənclərimizin vətənpərvərlik ruhunda, dövlətə, xalqa sədaqət ruhunda böyüməsidir ki, bu siyasət özünü 2020-ci ildə böyük Zəfərimizlə təsdiqlədi. Məhz Prezident İlham Əliyevin siyasi rəhbərliyi dövründə yetişən gənclərimiz Qələbəmizin qazanılmasında əsas söz sahibi oldular və torpaqlarımızı işğaldan azad edərək həm tarixi ədaləti, həm də Azərbaycan dövlətinin ərazi bütövlüyünü təmin etdilər. Bununla da Azərbaycan xalqının qürurlu xalq olduğunu təsdiqlədilər. Tarixi Zəfərimizdən sonra 2 fevral - Gənclər Gününün tamamilə yeni bir ab-havada keçirilməsi ənənəsi yaranıb. Bu ənənə bundan sonra da davam edəcək".

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın müdafiə nazirini qəbul edib

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovu qəbul edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar da iştirak edib.

# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov fevralın 1-də qardaş ölkənin milli müdafiə naziri Hulusi Akar ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdən əvvəl təntənəli qarşılanma mərasimi olub. Hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçib, Dövlət himnləri səsləndirilib. General-polkovnik Z.Həsənov şərəf kitabını imzalayıb.

Daha sonra nümayəndə heyətlərinin də iştirakı ilə görüş olub.

İşgüzar görüşlərdə regional təhlükəsizlik, eləcə də Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Nazir H.Akar qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu xüsusi qeyd edib. H.Akar qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

General-polkovnik Z.Həsənov Vətən müharibəsində qardaş Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstəyə görə minnətdarlığını ifadə edib. Azərbaycanın müdafiə naziri iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb.

Birgə təlimlərdə hərbçilərimizin qazandıqları təcrübənin əhəmiyyətinə toxunan tərəflər belə tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini qeyd ediblər.

Görüşlərdə vurğulanıb ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə Türkiyə ilə hərbi əməkdaşlığı daha da genişləndirir. Bu, regiondakı sabitliyi təmin edən əsas amillərdəndir.

Sonda media nümayəndələrinin sualları cavablandırılıb.

# Əsas məqsədimiz Azərbaycanda Türkiyə Silahlı Qüvvələrinin modelində Silahlı Qüvvələr yaratmaqdır

"Biz daim görüşüb iki dövləti maraqlandıran hərbi məsələləri müzakirə edirik. İlk növbədə, regiondakı hərbi-siyasi, eləcə də ikitərəfli hərbi əməkdaşlıq məsələlərini müzakirə etdik".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov jurnalistlərə açıqlamasında deyib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunda islahatların aparıldığını diqqətə çatdıran nazir deyib ki, bu islahatların əsas məqsədi Azərbaycanda Türkiyə Silahlı Qüvvələrinin modelində Silahlı Qüvvələr yaratmaqdır. Bu istiqamətdə xeyli iş görülüb. Bunun davamı olan planlarımızı müzakirə etdik.

# Azərbaycanla Böyük Britaniya arasında çoxtərəfli əməkdaşlıq münasibətlərinin uğurlu inkişafı ətrafında fikir mübadiləsi aparılıb

Fevralın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa məsələləri üzrə dövlət naziri Kris Hiton-Harris arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı tərəflər Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında çoxtərəfli əməkdaşlıq münasibətlərinin uğurlu inkişafı ətrafında fikir mübadiləsi aparıblar. Regional təhlükəsizlik məsələləri, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər də müzakirə mövzusu olub.

Cari ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağına istinad edən nazirlər bu münasibətlə birgə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Tərəflər, həmçinin bu xüsusda qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

Telefon danışığı zamanı Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumuna sədrliyi və sədrlik prioritetlərinin həyata keçirilməsi, habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Baş prokuror Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüşüb

Fevralın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Peter Mixalko ilə görüşüb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Kamran Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquq sahəsində həyata keçirilən genişmiqyaslı islahatlardan söhbət açıb, prokurorluğun korrupsiyaya qarşı mübarizə, dövlət ittihamının müdafiəsi, cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası və qurumun cinayət təqibindən kənar fəaliyyəti barədə məlumat verib. Baş prokuror Avropa Komissiyasının Tvinninq və TAIEX alətləri çərçivəsində aktual hüquqi mövzulara həsr olunmuş çoxsaylı tədbirlərin həyata keçirildiyini qeyd edib. Cari ildə başlayacaq Tvinninq layihəsi çərçivəsində Azərbaycan Prokurorluğunun Litvanın hüquq-mühafizə orqanları ilə cinayət aktivlərinin bərpası sahəsində birgə fəaliyyəti əməkdaşlığımızın bariz nümunəsi kimi qiymətləndirilib. Prokurorluqda beynəlxalq əməkdaşlıq sahəsinə xüsusi önəm verildiyini qeyd edən Baş prokuror Kamran Əliyev Avropa İttifaqına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə əlaqələrin genişlənməsi istiqamətində atılan addımlar barədə səfirə məlumat verib.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Peter Mixalko Avropa İttifaqının Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini və münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər, o cümlədən Avropa İttifaqının Prokurorluğu (EPPO) və Dələduzluqla Mübarizə Ofisi (OLAF) ilə əməkdaşlığın perspektivləri müzakirə edilib.

# Ən gənc QƏHRƏMAN

## Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubovun fəxarətli və örnək dolu döyüş gündəliyi

*Əvvəli 1-ci səh.*

Bununla da gənc əsgər saniyələr içərisində düşməndən cəld davranaraq pulemyotla düz onun alnından vurmuş, həm özünün, həm də digər döyüş yoldaşlarının həyatını xilas etmişdi...

Və elə 44 günlük Vətən müharibəmizin həmin günündə göstərdiyi müstəsna cəsarətə, qorxmazlığa, igidliyə görə cəmi 20 yaşı olan gənc əsgər Vüsal Elşən oğlu Yaqubov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdü...

### Vətən həsrəti ilə böyümüşdü

*2001-ci il martın 2-də Bakının Əhmədli qəsəbəsində məcburi köçkün ailəsində dünyaya göz açıb Vüsal. Anası Füzulidən, atası Qubadlı rayonunun Yusifbəyli kəndindəndir. O, lap kiçik yaşlarından valideynlərinin bu illər ərzində doğma ocaqlarından ötrü necə həsrət çəkdiklərinin şahidi olmuşdu. Eşitmişdi ki, işğal zamanı Qubadlını ən son tərk edənlərdən biri də Vüsalın atası olmuşdu və o, evlərindən çıxanda qohumlarını ermənilərin necə öldürməsini gözləri ilə görmüşdü. Elə atası da öldürülməkdən, düşmənə əsir düşməkdən birtəhər canını qurtararaq təkbaşına Cəbrayıl rayonuna qədər gələ bilmişdi...*

*Vüsal daim o dəhşətli anları gözünün önündə canlandırır, ürəyində düşməndən qisas almaq hissi coşurdu...*

- Bütün bu yaşananlar ta uşaq yaşlarımdan məndə döyüşçü, hərbçi olmaq arzusu oyadırdı. Məktəbdə oxuduğum dövrdə "Şahin" hərbi oyunları keçirilirdi. Mən məktəbimizdə şagirdlər arasında taqım komandiri kimi seçilirdim və o oyunlarda həvəslə iştirak edirdim. Dərslərlə paralel idmanın cüdo növü üzrə də məşğul olurdum. Yəni hələ erkən yaşlarımdam fiziki hazırlığımı artırır, gələcəkdə yaxşı döyüşçü olmaq üçün bacarıqlarımı inkişaf etdirirdim.

2016-cı il Aprel döyüşləri vaxtı məktəbli idim, amma çox istəyirdim ki, mən də o zaman döyüşçülərimizlə çiyin-çiyinə vuruşum. Ancaq bu, mümkün deyildi. O zaman Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi altında şanlı ordumuz üzərinə düşən şərəfli missiyanı müvəffəqiyyətlə yerinə yetirdi. Cəmi bir neçə gün ərzində düşməni ərazilərimizdən qovaraq, Azərbaycan xalqına böyük zəfərin başlanğıc müjdəsini verdilər. Ali Baş Komandan Aprel zəfəri ilə işğalda qalan digər Vətən torpaqlarımızın da tezliklə azad olunacağının mesajını verdi.

### Düşmənin bir tabor döyüşçüsünü pusquya salıb məhv etdik

*2019-cu ildə Vüsal hərbiyə olan hədsiz istəyinə görə, oxuduğu kollecdə (Göyçay rayon İdarəetmə və Texnologiya Kolleci) könüllü olaraq təhsilini dayandırıb hərbi xidmətə yollanır. Bir aydan sonra o, Xüsusi Təyinatlı Qüvvələrin seçimi ilə Cəlilabadda yerləşən N saylı hərbi hissəyə yollanır və əsgəri xidmətini orada davam etdirir. Çox ciddi təlimlərdən keçir, İkinci Qarabağ müharibəsindən 8 ay əvvəl isə, sanki həqiqi döyüşün içərisindədir kimi, durmadan dağ təlimlərində olur. Amma Vüsal özü də bilmir ki, hələ əsl müharibə onu qarşıda gözləyir...*

- Tərxis müddətimə cəmi 4 gün qalmışdı, evə getməyə hazırlaşırdım. Amma qəfildən Vətən müharibəsi başladı və Ali Baş Komandanın "İrəli!" əmri ilə Xüsusi Təyinatlı Qüvvələrin döyüş bölməsinin əsgəri kimi döyüşə yollandım.

Əvvəlcə Goranboy rayonunun Buzluq kəndinə yollandıq, oradan isə istiqamətimiz Kəlbəcərə doğru oldu. 4 gün Kəlbəcər dağlarında yerləşdik, sonra isə yuxarı komandanlıq tərəfindən taktiki dəyişiklik oldu və biz təcili surətdə oradan çıxaraq Beyləqan rayonuna qayıtdıq.

Daha sonra Füzulinin Horadiz qəsəbəsinin postlarından başlayaraq rayonun bir çox kəndini azad etdik. Bu ərazilərdə minalanmış sahələr, düşmən postları çox idi. Bütün çətinliklərə baxmayaraq irəliləyirdik. Adsız yüksəkliklərin birində yarımçıq səngərin içində dincəlmək məqsədi ilə dayandıq. Həmin vaxt gizirimiz dedi ki, tank səsi gəlir, qumbaraatanlar mövqe tutsunlar. Bir qədər sonra qumbaraatanlarımız yaxınlaşan düşmən "Kamaz"ını vurdular. Biz onun sürücüsünü susdurduq, bundan sonra düşmənə sursat və təminat aparan daha iki "Kamaz" gəldi. Bir az ara sakitləşdi, biz mərmilərimizi doldurmağa başladıq. Bu zaman snayperçimiz dedi ki, soldan düşmənin şəxsi heyəti gəlir. Haradasa məsafəmiz 350 metr olardı. Düşmənin döyüşçüləri yol döngəsindən dönürdülər, öndə isə komandirləri irəliləyirdi. Taqım komandirimiz fənd işlədib düşməni "ölü bölgə"yə salmaq üçün pusquya çəkdi və uzaqdan gülləni onların komandirlərinin başına vurdu. Biz isə şəxsi heyətin arxaya qaçmasına imkan vermədik. Minaatanlarımız məsafəni hesablayıb mərmiləri elə atdılar ki, ortalarına düşdü və bir taborun əsgəri məhv oldu.

### Döyüş gündəliyimin ən qürurlu anı

*Bu uğurlu döyüşdən sonra Vüsalgilin taqımı xüsusilə seçilir və elə Şuşaya kimi də dəstənin önündə gedir. Füzulinin bir çox kəndini azad edərək rayonun özünə girmədən, əks tərəfdən iki gün palçıqlı sahələrlə yol qət edərək Cəbrayıla çatırlar. Burada da Silahlı Qüvvələrimiz düşməni darmadağın edərək qaçmağa məcbur edir və bayrağımızı Cəbrayıl rayonunun girişində dalğalandırırlar. Daha sonra 14 gün Füzuli uğrunda ölüm-dirim savaşı apararaq rayonun mərkəzini tam azad edirlər və bundan sonra Xocavənd rayonuna doğru istiqamət alırlar.*

*Vüsalın həyatda heç zaman yadından çıxmayacaq savaş səhnəsi isə Xocalının Sığnaq kəndində olur.*

- Həmin kənddə tutduğumuz mövqenin arxasında döyüşçülərimiz düşmənlə atışırdı. Mən isə yolun mühafizəsində idim. Birdən əsgər yoldaşım dedi ki, Yaqubov, bizim formada şəxsi heyət görünür. Dedim ola bilsin ki, bizə kömək gəlir. Sonra isə düşündüm ki, bizə kömək gecə saat birdə gəlib çatacaq, indi o vaxt deyil, saat 17-18 radələridi. Amma yenə də dedim ki, get bax.

Bu zaman başımı sağa çevirəndə gördüm ki, palçıqlı, ağ rəngli bir "Pikap" meşənin içərisindən yola çıxır. Maşının arxasında da iriçaplı pulemyot var idi. Aramızda 40 metr məsafə olardı. Arxadan baxanda üzərindəki döyüşçünün kaskası bizim milli ordunun kaskasına oxşayırdı. Bir anlıq tərəddüd etdim ki, birdən öz döyüşçümüz olar, amma aramızdakı məsafə bir az da azalanda o, məni gördü və dərhal gözünü nişangaha qoydu ki, vursun. Mən ondan cəld davranaraq pulemyotla onun alnından vurdum.

Bu vaxt onun başı pulemyotun üzərinə əyildi, sadəcə əli tətikdə olduğu üçün güllələr gəlib yanıma mövqe üçün qoyduğum dəmirə dəydi, amma qəlpələri məni də tutdu. Buna baxmayaraq silahı susdurmadım, atış vəziyyətində saxladım, düşmənin maşınının içərisindəkilərə xəsarət yetirdim. Daha sonra əl qumbarasını çəkib maşının arxasına atdım və bundan istifadə edib yerdəyişmə etdim, haradasa 10 saniyə sonra onlar mənim çıxdığım yeri RQB qumbaraatanla vurdular.

Sonra bildik ki, məni vuran "Pikap"dan əlavə daha bir "Pikap" da var imiş, onların arxasında isə 11 nəfər şəxsi heyət dayanırmış. Hamısı xüsusi təyinatlılar idi. Mən birinci maşındakıları vurandan sonra digərləri qorxaraq dərəyə qaçmışlar və oradakı taqımımızla atışmışdılar.

Həmin vaxt düşmənin xüsusi təyinatlı alayının 20-yə yaxın döyüşçüsü ilə təkbaşına döyüşdüyümə görə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüm.

### "Ölümsüzlər dəstəsi"nin "Amansızlar taqım"ı

*Vüsalgilin taqımı qəhrəmanlıqla Sığnaq kəndini də azad etdikdən və 4 gün mühafizəsini saxlayıb qüvvələrimizə təhvil verdikdən sonra üz tuturlar Qarabağın baş tacı Şuşanı azad etməyə...*

- Daşaltı kəndi istiqamətinə getdik, amma Daşaltıya girmədik və yolun solu ilə gedib meşənin içindən yoldaşlarımla birgə iki gün Laçın dəhlizini müşahidə etdik. O zaman erməni mülki əhalisi Şuşadan çıxırdı, təkər dolu "Kamaz"larsa ora daxil olurdu. Dəhlizin sağından isə torpaq yolla ekskavator səngər qaza-qaza gedirdi. Yol boyu ancaq səngər idi və düşmən onların içində pulemyotçularla qumbaraatanlar yerləşdirmişdi.

Düşmənin ağlına gəlməmişdi ki, biz sıldırımlardan çıxaraq gələ bilərik. Ona görə də ancaq yolu tutmuşdular.

Bir müddətdən sonra Laçın dəhlizindən sol döngəyə hərəkət edəndə düşmən bizi gördü. Onlar bizə artilleriya ilə yaylım atəşi açmağa başladılar. Məcbur olub sıldırımla qalxmağa başladıq. Bu zaman onlar bizi vurmağa başladılar. Amma Allah bizi qorudu, yaralılarımız olsa da, dayanmadıq, üzü Şuşaya doğru qalxdıq.

Şuşaya az qalmış iki təpə var idi, biri alçaq, digəri nisbətən hündür idi. Noyabrın 4-də orada atışma oldu, birinci təpəni götürdük. İkinci təpənin üstü erməni ilə dolu idi. Sonradan onların çoxu Şuşanın mərkəzinə hərəkət etdiyi üçün orada cəmi 4 erməni qaldı, onlar da qumbaraatanlardan atəş açırdılar. Daxili Qoşunlarımızın snayperçisi onları zərərsizləşdirəndən sonra 4 taqım hücum edib təpəni aldıq. Bir taqımımız burada yerləşdi, qalanlarımız vaxt itirmədən Şuşanın içinə doğru istiqamətləndik.

Noyabrın 6-da biz Şuşaya girəndə əvvəlki bölmələrimiz orada ermənilərin axırına çıxmışdılar. Yolların ətrafı onların cəsədləri ilə dolu idi, amma tək-tük sağ qalan ermənilər də vardı. Biz Bülbülün evinə qədər getdik. Ondan sonra döyüşçülərimiz qalada mövqe tutmaq istəyirdilər ki, tankla oranı vurdular. Əsgər yoldaşlarım yaralansalar da, qətiyyətlə təxliyə olunmaq istəmədilər və döyüşü davam etdirdilər.

Mən özüm də Xocavəndin Böyük Tağlar kəndində yaralanmışdım, lakin bir an da döyüşü dayandırmaq fikrində olmamışdım. Hətta yaralı halda həmin kəndə bayrağımızı özüm sancmışdım.

Qürur mənbəyimiz Şuşanı azad etdikdən sonra istiqamətimiz Şuşakənd, oradan da Xankəndi idi. Amma ermənilər aqibətlərinin çox pis olacağını, tamamilə məhv ediləcəklərini bildikləri üçün kapitulyasiya aktına imza atdılar.

Beləliklə, taqımımız hünərli döyüş yolu keçib sona qədər cəsarətlə çarpışdı, vuruşdu, qazanılan böyük qələbədə payı oldu.

Hələ döyüşə girməmişdən əvvəl təlimdə taqım komandiri bizə ad qoymuşdu - "Ölümsüzlər dəstəsi"nin "Amansızlar taqım"ı. O, bizə demişdi ki, bu taqım döyüşdə öz sözünü deyəcək və doğrudan da dedi.

### Erməni barbarları əmimi şəhid etdilər

*5 həftə Şuşada qalan, sonra Cəlilabada qayıdan Vüsal evə gələndə atasının, anasının saçlarının ağardığını görüb, ermənilərin daha bir vəhşiliyinin üzücü xəbərini eşidir. Əmisi Fəxrəddin Yaqubov müharibə bitəndən sonra, 22 noyabrda barbar düşmən tərəfindən vəhşicəsinə öldürülmüşdü.*

- Əmim Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı və Laçın istiqamətlərində gedən döyüşlər zamanı ölən və yaralanan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularını döyüş meydanından çıxaran təcili tibbi yardım avtomobilinin sürücüsü olub. O, noyabrın 22-də Laçın rayonu ərazisində azaraq Ermənistan Ordusunun olduğu əraziyə daxil olub və ermənilər tərəfindən əsir götürülərək öldürülüb. Nəşi noyabrın 30-da Azərbaycan tərəfinə təhvil verilib. Hərbi xidmətdə olduğum üçün ailəm əmimin ölümünü məndən gizlətmişdi.

Hələ də düşmənə qarşı ürəyimdə olan nifrət hissi soyumayıb. Hər an Ali Baş Komandanın əmrini gözləyirəm ki, tarix boyu ermənilərin qəsb etdikləri torpaqlarımızı tam azad etmək üçün döyüşə atılım...

### Qarabağ zəfərini bizə Ali Baş Komandan qazandırdı

- Müharibənin qələbə ilə başa çatması təkcə döyüşçülərin rəşadətinə görə deyil, müdrik rəhbərin, qətiyyətli sərkərdənin bacarığı sayəsində mümkün olur. Qarabağ zəfərini bizə Ali Baş Komandan İlham Əliyevin yüksək komandanlıq qabiliyyəti, səriştəsi qazandırdı.

Hələ Vətən müharibəsinə qədərki müddətdə Ali Baş Komandan İlham Əliyev ordu quruculuğunun inkişafına böyük töhfə verdi, istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadir, yüksək döyüş ruhlu şəxsi heyətə malik güclü Silahlı Qüvvələr yaratdı.

Cənab İlham Əliyev tərəfindən orduya göstərilən yüksək diqqət və qayğının təzahürü idi ki, qəhrəman döyüşçülərimiz cəmi 44 gün ərzində düşməni torpaqlarımızdan qovub çıxardı. O cümlədən də döyüş üçün yüksək səviyyədə yetişdirilən Xüsusi Təyinatli Qüvvələrin döyüşçüləri hərb meydanında öz sözlərini dedilər. Düşmən bizdən çox qorxurdu, xüsusi təyinatlılarımızı görəndə bilirdilər ki, artıq ölümdən başqa yolları yoxdur...

*44 günlük Vətən müharibəsində "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunan Vüsal Yaqubov deyir ki, bu gün bir döyüşçü kimi fəxarətlidir ki, Ali Baş Komandan İlham Əliyevin xüsusi təyinatlılara, ümumilikdə Azərbaycan Ordusuna göstərdiyi yüksək etimadı doğruldublar və burada onun da payı olub.*

*Gənc əsgər həm də o baxımdan özünü qürurlu hiss edir ki, Ali Baş Komandan əsgər olaraq onu "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüb.*

*Yeganə hüznü isə çiyin-çiyinə vuruşduğu bəzi döyüşçü yoldaşlarının şəhid olmasıdır. Və hesab edir ki, bu gün o sağ-salamat evinə, ata-anasının yanına dönübsə, bu, məhz həmin şəhadətə ucalan qardaşlarının qəhrəmanlığı, sinəsini düşmənə sipər etmələri sayəsində mümkün olub...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***







**Vətən Müharibəsi Qəhrəmanı Vüsal Yaqubov:** Mən ehtiyatda olan bir əsgər kimi bir çox tədbirlərdə iştirak eləmişəm. Orada qeyd edirdim, cənab Ali Baş Komandanımıza dərin minnətdarlığımı bildirirəm ki, məni 19 yaşımda "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edib. Şükür Allaha, bu gün öz doğma torpağımızda Sizinləyik. Sizə təşəkkürümü bildirirəm ki, məni və döyüş yoldaşlarımı yüksək fəxri adlarla qiymətləndirmisiniz. Çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ ol, mən sənə təşəkkür edirəm, sənin simanda bizim bütün qəhrəman övladlarımıza. Onlar sinəsini qabağa verib düşməni torpağımızdan qovublar. Bax, belə igidlər hesabına biz bu gün burada dayanmışıq.

**Vüsal Yaqubov:** Hər an hər bir əmrinizi icra etməyə hazırıq.

**İlham Əliyev:** Sağ ol. Bu medallar hansı şəhərlər uğrundadır?

**Vüsal Yaqubov:** Cəbrayıl, Füzuli.

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündən, 25 oktyabr 2021-ci il***

















# 19 yaşında ən ali hərbi təltifi aldı

## Vətən Müharibəsi Qəhrəmanı Azər Abdullazadənin döyüş yolu gənclərin vətənpərvərliyinin ən gözəl nümunələrindəndir

*Əvvəli 1-ci səh.*

Atam Abdullayev Rizvan Birinci Qarabağ müharibəsi iştirakçısıdır, birinci qrup əlildir. Əmim leytenant Abdullayev Natiq isə Birinci Qarabağ müharibəsində Ağdərə istiqamətində şəhid olub, hərbi həkim idi. Nənəmi kənd qəbiristanlığına əmimin qəbrini ziyarətə hərdən mən aparırdım. Hələ onda nənəmə demişdim ki, vaxt gələcək əmimin və bütün şəhidlərimizin qisasını alacağıq.

Aprel döyüşləri də xatirəmdə böyük bir iz buraxmışdı. O zaman məktəbdə oxuyurdum, hərbi əməliyyatların getdiyi ərazilərə yaxın yaşayırdıq. 4 gün davam edən döyüşlərdəki atəşlərin səsi indiyədək qulağımdadır. Hər dəfə cəbhəyə gedən əsgərləri gördükdə onlara qoşulmaq istəyirdim. Böyük qardaşım əsgərlərə yardım aparırdı, məni isə yaşım az olduğu üçün yaxın qoymurdular. Ancaq maşınların arxasınca qaçıb əsgərlərə su verirdim.

Həmin vaxt tez-tez ordumuzun erməni mövqelərini necə yarıb keçdiklərini eşidirdim. Bilirdim ki, ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji yüksəkliklərə sahib olub. Hansı ki, həmin strateji mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verirdi ki, təmas xəttində mövcud olan vəziyyətə nəzarət edək və istədiyimiz tədbiri görək. Hər kəs rayonumuzun ərazisinin bir hissəsinin işğaldan azad olunmasından böyük fəxarətlə söz açırdı. Ona görə ən böyük arzum erməni işğalçılarına qarşı döyüşmək idi və görünür, qismətim Vətən müharibəsinə imiş...

### Özümüzə, gücümüzə və Ali Baş Komandanımıza inanırdıq...

*Azər danışır ki, sentyabrın 27-də səhər saatlarında əsgər yoldaşları ilə birlikdə tankları təmizləyən vaxt hərbi hissəyə "həyəcan" siqnalı verildi. Əvvəlcə bunun təlim üçün verilən siqnal olduğunu düşündük. Amma çox keçmədən elan olundu ki, Ermənistan cəbhə xəttində hərbi təxribat törədib və ordumuz düşmənin hücumlarının qarşısını almaq üçün əks hərbi əməliyyatlara başlayıb. O, cəbhəyə yola düşməyini belə nəql edir:*

- "Döyüşə!" əmri ilə tanklarla Füzuli rayonuna doğru hərəkət etdik. Artıq Füzulidə olarkən başa düşdük ki, müharibə başlayıb. Beləliklə, 2020-ci il sentyabrın 27-dən artıq müharibənin iştirakçısı idik. Mən həyatımın əsgərlikdən fərqli bir mərhələsinə qədəm qoymuşdum. Bir vaxtlar həsədlə izlədiyim döyüşə gedən əsgərlərdən biri idim. Çox sevinirdim və əmin idim ki, torpaqlarımızı azad edəcəyik və şəhidlərimizin qisasını alacağıq. Buna qədər döyüşdə iştirak etməmişdim. Lakin Füzuliyə yetişəndə komandirdən əsgərə qədər bütün şəxsi heyət olduqca nikbin əhvali-ruhiyyədə idi. Çünki özümüzə, gücümüzə və Ali Baş Komandanımıza inanırdıq.

*Azər bildirir ki, ilk gündən döyüşdə qazandıqları uğurun əsas səbəblərindən biri hərbi təlimlərdə qazandıqları təcrübə olub.*

- Hərbi xidmət dövründə təlimlərimiz çox olmuşdu, komandirlərimdən tankın peşəkar idarə olunmasının, düşmənə döyüş zamanı effektiv zərbə endirilməsinin sirlərinə yiyələnmişdim. Dəfələrlə düşmənin ön xəttinin yarılması üzrə məşqlər etmişdik. Ermənistan ordusunun işğal dövründə yaratdığı və möhkəmləndirdiyi müdafiə mövqelərini, mühəndis-istehkam qurğularını görməsəm də, müəyyən təsəvvürlərim var idi.

Ermənilər bir neçə mərhələdən ibarət mürəkkəb müdafiə mövqeləri yaratmışdılar. İlk sədlərdən biri avtomobil və zirehli texnikaların hərəkətinin qarşısını almaq üçün qazılan xəndək idi. Düşmən xəndəyi qazarkən torpağı öz tərəfinə tökmüşdü ki, hücum edən bölmələrimiz xəndəyi doldura bilməsinlər.

Növbəti səd tank əleyhinə mina sahəsi idi. Ondan sonra tank əleyhinə dirəklər, metal kirpilər gəlirdi. Həmçinin



piyadalar üçün minalanmış sahələr, tikanlı məftildən hazırlanmış torlar və daha nələr... Məhz peşəkarlığımız nəticəsində sürətlə və minimal itki ilə düşmənin müdafiə xətlərini yardıq və hücuma keçdik.

Elə ilk anlardan mən müharibənin nə demək olduğunu anladım. Onu da deyim ki, keçirdiyim ilk duyğu fəxarət hissi oldu. Müharibə nə qədər həyəcanlı, qan qoxulu olsa da, Vətən üçün haqq savaşına qalxan əsgərlərimiz, zabitlərimiz, çavuş və gizirlərimiz bu sədləri, istehkamları elə yarıb keçirdilər ki, düşmənin canına vəlvələ düşürdü. Silahını atıb qaçmaqdan başqa ermənilərin çarəsi qalmamışdı.

### Qüdrətli Sərkərdəmizin "Dəmir yumruğ"u ilk saatdan başlayaraq qələbə qazandı

*Sentyabrın 27-də Azər və döyüşçü dostları Füzuli rayonunun ərazisində tanklarla düşmənin ön xətt mövqelərini uğurla yarmağa nail olurlar. Elə əkshücumlar həyata keçirirlər ki, ermənilər gözlərini belə açmağa imkan tapmırlar. Qəhrəman döyüşçü danışır ki, ilk saatlardan düşmənin onlarca ağır hərbi texnikasını və müxtəlif nəqliyyat vasitələrini məhv etdilər, atəş mövqelərini susdurdular. Onun idarə etdiyi T-90 tankı isə elə ilk döyüşdə düşmənin bir tankını və çoxsaylı canlı qüvvəsini sıradan çıxartdı:*

- İlk döyüşdə bizim tankımız minaatanla vuruldu, mən də yaralandım. Amma tankımız döyüş qabiliyyətini itirmədi və xəsarət almağımıza baxmayaraq döyüş tapşırığını sona qədər yerinə yetirdik. Axşam hava qaralandan sonra məni Füzuli rayonunun Əhmədbəyli kəndindəki hospitala gətirdilər. Bir gün hospitalda müalicə aldıqdan sonra düşündüm ki, burda çox qala bilmərəm. Səhəri gün hərbi hissənin arxadakı bölmələrinin yanına gəldim. Orda da qala bilmədim və hərbi hissə komandirinin icazəsi ilə ərzaq maşını ilə ön xətdəki bölmələrimizin yanına qayıtdım.

Ön xətdə əvvəlcə mənə dedilər ki, bölüklərin tank heyətləri tam komplektləşdirilib. Amma əvvəlki uğurlu döyüşümü nəzərə alaraq məni hərbi hissənin ikinci bölüyünün tərkibinə saldılar və növbəti dəfə döyüşə girdim. Ermənilər geri çəkilsələr də, arxadakı eşelonlarda mövqe tutmuşdular. Hərbi hissəmizin döyüş əmri həmin ərazilərdəki atəş nöqtələrini məhv etmək, piyada motoatıcı bölmələrimizin hücumlarını dəstəkləmək idi. Dayanmadan irəliləyirdik. İtkimiz, tanklarımızdan vurulanı olsa da, düşməni qovaraq, məhv edərək irəliləyirdik.

Cəbrayıl rayonunun Rüzgar kəndi ətrafında gedən döyüşlər zamanı ermənilər xüsusilə möhkəmləndirdikləri mövqelərindən iriçaplı silahlardan əsgərlərimizi, həm də texnikanı atəşə tuturdular. Bu, elə bir mövqe idi ki, düşməni susdurmaq üçün dəqiq atəş açmaq lazım gəlirdi. Əvvəl başqa bir tank, sonra isə mən atəş açdım və mərmi kiçik pəncərədən daxil olaraq ermənilərin mövqeyini darmadağın etdi. Döyüşü uğurla başa vurduq, düşmənin atəş nöqtələrini susdurduq və motoatıcı bölmələrimiz hücuma keçdilər.








Döyüşdə iştirak edən 8 tankın heyətinin hamısı sağ-salamat tapşırığı yerinə yetirdi. Sonra əmr gəldi ki, tanklar iki qrupa ayrılmalıdırlar. Bizim qrup xüsusi təyinatlı bölmələrlə birlikdə oktyabrın əvvəllərində Cəbrayıl şəhəri istiqamətində hücuma keçdi. Qrupumuz irəliləyərək rayonun Şükürbəyli kəndinin yaxınlığında mövqe tutdu. Şükürbəylidən düz yol Cəbrayıl şəhərinə gedirdi, sola burulan yol isə Zəngilan və Qubadlıya aparırdı. Hər iki istiqamətdə gedən döyüşlər zamanı düşmənə sarsıdıcı zərbələr vurduq.

### Ermənilərin zirehli texnikasını, "UAZ" avtomobilini və iki "Ural"ını məhv etdik, 3 atəş nöqtəsini susdurduq

*Azər deyir ki, Cəbrayıl rayonu ərazisində düşmənin alayının yerləşdiyi bir hərbi hissə var idi. Döyüş tapşırıqlarından biri həmin hərbi hissənin alınması idi:*

- Bizim tank hərəkət edərək yüksəklikdə mövqe tutdu. Baxdıq ki, ermənilər hərbi hissədədirlər. Ərazinin tam müşahidəsini həyata keçirdikdən sonra hərbi hissəni tank atəşinə tutmağa başladıq. Bu vaxt ermənilər gizlənmək üçün toplu şəkildə hərbi hissədəki binalara doluşdular. Həmin binaları yerləyeksan etdik.

Ermənilər bu döyüşdə bir neçə dəfə tanklarımızı hədəfə aldılar. Amma biz aldadıcı manevrlərlə döyüşürdük və hər dəfə atəşdən sonra cəld hərəkət edərək yerimizi dəyişirdik. 3-cü atəşdən sonra tankımızın hədəfə düşdüyü barədə siqnal aldıq. Tez tüstü qumbarasını atdım. Bu qumbara düşmənin nişan ala bilməməsi üçün tankı maskalayan xüsusi vasitədir. Beləliklə, ermənilər nə qədər cəhd etsələr də, bizi hədəfə ala bilmədilər.

Həmin an gördüm ki, "Ural" avtomaşınına doluşan ermənilər qaçmaq istəyirlər. Cəld sərrast atəşlə maşını əsgərlərlə birlikdə göyə uçurdum. Bu vaxt kənardan maşının vurulduğunu görən 30-a yaxın erməni bir qədər aralıdakı sığınacağa doluşdu. Sərrast atəşlə sığınacağı da darmadağın etdik və içəridəkilərin hamısı məhv oldular.

Bunun ardınca erməni zabitlərin olduğu minik avtomobilini vurdum. Ümumilikdə, bu döyüşdə tankla ermənilərin bir zirehli texnikasını, iki "Ural" avtomaşınını və bir "UAZ" avtomobilini məhv etdim, 3 atəş nöqtəsini susdurdum. Məhv etdiyimiz erməni hərbçilərinin isə sayı çox idi. Ordumuz hərbi hissəni ələ keçirdi. Biz isə geri qayıdaraq tanklara yeni mərmilər yüklədik.

Bundan sonra Cəbrayıl şəhəri də azad edildi və mən düşmənin bir zirehli texnikasını qənimət götürdüm. Bütövlükdə, Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatını, döyüş və avtomobil texnikasını ələ keçirdik. Bu döyüşlərdə Cəbrayılın Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Decal, Mahmudlu, Cəfərabad, Horovlu, Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad edildi. Müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyə nəzarəti ələ keçirdik.

### Birinci vitse-prezident Mehriban Əliyevanın qayğısı və diqqəti ilə əhatə olundum

*Qəhrəman tankçının sözlərinə görə, onlar döyüşlərdə olan vaxt Ali Baş Komandan İlham Əliyev xalqa müraciətlər etmişdi:*

- Televizora baxmaq, radio dinləmək imkanımız yox idi. Amma Prezidentimizin müraciətlərindən xəbərdar idik və bu, bizə güclü motivasiya verirdi. Deyirdilər ki, Prezident İlham Əliyev bizim işğaldan azad etdiyimiz kəndlərin adını elə həmin gün çəkir, xalqa zəfər xəbərini yetirir. Sevncimizin həddi-hüdudu olmurdu. Ali Baş Komandan ermənilər barədə "qovuruq onları", "axıra kimi qovacağıq" sözlərini deməklə bizim hücum əməliyyatlarımıza dəqiq qiymət verirdi. Həqiqətən, erməniləri qovurduq, onlar arxalarına baxmadan qaçırdılar.

Oktyabrın 11-nə kimi bütün hücumlarda uğurla iştirak etdim, döyüş əmrlərini tam yerinə yetirdim. Oktyabrın 11-də hücum zamanı mənim olduğum tank Cəbrayılın Hacılı kəndi istiqamətində düşmən tərəfindən vuruldu. Bizi tank əleyhinə raketlə vurmuşdular. Zərbədən sonra huşumu itirdim. Özümə gələndə hiss etdim ki, gözlərim görmür. Həmin an fikirləşirdim ki, düşmənə əsir düşməkdənsə, döyüşüb şəhid olaram. Bir az keçmiş eşitdim ki, kimsə tankın lükünü döyür, amma səsküydən onun nə dediyini başa düşə bilmirdim. Yavaş-yavaş lükü açanda bildim ki, tankın üstündəki bizim hərbi hissənin əsgəri Elsevər Hümbətlidir. Elsevər məni tankdan çıxartdı. Sonra ərazidən təxliyə etdilər...

*Azəri əvvəlcə Füzulinin Əhmədbəyli kəndindəki hospitala gətirirlər. Onun ilk cərrahi əməliyyatını burada doğma əmisi, polkovnik Elçin Abdullayev edir. Daha sonra Müdafiə Nazirliyinin mərkəzi hospitalına köçürürlər və burada növbəti dəfə əməliyyat olunur. Əməliyyatdan çıxandan sonra 4 gün komada qalır:*

- Ayılandan sonra həkimlərin ilk işi mənim görüb-görmədiyimi yoxlamaq oldu. Qarşıma bir saat qoymuşdular və rəqəmləri göstərib soruşurdular: onları seçə bilirsənmi? Cavab verirdim ki, yox.

Hospitalda bildim ki, sağ gözümü itirmişəm, sol gözümün vəziyyəti isə yaxşı deyil və görə də bilərəm, görməyə də. Çünki hələ qəlpə qalmışdı. Bundan sonra məni yenidən əməliyyat etdilər, 4 həftə gözlərim bağlı qaldı. Daha sonra digər xəstəxanalarda müalicə aldım, tədricən zəif də olsa, görməyə başladım. Ümumiyyətlə isə, 7 dəfə əməliyyat olundum.

Tankımız vurularkən üzüm yanmışdı, dişlərim sınmışdı. Hospitalda həkimlərimiz bütün bu xəsarətlərimi ən yüksək səviyyədə müalicə edərək aradan götürdülər.

Müalicə müddətində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük qayğısı, diqqəti ilə əhatə olunmuşdum. Bu himayədarlıq bütün yaralı hərbçilərə aid idi. Mehriban xanım davamlı olaraq bizim vəziyyətimizlə maraqlanırdı. Müalicəmizi şəxsi nəzarətinə götürərək, gərəkli bütün tədbirləri görürdü.

### Ali Baş Komandan İlham Əliyevin əsgəriyəm

*Azər 2020-ci ilin dekabrında hospitaldan buraxılır. Əvvəlcə xidmət etdiyi hərbi hissəyə gedir, əsgər yoldaşları və komandirləri ilə görüşür və evlərinə qayıdır:*

- Axşam saatlarında komandirim, polkovnik-leytenant Firdovsi Bəyova zəng etdim. Səsindən hiss olunurdu ki, sevinc içərisindədir. Dedi ki, Azər, səni təbrik edirəm, Ali Baş Komandan İlham Əliyev sənə "Vətən Müharibəsi Qəhrəmanı" adı verib.

Ailəmiz həm Birinci, həm də İkinci Qarabağ müharibəsində Vətən qarşısındakı borcunu layiqincə yerinə yetirib. Atamın, əmimin yolunu mən, hərbi həkim olan digər əmim, o cümlədən Suqovuşan və Talış istiqamətlərində döyüşən qardaşım Yaqub Abdullazadə layiqincə davam etdirdik. Həm torpaqlarımızı işğaldan azad etdik, həm də əmimin və bütün şəhidlərimizin qisasını aldıq. İllər öncə nənəmə verdiyim sözü tutduğum üçün qürur hissi keçirirəm.

Ali Baş Komandan İlham Əliyev tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmək mənim üçün böyük şərəfdir. Həm də 83 nəfərin sırasında bu adı daşıyan cəmi 3 əsgərdən biriyəm.

*Vətən Müharibəsi Qəhrəmanı Azər Abdullazadənin döyüş yolu Azərbaycan gənclərinin vətənpərvərliyinin ən gözəl nümunələrindəndir. Cəsur tankçı deyir ki, qazi olsa da, Ali Baş Komandan İlham Əliyevin əsgəridir və Vətən qarşısında borcunu qəhrəmancasına icra etdiyi kimi, mülki həyatda da öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirəcək.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şəhidlik ən uca zirvədir



Bu zirvəni fəth edənlərin ömürləri min illərlə, əslində, ölümsüzlükləri ilə ölçülür. Müqəddəslərimizin üz qoyduğu torpaq o zaman vətən sayılıb ki, uğrunda şəhid olublar, düşmənlə cihada çıxıblar.

Qarabağımıza iki yüz il ərzində diş qıcayan yadellilərin, dünyada işğalçı, terrorçu kimi tanınan ermənilərin də diş altındakı iştahı az olmadı. Amma niyyətləri bəd olduğu üçün "öz başlarını yedi"...

Qarabağın əlimizdən zorla alınmasına çalışan, 30 ilə yaxın bu diyarımızı işğalda saxlayan, sərvətini talayan daşnakların cavabını verib, torpaqlarımızı azad edən cəngavər oğullarımız da uca zirvəyə yüksəldilər - şəhidlik məqamına!

Belə vətənpərvərlərimizdən biri də 1996-cı il martın 14-də Sumqayıtda dünyaya göz açan Ruslan Natiq oğlu İmanquliyev idi. Kiçik yaşlarından atasını "itirmişdi", anasının himayəsində böyümüşdü. Orta məktəbi başa vurmamış ixtisaspeşə təhsili almaqla ailənin güzəranını yaxşılaşdırmaqdan ötrü anasına dəstək olmaq istəyirdi. Məhz buna görə də Sumqayıt şəhər H.Aslanov adına orta məktəbin 9-cu sinfini bitirdikdən sonra 1 nömrəli Sumqayıt şəhər peşə təhsili liseyinin telekommunikasiya texnologiyalarının kompüter üzrə operatoru ixtisasına yiyələnmişdi.

2015-ci ilin iyin ayı Ruslanın həyatına əlmətdar tarix kimi yazılmışdı: o, həqiqi hərbi xidmətə çağırılmışdı. DSX-nin "N" saylı hərbi hissəsinin çevik alay taborunda xidmətə başlamışdı.

Hərbi xidmət müddəti başa çatdıqdan sonra anasının arzularından birini yerinə yetirib, sevib-seçdiyi Elvina xanımla ailə həyatı qurmuşdu.

Anasının yeganə övladı olmasına baxmayaraq, Ruslan 2019-cu ildə yenidən Azərbaycan Silahlı Qüvvələrinin tərkibində Vətənə xidmət göstərməyi vacib saydı. Tank əleyhinə qumbaraatan taqımın komandiri vəzifəsinə təyinat aldı. MAHHX-nın qulluqçusu işlədiyi müddətdə müxtəlif hərbi təlimlərdə fəallığı ilə seçildi.

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ savaşında ön cəbhədə olanlardan biri də Ruslan İmanquliyev idi. Torpaqlarımızın bütövlüyü uğrunda aparılan mübarizənin yeni və son mərhələsi olan bu döyüşlərdə Ruslan da Vətənə sədaqətinə sadiq qaldı. Füzuli istiqamətində gedən ağır döyüşlərdə fəallıq göstərən Ruslan hətta minalanmış ərazilərdən keçməyi də bacardı. Canını fəda etməyə belə hazır olduğunu göstərən Ruslan ağır "artilleriya yağışı"nın altında irəliyə doğru şığıdı. Təəssüf ki, mənfur və amansız düşmənin gülləsindən yayınmadı...

Həmin məqam igidimizin Vətən uğrunda apardığı döyüşlərin son anı kimi tarixə yazıldı.

Ruslan kimi qorxmaz igidlərimizin Vətənə sevgisi ilə xidməti Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin imzaladığı sərəncamlarda da tarixləşdi. Azərbaycan Prezidentinin imzaladığı sərəncama əsasən, vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Ruslan Natiq oğlu İmanquliyev "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

Yeganə oğul anası Ramiyyə xanım isə şəhid balasının məzarı başında bunları söylədi: "...Mən fəxr edir və qürur duyuram ki, oğlum Vətənə layiq övlad oldu! Ruslan da faşist xislətli ermənilərdən xalqımızın qisasını aldı! Bütün şəhidlərimizin anaları kimi, mən də südümü oğluma halal edirəm! Nur içində yat, şəhid balam! 44 günlük Vətən müharibəsində Qələbə qazandıq!"

***Məşədi ZEYNALOV,***
***Sumqayıt şəhər Veteranlar Təşkilatının məsul katibi, qabaqcıl maarif xadimi***



# Mütərəqqi gənclər platforması

Hər bir ölkədə, cəmiyyətdə siyasi, iqtisadi, sosial, mədəni uğurlar bir çox amillərlə yanaşı, gənc nəslin necə formalaşmasından da asılıdır. Təsadüfi deyil ki, gənclik hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Müasir dövrdə gənclər və idman sahəsində qazanılan uğurlar dövlətlərin ümumi inkişaf səviyyəsini, iqtisadi-sosial potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır.

## Ulu Öndər Heydər Əliyev gənclərin böyük himayədarı idi

Bütün bu qanunauyğunluqları dərindən bilən Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənc nəslin yetişməsinə, cəmiyyət üçün lazımlı insanlar kimi formalaşmasına xüsusi diqqət yetirib. Hələ sovet dönəmində, ötən əsrin 70-ci illərində Azərbaycanın inkişafına nəzər yetirsək, görərik ki, həmin dövrdə gənclərin təhsilinə, sağlamlığına, bacarıqlı kadr kimi yetişməsinə və bu istiqamətdə digər məsələlərə xüsusi ardıcıllıqla qayğı göstərilirdi. O dövrdə SSRİ-nin müxtəlif respublikalarının qabaqcıl ali məktəblərində təhsil almağa göndərilən azərbaycanlıların sayı 1969-cu ildə cəmi 47 nəfər olduğu halda 1980-ci illərin əvvəllərində bu göstərici 1000 nəfərə çatmışdı. Bununla yanaşı, respublikamızın özündə ali təhsil müəssisələrinin fəaliyyətinin genişlənməsi, C.Naxçıvanski adına hərbi məktəbin yaradılması, komsomol qurumlarının fəaliyyətinin canlandırılması gənc nəslin inkişafına göstərilən diqqətin təzahürü idi.

Bütövlükdə, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində idarəetmədə gənclərlə işə böyük önəm verilib və bu, dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edib.

1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirərək daimi edən Ulu Öndər Heydər Əliyev ilk günlərdən gənclərin problem və qayğıları ilə maraqlandı. 1993-cü ilin sentyabrında Ali Sovetdə gənclərin nümayəndələrini qəbul edərək onları dinləyən, 1994-cü ilin iyulunda gənclər və idman siyasətini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanını yaradan, bir qədər sonra bütün şəhər və rayonlarda bu nazirliyin yerli idarələrinin yaradılmasına sərəncam verən, hər il büdcədən gənclər siyasəti üçün maliyyənin artırılmasını təmin edən Heydər Əliyev gənclərə bəslədiyi böyük ümidlərini əməli işi, tarixi xidmətləri ilə təsdiqlədi.

1996-cı il fevralın 2-də Ulu Öndərin iştirakı ilə Azərbaycan Gənclərinin I Forumu keçirildi. Bu forum respublikanın hər yerində gənclərlə aparılan işin canlanmasına təkan verdi. Forumdan sonra gənc istedadların "Qızıl kitabı"nın təsis edilməsi, fevralın 2-nin təqvimə "Azərbaycan Gəncləri Günü" kimi daxil edilməsi, 1997-ci ildə gənc yazıçılarla görüşlərin keçirilməsi, onlar üçün fərdi təqaüdlərin ayrılması və digər tədbirlər gənclərin təşkilatlanmaya olan meyillərinin artmasına, müasir gənclər hərəkatının formalaşmasına şərait yaratdı.

## Prezident İlham Əliyev gənc nəslin inkişafını diqqət mərkəzində saxlayır

Fərəhli haldır ki, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətini ardıcıllıqla davam etdirir, gənc nəslin hərtərəfli və müasir tələblər baxımından inkişafı üçün sistemli iş görür.

Öncə onu qeyd edim ki, cənab İlham Əliyev özü də gənc yaşlarından böyük uğurlara imza atıb. 3 il əvvəl - 2019-cu il fevralın 1-də gənclər forumunda iştirak edən Prezident İlham Əliyev öz çıxışında ilk dəfə olaraq gənclik illərini qısa faktlarla da olsa xatırlatdı. Dövlət başçısı 1977-ci ildə nüfuzlu Moskva Beynəlxalq Münasibətlər İnstitutuna daxil olub, oranı uğurla bitirib və bu ali məktəbdə aspirantura pilləsində təhsilini davam etdirib, 1985-ci ildə namizədlik dissertasyası müdafiə edib. Daha sonra bu təhsil ocağında gənc alim kimi dərs deməyə başlayıb. İlham Əliyev gənc yaşlarında elmdəki nailiyyətləri ilə bütün gəncliyimiz üçün nümunələr yaradıb.

Gənclik illərində böyük uğurlar qazanan İlham Əliyev dövlət başçısı kimi gənc nəslin inkişafını daim diqqət mərkəzində saxlayır. Ötən 18 ildə Azərbaycanda gənclər siyasəti daha da genişləndirilərək verilmiş qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəlib. 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. "Neft gəlirlərini insan kapitalına" çevirən Prezident İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoyub və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqləyib. 2007-ci ili ölkədə "Gənclər ili" elan etməklə Prezident İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini ortaya qoyub. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icra edilməsi dövlət başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən doğan gənclərə etimad və münasibətinin əyani təzahürüdür.

Dövlət başçısının təsdiqlədiyi 2017-2021-ci illəri əhatə edən növbəti proqramı da qarşıya qoyulan vəzifələrin icrasında böyük rol oynayıb.

Prezident İlham Əliyev 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədi ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı da təsdiq edib. Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır. Bunun üçün isə vəzifələr müəyyənləşdirilərək qarşıya qoyulmuşdu. Bu vəzifələrin icrası nəticəsində gənclər arasında təhsil səviyyəsinin və peşə təhsili alanların sayının artması, gənc məzunların ixtisaslarına uyğun işlə təmin edilməsi səviyyəsinin yüksəldilməsi, onların innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılması, praktikada tətbiqi üçün zəmin yaradılması, gənclərin işsizlik səviyyəsinin aşağı salınması, ali və orta ixtisas təhsili müəssisələri məzunlarının öz regionlarında ixtisaslarına uyğun işlə təmin edilməsi, əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli gənc kadr potensialının formalaşdırılması, gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması mexanizmlərinin davamlı olaraq təkmilləşdirilməsi və digər istiqamətlərdə uğurlar əldə ediləcək.

İndiyədək bölgələrdə 40-dan çox gənclər mərkəzi, 45-ə yaxın idman kompleksi tikilib istifadəyə verilmişdir. 2009-cu ildə bu siyasət sahəsində çalışan QHT-lərə, ictimai birliklərə və özəl bölmələrə maliyyə dəstəyi məqsədilə "Gənclər Fondu" yaradılmışdır. 9 aprel 2002-ci ildə "Gənclər siyasəti haqqında" qanun yenidən işlənib təsdiq olunmuşdur. Bu qanunda çoxlu maraqlı məqamlarla yanaşı, gənc ailənin yaş tərkibi də dəqiqləşdirilmişdir. Nikaha girənlərdən birinin 35 yaşı olarsa, bu cütlük gənc ailə adlanır və bir sıra imtiyazlar qazana bilir. Bu imtiyazlar digər qanunlarda da təsbit olunmuşdur. Belə ki, gənc ailələrə mənzil ipotekası almaq üçün güzəştli kreditlər verilir. Yeri gəlmişkən onu da qeyd edim ki, Ailə Məcəlləsində və digər qanunlarda gənc ailənin sosial müdafiəsi ilə bağlı köklü dəyişikliklər olub. Belə ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə gənclərin nikaha girmək üçün yaş həddi 18-ə qaldırılıb. Nikaha girənlərin tibbi arayış təqdim etməsi icbariləşmiş, erkən yaşlı uşaqların qidalanması və 18 yaşadək olanların icbari dispanserizasiyası haqqında qanun qəbul edilib. "Uşaq hüquqları haqqında" qanuna bir sıra dəyişikliklər olunub, əlilliyi olan uşaqlara görə valideynlərə 80 manat müavinət ayrılıb, Əmək Məcəlləsi təkmilləşdirilib.

Onu da qeyd edim ki, əgər 2020-ci ildə ölkədə nikaha girən cütlüklərin sayı 35 min 348 nəfər idisə, keçən 2021-ci ildə bu rəqəm 59 min 319-a qədər artıb.

## Gənclərə diqqət və qayğı kompleks xarakter daşıyır

Azərbaycanda gənclərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir. Həyata keçirilən bütün dövlət proqramlarında bununla bağlı vacib məqamlar öz əksini tapıb. O cümlədən sosial problemli gənclər üçün də mühüm layihələr həyata keçirilir. I və II qrup əlilliyi olan gənclərin ödənişli təhsil haqqı dövlət büdcəsindən maliyyələşir, eyni zamanda valideynini itirmiş imtiyazlı ailələrin gəncləri 23 yaşına qədər müavinət ala bilirlər. Bu müavinət təhsil alan bu qrup gənclərə də şamil edilir.

Dövlət başçısının "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 1 oktyabr tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların dövlət gənclər siyasətinin tələblərinə uyğun şəkildə hərtərəfli inkişafının təmin olunması, habelə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verilməsi məqsədilə ölkəmizin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması işi uğurla davam etdirilir. Bu sərəncamın icrasından ötən qısa müddətdə 20 şəhər və rayonda Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri yaradılıb. Bu nümayəndəliklərin qısa müddətdə 56-ya çatdırılması nəzərdə tutulub.

Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin beynəlxalq mühitdə fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Bu ali diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz fəaliyyətləri ilə onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Ölkə gənclərinin hərtərəfli inkişafına yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

Gənclərin ölkənin ictimai-siyasi həyatında fəal iştirakının bir parlaq nümunəsi də YAP Gənclər Birliyinin gördüyü işlərdir. Parlamentin say tərkibində son seçkilərdə gənclərin faizi xeyli artıb.

Rəhbər vəzifələrə və idarəetməyə gənc kadrların hazırlanması elmi əsaslarla sistemli şəkildə aparılır. Gənclərin son vaxtlar yüksək vəzifələrə irəli çəkilməsi də buna parlaq misaldır.

Təhsil sistemi gənclərin təlim-tərbiyə işində xüsusi rol oynayır. Hazırda Azərbaycanda 52 ali məktəb fəaliyyət göstərir ki, bu qurumlarda da 200 minə yaxın gənc təhsil alır. Bununla yanaşı, aktual peşələrin öyrədilməsi istiqamətində ölkədə son illər sistemli, müasir texnologiyalarla 51 orta ixtisas və113 peşə məktəbləri fəaliyyət göstərir.

## Qabaqlayıcı sosial müdafiə tədbirləri uğurla reallaşdırılır

Azərbaycan sosial dövlətdir. Təsadüfi deyil ki, respublikamızda dövlət siyasətinin əsas istiqamətlərindən biri vətəndaşların sağlamlığının təmin olunmasıdır. Bu mənada sağlamlığın qorunması məqsədilə bədən tərbiyəsi və idman qurğularının sayının artırılması hər zaman ön plandadır.

Bu sırada gənclərlə bağlı fəaliyyət planlarında da idmanın inkişaf etdirilməsinə və onun kütləviliyinin artırılmasına xüsusi diqqət yetirilir. Artıq uzun illərdir ki, Prezident İlham Əliyevin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda 45-ə yaxın olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın olimpiya oyunlarında və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

Bütün bunların nəticəsidir ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq, göstəricilərinə görə ön sıralarda qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bundan başqa, ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı 2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması və digər nailiyyətlər Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurlardır.

Bədən tərbiyəsi və idmanın kütləviliyi üçün məktəblərdə, rayon mərkəzlərində və hətta kənd yerlərində maddi texniki baza gücləndirilib, bu sahədə dinamizmin həyat tərzinə keçməsi üçün böyük işlər görülüb.

Bütün qabaqlayıcı tədbirlərin bir qolu da asudə vaxtın təşkili məsələsidir. Görülən bütün silsilə tədbirlərə baxmayaraq, tütün məmulatları və narkotik maddələrdən istifadə narahatlıq doğurur. Asudə vaxtın təşkili sağlamlığın qorunmasında da mühüm rol oynayır. Son illərdə ölkə miqyasında mədəni-kütləvi tədbirlərin keçirilməsinə, turizmin inkişafına, rekreasiya xidmətlərinin əlçatanlığına xüsusi diqqət yetirilir. Bununla yanaşı, ölkədaxili tarixi abidələrin öyrənilməsinin və digər buna oxşar tədbirlərin miqyası genişləndirilməlidir.

## Vətən müharibəsinin qəhrəmanları

Ötən il oktyabrın 21-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Prezident İlham Əliyev deyib: "Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də sadəcə olaraq bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik".

Hərbi vətənpərvərlik tərbiyəsi belə qəhrəman övladların yetişməsində mühüm rol oynadı. Vətən müharibəsində qazanılan Qələbənin kökündə dayanan əsas amillərdən biri də Azərbaycan gənclərinin vətənə, torpağa bağlılığı oldu. Müharibənin ilk günündən gənclərimiz silaha sarılaraq torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaşa qalxdılar və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfər sevincini xalqımıza yaşatdılar.

Ötən əsrin 90-cı illərində Birinci Qarabağ savaşında 10 mindən çox gəncimiz canından keçdi, 30 minə yaxın insan əlil oldu. Aprel döyüşləri və 44 günlük müharibədə 3 minə yaxın gəncimiz şəhidlik zirvəsinə yüksəldi. 10 minə yaxın gənc müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Ölkəmizdə bu qrup insanların ailələrinə və sağlamlığını itirmiş gənclərə qayğı göstərilir. Belə ki, bu günə qədər şəhid ailələrinə 9670 mənzil, əlillərə 7200-dən çox avtomobil təqdim edilmişdir. Onu da qeyd edək ki, 2025-ci ilə qədər daha 11 min bu qrupdan olan insana mənzil veriləcək.

Respublikamızda gənclərin inkişafına, cəmiyyət həyatının bütün sahələrində fəallığının artırılmasına, mənəvi-ideoloji tərbiyəsinə, sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir. Azərbaycanda gənc nəslin problemlərinin kompleks həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakı üçün dövlət səviyyəsində bütün addımlar atılır və gələcəkdə də lazımi işlər görüləcək. Məsuliyyəti artan gənclik isə bu diqqət və qayğını yüksək qiymətləndirir, ölkəmizin inkişafına, beynəlxalq aləmdə nüfuzunun daha da artmasına və Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələrin real həyata vəsiqə qazanmasına öz töhfələrini verir.

***Hadi RƏCƏBLİ,***
***siyasi elmlər doktoru,***
***professor***

# Dövlət gənclər siyasəti Naxçıvanda uğurla həyata keçirilir

Həyatın ən parlaq anları gənclik dövründə yaşanır. Çünki gənclər keçmişlə yox, gələcəklə yaşayırlar. Gənclər həm də dövlətin gələcəyi hesab olunurlar. Elə buna görə də hər bir dövlətin özünəməxsus gənclər siyasəti mövcuddur. Sabahını etibarlı əllərdə görmək istəyən istənilən dövlətlər gənclərin sağlam ruhda formalaşması, dövlət və cəmiyyət həyatında fəal şəkildə təmsil olunmaları üçün müxtəlif tədbirlər həyata keçirirlər.

Bu sırada Azərbaycanda həyata keçirilən gənclər siyasəti öz üstün cəhətləri ilə bütün ölkələr üçün nümunə sayıla bilər. Respublikamızda gənclərin hərtərəfli inkişafını təmin edən bu siyasətin əsasları vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Ümumiyyətlə, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti xüsusi yer tutub. Ulu Öndər Azərbaycan gəncliyini inkişaf yoluna çıxararaq, bu təbəqənin cəmiyyətə layiqli inteqrasiyası istiqamətində mühüm addımlar atıb. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan gənclərinin I Forumu respublikamızın siyasi-ictimai həyatında yaddaqalan hadisəyə çevrilib. Heydər Əliyevin fərmanı ilə gənclərin I Forumu keçirildi. 2 fevral hər il respublikamızda Gənclər Günü kimi qeyd olunur.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsləri ilə respublikamızda gəncliyin sağlam ruhda böyüməsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilib. Bu məqsədlə dövlət gənclər siyasətinin mükəmməl hüquqi bazası yaradılıb, əsas vəzifələr və istiqamətlər müəyyən edilib. Azərbaycanda təhsilin, mədəniyyətin, idmanın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər paralel olaraq gənc nəslin öz bilik və bacarıqlarını nümayiş etdirməsi üçün geniş imkanlar yaradıb.

Bu kursun layiqli davamçısı kimi cənab Prezident İlham Əliyevin gənc nəslin inkişafı üçün həyata keçirdiyi fəaliyyət bütövlükdə dövlət gənclər siyasətini yeni mərhəyə qaldırıb. Son 18 ildə möhtərəm İlham Əliyev tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər, müxtəlif dövlət proqramlarının qəbul edilməsi, gənclərin xarici ölkələrdə təhsil imkanlarının daha da genişləndirilməsi, innovativ təşəbbüslərinin dəstəklənməsi, onlar üçün təqaüdlərin təsis olunması, dövlət idarəetməsində gənc kadrlara etimad göstərilməsi gənclər siyasətinin kompleks xarakter daşıdığını göstərir. Bütün bunları layiqincə dəyərləndirən Azərbaycan gənci cəmiyyət həyatının bütün sferalarında, o cümlədən dövlət idarəetməsində ona göstərilən etimadı uğurla doğrultmaqdadır.

Müasir gənclik həm də vətənpərvərdir. 2020-ci ilin Vətən müharibəsi bunun bariz təcəssümü oldu. Əldə silah torpaqlarımızın azadlığı uğrunda döyüşən, bu yolda müqəddəs şəhidlik məqamına ucalan qəhrəmanlarımızın böyük əksəriyyəti məhz gənclərimiz idi. Onların əziz xatirəsi hər zaman xalqımızın qəlbində yaşayacaq.

Prezident İlham Əliyevin gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Bu sahədə muxtar respublika rəhbərliyinin hərtərəfli dəstəyi ilə Naxçıvan Gənclər Fondunun həyata keçirdiyi tədbirlər dövlət gənclər siyasətinin bu qədim yurd yerimizdə uğurla reallaşmasını təmin edir. Gənclərin muxtar respublikanın sosial, ictimai-siyasi və mədəni həyatında yaxından iştirakının təmin edilməsi, onların təşəbbüskarlığının stimullaşdırılması və artırılması 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən diqqət mərkəzində saxlanılıb. Bu baxımdan 2021-ci il Gənclər Fondu üçün əlamətdar hadisələrlə yadda qalıb. Fondun təşkilatçılığı ilə il ərzində gənclər arasında müxtəlif müsabiqələr, mədəni tədbirlər, intellektual oyunlar keçirilib, yay məktəbləri və düşərgələr təşkil olunub. Ötən il ərzində Naxçıvan şəhərində "Azərbaycan-Türkiyə Gənclərinin Beynəlxalq Zəfər Düşərgəsi", Türkiyə Respublikasının Qaziantep şəhərində "Azərbaycan-Türkiyə Gənclərinin II Beynəlxalq Zəfər Düşərgəsi", Ağbulaq İstirahət Mərkəzində "Elm və İnnovasiya Düşərgəsi", "STEAM Yay Məktəbi", "Şəhid və Qazi Övladları üçün Zəfər Düşərgəsi", "Gənclər təşkilatlarının 2022-ci il üçün fəaliyyət strategiyasının planlaşdırılması düşərgəsi" və "Marş irəli" hərbi simulyasiyalı düşərgə təşkil olunub.

Hesabat dövründə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər fondlarının dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə ölkənin aparıcı könüllü təşkilatlarının rəhbərlərinin Naxçıvan Muxtar Respublikasına səfərləri təşkil olunub. Naxçıvan Gənclər Fondu ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı arasında könüllülük sahəsində əməkdaşlığın inkişafı, eləcə də könüllülərin şəxsi və peşəkar inkişafı istiqamətində ortaq layihələrin həyata keçirilməsi məqsədilə əməkdaşlığa dair memorandum imzalanıb. Ötən ilin dekabrında "Azərbaycan Könüllülük Həftəsi" çərçivəsində Bakı Konqres Mərkəzində təşkil olunan "Azərbaycan Könüllülərinin IV Həmrəylik Forumu"nda Naxçıvan Gənclər Fondunun könüllülərinin də iştirakı təmin olunub.

Qeyd olunanlar Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən görülən işlərin bir qismidir. Bütövlükdə, 2021-ci il ərzində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən 190 layihə və tədbir keçirilib. Keçirilən tədbirlərdə 7 minə yaxın gənc iştirak edib. Naxçıvan Gənclər Fondu bundan sonra da öz işini günün tələbləri səviyyəsində quracaq, gənclərin muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında yaxından iştirakının təmin edilməsi, onların təşəbbüskarlığının stimullaşdırılması və artırılması, asudə vaxtlarının səmərəli təşkili, bilik və bacarıqlarının artırılması, könüllülük fəaliyyətində fəal iştirakları, eləcə də vətənpərvər və layiqli vətəndaş kimi yetişmələri üçün zəruri tədbirləri davam etdirəcək.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı,***
***Naxçıvan Muxtar Respublikası***
***Gənclər Fondunun icraçı direktoru***



# Vətənpərvər gənclik gələcəyimizin təminatıdır

Azərbaycan ona görə xoşbəxt ölkədir ki, onun gəncliyi müstəqilliyimizin əbədi və dönməz olması üçün gələcək hədəflər haqqında düşünür, çalışır, vuruşur, yeri gəldikdə canından belə keçir. Bu cür vətənpərvər gənc nəslin yetişdirilməsi uzunmüddətli, davamlı strateji siyasətin nəticəsidir.

## Gənclər siyasətinin təməl prinsipləri tarixi dönəmdə

Tarixə nəzər salsaq görərik ki, gənclərə yönəlik siyasətin təməli hələ sovet dönəmindən Ümummilli Lider Heydər Əliyevin birinci hakimiyyəti dönəmində qoyulub.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-1985-ci illər ərzində SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilib. Həmin zaman hərbi sahədə təhsilin inkişafına xüsusi olaraq diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Ulu Öndər 70-ci illərdə Mərkəzi Komitədə təhsillə bağlı müşavirə zamanı təhsil nazirini və ali məktəb rektorlarını dinlədikdən sonra Ümumqoşun Komandirləri Məktəbinin rəisini çıxışa dəvət edərək sual verir: "Tələbələr içərisində yerli əhalinin nümayəndələri nə qədərdir?" Aldığı cavabdan, yəni azərbaycanlıların hərbi təhsilə zəif cəlb olunmasından çox narazı qalan Heydər Əliyev məktəbin rəisini buna görə çox kəskin surətdə məzəmmət edir və ona konkret tapşırıqlar verir. Bir müddətdən sonra eyni məzmunlu müşavirədə Heydər Əliyev Ümumqoşun Komandirləri Məktəbinin rəisini yenə xitabət kürsüsünə dəvət edərək bu mühüm işin gedişi, xüsusilə yerli əhalinin bu sahədə təhsilə cəlb edilməsinin faizi ilə maraqlanır və müəyyən irəliləyiş olmasına baxmayaraq, yenə narazı qaldığını bildirir.

Ulu Öndər deyir: "Yerli əhalinin nümayəndələrini təyyarəçilik məktəblərinə göndərmək lazımdır. Təyyarəçilər hazırlamaq lazımdır. Bu günlərdə kosmonavtlar dəstəsinin tərkibi ilə maraqlandım. Dəstəyə bir nəfər də olsun azərbaycanlının cəlb olunmamasından narazılığımı bildirdim. Mənə məlumat verdilər ki, kosmonavtlar dəstəsinə ancaq təyyarəçilik məktəblərini bitirənləri götürürlər. Bu məsələ ilə də maraqlandım. Aydın oldu ki, SSRİ-nin təyyarəçilik məktəblərində Azərbaycanın yerli əhalisinin bir nəfər də olsun nümayəndəsi təhsil almır. Bəs, siz hara baxırsınız?!"

Azərbaycanın gələcək inkişafına yönəlmiş strateji əhəmiyyətli bütün işlərə Heydər Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı. Ümummilli Lider Heydər Əliyev özü bu məsələlərə belə qiymət verir: "Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır!"

Heydər Əliyevin Azərbaycan gəncliyinə yönəlmiş strateji siyasi fəaliyyətinin qayəsini onun müstəqillik dönəmi üçün kadr potensialının artırılması təşkil edirdi. Dahi şəxsiyyət deyirdi ki, hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir!

Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması müstəqillik dövründə müasir çağırışlara cavab verən yeni gənclər siyasətinin strateji hədəflərini və əsas prioritetlərini müəyyən etdi.

Gənc nəslin düzgün tərbiyə edilməsində gənclər siyasətinin bir inzibati təsisat ətrafında birləşdirilməsinin zəruriliyini nəzərə alaraq, Ulu Öndər 26 iyul 1994-cü ildə Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilməyə başlandı. Bu siyasətin davamı olaraq 26 yanvar 1996-cı ildə Ulu Öndər Heydər Əliyevin imzaladığı sərəncama əsasən 2 fevral tarixində Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsinə təkan verdi. Həmçinin Heydər Əliyevin 22 iyun 1996-cı il tarixli fərmanı ilə istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" və o kitaba adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edildi.

## Azərbaycan Gəncləri Günü

Heydər Əliyev deyirdi ki, hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bugünüdür, həm də sabahıdır, ümididir.

Ulu Öndərin 2 fevral 1997-ci il tarixli fərmanı ilə fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edildi. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıldı.

Gənclərə strateji siyasətin davamlılığını təmin etmək məqsədi ilə qanunvericilik bazasının möhkəmləndirilməsi üçün ardıcıl olaraq Ulu Öndər tərəfindən yeni fərmanlar imzalanırdı. 29 iyul 1999-cu il tarixli "Dövlət gənclər siyasəti haqqında" fərman və 9 aprel 2002-ci il tarixli "Gənclər siyasəti haqqında" qanun da bu məqsədə xidmət edirdi. Sözügedən qanunların qəbul edilməsi ilə bu sahədə qanunvericilik bazası möhkəmləndi və dövlətin gənclər siyasəti daha da düzgün istiqamət aldı.

"Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir" deyə gənclərə yönəlik bu fikirləri səsləndirən Heydər Əliyev öz strateji məqsəd və hədəflərini aydın şəkildə göstərirdi. Dahi siyasətçi başqa bir kəlamında "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bugünüdür, həm də sabahıdır, ümididir" söyləyirdi.

Uğurlu siyasi varis Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Heydər Əliyevin gənclərə yönəlik siyasətini daha da dinamik şəkildə davam etdirdi. Prezident İlham Əliyev 16 aprel 2007-ci il tarixli sərəncamı ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı"nı təsdiq etməklə ölkənin gələcək kadr potensialının intellektual gənclikdən keçdiyinə diqqət çəkdi.

## Gənclər Günündən "Gənclər ili"nə

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda Gənclər Gününü təsis etdi, siyasi varisi Prezident İlham Əliyev tərəfindən 2007-ci il ölkədə "Gənclər ili" elan edildi. Bununla da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, gənclərin xidmətlərinin qiymətləndirilməsinə yönəlik siyasət daha da möhkəmləndi.

Prezidentin 2011-ci il 7 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Prezident İlham Əliyevin gənc idmançıların yetişdirilməsinə yönəlik siyasəti də öz uğurlu nəticələrini verdi. Təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsi idi. Milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yerləri tutması, şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafını, postneft dövrünün başlanmasını, eyni zamanda Azərbaycan dövlətinin gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsinin zəruriliyini nəzərə alaraq dövlət başçısı bu siyasəti təmin etmək məqsədilə 26 yanvar 2015-ci il tarixdə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq etməklə bir daha diqqəti bu istiqamətə yönəltdi. Həmçinin Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair sərəncam imzaladı.

Prezidentin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan danışarkən 2 iyul 2013-cü il tarixdə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsini qeyd etməmək mümkün deyil. Elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində pul mükafatının verilməsi yaradıcı gəncliyə böyük dəstəkdir.

Gəncə şəhərinin 2016-cı ildə Avropa Gənclər Paytaxtı adına layiq görülməsini də gənclərlə bağlı uğurlu siyasətin nəticələrindən hesab etmək olar. Prezident İlham Əliyevin 24 fevral 2016-cı il tarixdə "Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında" sərəncam imzalaması sözügedən tədbirlərin yüksək səviyyədə keçirilməsinə dövlət dəstəyinin təzahürüdür.

Prezident İlham Əliyevin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə təsis edilən "Yüksəliş" müsabiqəsi də intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsinə, dəstəklənməsinə və ölkədə kadr ehtiyatı bankının yaradılmasına gözəl bir töhfədir.

## "Könüllü ili" töhfəsi

Şübhəsiz ki, müasir Azərbaycan gəncliyinin formalaşmasından danışarkən "Könüllülər hərəkatı"ndan və Birinci vitse-prezident Mehriban Əliyevanın müstəsna xidmətlərindən danışmamaq mümkün deyil.

Ölkəmizin "ASAN Könüllüləri" Təşkilatı, "Bir könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, "Könüllü DOST" Proqramı, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "İslahat Könüllüləri" Təşkilatı, "Nəqliyyat Könüllüləri" Proqramı, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü gömrükçü" Dəstəsi, "Turizm Könüllüləri" Təşkilatı, "Eko könüllüləri" Qrupu, Könüllülər Proqramı, Qrupu, "Gənc Könüllülər" Hərəkatı, "Azərbaycan Diaspor Könüllüləri" Proqramı, "Ədliyyə Könüllüləri" İctimai Birliyi, "Könüllü Qida Nəzarətçisi" "eSAS" Könüllülük proqramı və digər könüllü təşkilatlarında birləşən yüz minlərlə Azərbaycan gəncliyi özlərinin sağlam gələcəklərinin, təməllərini məhz burada qoyurlar. Könüllülər həmçinin ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq yarışlar olan "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci il I Avropa Oyunları, 2017-ci il IV İslam Həmrəliyi Oyunları, "Formula-1" yarışlarının keçirilməsində misilsiz rol oynayıblar.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda ilk dəfə "Könüllülük həftə"sinin keçirilməsi və 2020-ci ilin "Könüllü ili" elan edilməsi ilə bu hərəkat daha da geniş vüsət aldı. Azərbaycan gəncləri öz şəxsi iradəsi ilə, heç bir maddi qarşılıq gözləmədən ölkəmizin inkişafı və tərəqqisinə töhfə vermək məqsədilə könüllülük fəaliyyəti ilə məşğul olurlar. Sonrakı mərhələdə isə könüllülər əsas kadr potensialına çevrilirlər.

## "Biz birlikdə güclüyük!"

Son illər bütün dünyanı bürüyən pandemiya təhlükəsinin ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın çağırışına cavab olaraq Azərbaycan könüllüləri hökumətə dəstək fəaliyyətində xüsusi rol oynadılar.

Pandemiyanın ilk başladığı günlərdən "Könüllü Qonşu", "Böyüklərimizi qoruyaq" və digər aksiyalara start verildi. Aksiyalar çərçivəsində könüllülər ölkəmizin dörd bir yanında yaşlı vətəndaşlarımızın təhlükəsizliyinin qorunması məqsədilə onların evlərini tərk etməmələri üçün ərzaq və dərman kimi zəruri ehtiyaclarını operativ şəkildə həll edərək, kömək göstərdilər. O cümlədən iş yerlərini itirmiş, ehtiyacı olan ailələrə ərzaq və digər yardımların edilməsində yaxından iştirak etdilər.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə yaradılan "Regional İnkişaf" İctimai Birliyi pandemiya dövründə genişmiqyaslı yardım layihələri həyata keçirdi. Könüllülər bütün bu sözügedən aksiyalarda böyük həvəslə iştirak edib, "Biz birlikdə güclüyük!" şüarını rəhbər tutaraq belə bir çətin dönəmdə dövlətin yanında oldular, cəmiyyətə fayda verdilər və xalqımızın birlikdə daha güclü olduğunu bir daha sübut etdilər.

Azərbaycan könüllülərinin 44 günlük Vətən müharibəsi dövründə göstərdikləri fəaliyyət nəticəsində ölkəmizin haqlı səsinin dünyaya çatdırılmasına nail olundu. Bundan başqa, müharibə və postmüharibə dövründə şəhid və qazi ailələrinə edilən maddi və mənəvi yardımlar bu insanların çətin günlərində könüllülərimizin də münasibəti sayəsində dövlətimizin vətəndaşının yanında olduğunu bir daha təsdiqlədi.

## Uğurlu siyasətin bəhrəsi

Hər bir siyasət öz nəticəsinə görə qiymətləndirilir. Qeyd etdiyimiz kimi, Azərbaycanın gənclər siyasəti möhkəm təməllər üzərində qurulub. "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" söyləyən Prezident İlham Əliyev gənclərlə özünün arasında qarşılıqlı etimadın olduğunu göstərir.

Başqa bir çıxışında Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirmişdir: "Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər".

44 günlük Vətən müharibəsinə münasibətdə cənab Prezidentin səsləndirdiyi "Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanıcanı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim Prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi" fikirləri Azərbaycan gəncliyinin vətənsevər ruhda yetişdirilməsi istiqamətində aparılan siyasətin doğruluğunu bir daha təsdiq etdi!

Azərbaycan gəncliyi gələcəyimizin təminatçısıdır! Yeni zirvələrdə sizləri görmək ümidi ilə Gənclər Gününüz mübarək!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Milli dəyərlərin sadiq daşıyıcıları

Çağdaş dövrümüzdə dövlətin inkişaf səviyyəsini və aydın gələcəyini müəyyənləşdirən vacib meyarlardan biri də gənclərlə iş sahəsində əldə olunan nailiyyətlərdir. Bu reallığı düzgün dəyərləndirən Ulu Öndər Heydər Əliyev gənclərə hər zaman malik olduqları bacarıq, qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi çıxış etmiş, bu təbəqəyə daim böyük diqqət və qayğı ilə yanaşmışdır.

Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda gənc nəslin problemlərinin həlli dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1996-cı ildən Azərbaycan gənclərinin forumlarının keçirilməsinə başlanıldı. Respublikanın hər yerində gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq Heydər Əliyev 1997-ci ildə imzaladığı sərəncamla gənclərin I Forumunun keçirildiyi günü - fevralın 2-sini Azərbaycan Gəncləri Günü elan etdi. Artıq 25-ci ildir ki, bu tarix respublikamızda Gənclər Günü kimi qeyd olunur.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin müasir mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu sahədə mühüm uğurlara yol açıb. Ötən 18 ildə gənclərlə bağlı bir neçə dövlət proqramının, o cümlədən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın qəbul edilməsi gənclərin cəmiyyət həyatında daha fəal iştirakına, onların xarici ölkələrdə təhsil almalarına, öz bilik və bacarıqlarını realizə etmələrinə geniş imkanlar yaradıb. Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun, regionlarda Gənclər evinin yaradılması dövlət gənclər siyasətinin daha uğurlu nəticələr əldə etməsinə təkan verib.

Azərbaycanın gənclər siyasətində əsas istiqamətlərdən biri idmanın inkişaf etdirilməsinə, gənc nəslin sağlam ruhda formalaşmasına nail olmaqdır. Bu gün respublikamızda 40-dan artıq olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, idmanın ayrı-ayrı növləri üzrə müasir komplekslərin yaradılması bu siyasətin uğurla həyata keçirilməsindən xəbər verir. Bu qayğını yüksək dəyərləndirən gənclərimiz üzərlərinə düşən vəzifələri layiqincə doğruldurlar. Təsadüfi deyil ki, idmanın müxtəlif növləri üzrə beynəlxalq miqyaslı yarışlarda Azərbaycanı təmsil edən gənclərimiz böyük nailiyyətlər qazanırlar. Qalib olmaqla üçrəngli bayrağımızı ucaldan, himnimizi səsləndirən məhz gənc nəslin təmsilçiləridir. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlara imza atmasında mühüm rol oynayır.

"Bizim gənclərimiz idmanda böyük qələbələr qazanırlar, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır. Görün, biz hansı böyük nailiyyətlərə çatdıq. Son yay olimpiya oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi qələbədir. Bu qələbəni müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər əldə ediblər", - deyə Prezident İlham Əliyev 2019-cu ildə Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında idmançı gənclərin uğurları barədə danışarkən bildirmişdi.

Eləcə də gənclik Azərbaycanın intellektual elitasının təmsilçisi kimi elmi müstəvidə, ölkəmizin və xalqımızın qlobal səviyyədə ən böyük təbliğatçısıdır. Gənclərimiz beynəlxalq miqyasda ictimai-siyasi proseslərdə yaxından iştirak etməklə həm dünyaya inteqrasiya olunmuş, həm də respublikamızı tanıtmışlar.

Azərbaycan gəncliyi həm də vətənpərvərliyi ilə nümunələr yaradır. Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edən qəhrəman döyüşçülərimizin böyük bir qismi gənclərdən ibarət idi. Üstəlik, bu gənclər heç vaxt Qarabağı görməmişdilər. Onlar Birinci Qarabağ müharibəsinin şahidi deyildilər. Lakin ölkəmizdə həyata keçirilən gənclər siyasəti bu nəsli vətənpərvərlik ruhunda formalaşdırdı. Bu baxımdan Vətən müharibəsi Azərbaycan gəncliyinin vətənpərvərliyinin, ən yüksək milli keyfiyyətlərin daşıyıcısı olduğunu təcəssüm etdirdi.

Bu gün respublikamızda gənclərlə iş sahəsində həyata keçirilən bütün tədbirlər cəmiyyətimiz tərəfindən təqdir edilir. Qazanılan uğurlar həm də ondan xəbər verir ki, gənclik də öz məsuliyyətini bilir və göstərilən etimadı layiqincə doğruldur.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***



# Gəncliyə dəyər verən siyasət

Hər bir xalqın və ümumən bəşəriyyətin inkişafı naminə böyük tarixi hadisələrə imza atmış liderlər bütün digər xidmətləri ilə yanaşı, həm də bütöv nəsillər formalaşdırırlar. Bu nəsillərin hansı ruhda böyüyüb tərbiyələnməsi, hansı ideyaların daşıyıcısı olması liderlərin onlar üçün yaratdıqları örnəklərdən, həyat və fəaliyyətləri ilə təlqin etdikləri prinsiplərdən çox asılıdır.

Müstəqil Azərbaycan Respublikasını tarixin ən böyük nailiyyətlərinə yetirmiş Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətində də gəncliyə qayğı məsələləri mühüm yer tutur. Bu, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət gənclər siyasətinin müasir dünyamızın reallıqları şəraitində daha böyük əzmkarlıqla davamıdır.

Gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, təhsili, istedadlarının inkişaf etdirilməsi cəmiyyət üçün əsas vəzifələrdəndir. Onlar hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı qüvvədir. Təsadüfi deyil ki, müasir dövrdə gənclər sahəsində qazanılan uğurlar dövlətlərin ümumi inkişaf səviyyəsini, potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır. Dünyanın bütün sivil cəmiyyətlərində onların hərbi-vətənpərvərlik, mənəvi-ideoloji tərbiyəsinə, sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Onlar bizim sabahımızdır. Bir neçə ildən sonrakı dövrün ictimai mənzərəsi indi böyüməkdə olan nəslə yaradılmış şəraitdən, inkişaf mühitindən asılı olacaq. Bu baxımdan sağlam düşüncəli, savadlı nəslin yetişdirilməsi cəmiyyət üçün mühüm məsələdir.

## Ümidləri doğruldan gənclik

Ulu Öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə də, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra da gənclər siyasətinə xüsusi önəm verməsi məhz bu zərurətə əsaslanırdı. Ümummilli Lider hər zaman gəncliyə böyük ümidlər bəsləyirdi. Azərbaycanın gələcəyinin gənclərin əlində olduğunu vurğulayırdı. Sağlam düşüncəli gəncliyin bu ümidləri doğruldub vətənin gələcəyinə sahib çıxa bilməsindən ötrü onlara diqqət və qayğısını heç bir zaman əsirgəmirdi. Bu böyük dövlət adamı fərqində idi ki, istənilən liderin gəncliyə ən böyük töhfəsi onların təhsil almasına, fərdi inkişafına kömək göstərməkdir. Ona görə də Heydər Əliyev Azərbaycana hələ birinci rəhbərliyi dövründə onlarca yeni ali və orta ixtisas təhsili müəssisələri yaratmışdı. Ötən əsrin 70-80-ci illərində Ulu Öndərin diqqət və qayğısı sayəsində minlərlə azərbaycanlı gəncin keçmiş ittifaqın ən aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilməsi də hər zaman rəğbətlə xatırlanan tarixdir. Müstəqil Azərbaycana rəhbərlik illərində də Heydər Əliyevin sağlam və sarsılmaz dövlətçilik ideologiyasının davamlılığında gənclər siyasəti daim ön sıralarda dururdu. O, gəncləri ölkənin ictimai-siyasi həyatında aktiv olmağa çağıraraq, yaxın gələcəkdə daha da dinamik inkişaf yoluna qədəm qoyacaq Azərbaycanın sonrakı uğurlarını gəncliyə göstərilən etimadda görürdü. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini və ümumi fəaliyyətə cəlb edilməsini mühüm vəzifə kimi irəli sürürdü.

## Qayğı, diqqət və inam

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları gözəl bilən Ümummilli Lider gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı.

1996-cı ildə Azərbaycan gənclərinə geniş və açıq müzakirə tribunası vermiş ilk forumun keçirilməsi təşəbbüsü də gəncləri daha fəal, daha məsuliyyətli və yetkin görmək istəyən Ulu Öndər Heydər Əliyevə məxsusdur. Həmin ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi artıq ənənə halını aldı. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində hələ dünyada beynəlxalq gənclər günü elan edilmədiyi vaxtda - 1997-ci ildə Azərbaycanda "2 Fevral - Ümumrespublika Gənclər Günü"nün təsis edilməsi haqqında mühüm strateji qərarın qəbulu da gəncliyə verilən yüksək dəyər idi.

Bu forumlar Heydər Əliyevin tarixi qərarına əsaslanaraq gənclərin fikir mübadiləsi aparmaları, öz təklif və ideyalarını səsləndirmələri üçün platformanı təmin etməklə onların dövlətin və cəmiyyətin həyatında fəal iştirakına şərait yaratdı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumu zamanı Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir. ...Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!"

İlk forumdan ötən illər ərzində Azərbaycan gəncliyinin həyatında mühüm dəyişikliklər baş verdi. Ölkəmizdə ilk gənclər təşkilatları formalaşdı. Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının yaradılması gənclərin iştirakına, sosial təşəbbüskarlığına mühüm təkan verdi. Bundan sonra yerli idarələr vasitəsilə regionlardakı gənclərlə iş aparılmağa başlanıldı. Bütün bu işlərin nəticəsidir ki, hazırda müxtəlif dövlət qurumlarında xeyli sayda gənclər təmsil olunur.

## Tarixi nailiyyətlər

Ulu Öndərin Azərbaycan gəncliyinə olan inamı, ümidi tarixin yeni mərhələlərində özünü tam doğrultdu. Böyük uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin bu sahədə apardığı ardıcıl, məqsədyönlü işlə yeni inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan gəncliyinin həyatında 2003-cü ildən yeni bir yüksəliş dönəmi başlandı. Gənclərin cəmiyyətdə aparıcı qüvvəyə çevrilməsi, onların sosial-iqtisadi problemlərinin həllinin təmin edilməsi məqsədilə icra olunan dövlət proqramları, quruculuq işlərində gənclərin iştirakına şərait yaradılması, onların mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşması və inkişafına verilən dəstək bu tarixin ayrı-ayrı xoş məqamlarıdır.

Azərbaycanda "Gənclər siyasəti haqqında", "Bədən tərbiyəsi və idman haqqında" qanunlar, gənclər siyasətinin ayrı-ayrı sahələrini əks etdirən müxtəlif normativ-hüquqi sənədlər qəbul edildi. Gənclər siyasəti üzrə I Qlobal Forumun Azərbaycanda keçirilməsi, "Gənclər sahəsində Bakı Öhdəlikləri"nin qəbul edilməsi ölkəmizin gənclər siyasətinin uğurunu, yeni yanaşmaların və standartların tətbiqini əks etdirir. Son illərdə ardıcıllıqla qəbul edilmiş və hazırda uğurla həyata keçirilməkdə olan "Azərbaycan gənclərinin İnkişaf Strategiyası (2015-2025-ci illər)", "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" gənclərin fərdi inkişafı və qərarların qəbulu prosesində iştirakının artırılması istiqamətində yeni imkanlar yaradır.

Gənclərin maraqlarının təmin olunması, ideyalarının gerçəkləşməsinə dəstək sahəsində ciddi işlər görülür. Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı genişlənir. 2007-ci ildə ölkəmizdə "Gənclər ili"nin elan olunması, 2008-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəxri sədrliyi ilə Gənclərin Məşğulluğu üzrə IV Dünya Sammitinin, Yeniyetmələrin VI Beynəlxalq Elm Olimpiadasının keçirilməsi, Prezident Administrasiyasında gənclərlə iş üzrə ayrıca şöbənin yaradılması Azərbaycan gəncliyinin həyatında baş verən mühüm tarixi hadisələrdir.

Ölkə rəhbərinin bəyan etdiyi "qara qızılın insan kapitalına çevrilməsi" prinsipi istiqamətində reallaşdırılan tədbirlərin əsas subyekti, təbii ki, Azərbaycan gəncliyidir. Gənclərin təhsili, fərdi inkişafı, bilgi qaynaqlarına çıxışı üçün elmi-texniki infrastruktur ildən-ilə inkişaf etdirilir. Dövlət büdcəsindən gəncliyin inkişafına ayrılan vəsaitin həcmi genişlənir. Bu gün Azərbaycanda Gənclər Fondu uğurla fəaliyyət göstərir. "Gənclər evi" şəbəkəsi genişləndirilir, gənclər üçün Prezident mükafatı təsis edilib.

Hazırda Azərbaycan gəncliyi ölkəmizdə aparılan davamlı islahatların əsas kadr bazası kimi çıxış edir. Dövlət rəhbəri gəncləri müxtəlif yüksək dövlət vəzifələrinə irəli çəkir. Onlara etimad göstərir. Gənclərin simasında idarəetmə sistemi zamanın çağırışlarına uyğun dəyişir, ölkə həyatına mütərəqqi meyillər daxil olur. Azərbaycan gəncliyi öz bilik və bacarıqları ilə ölkəmizdə aparılan inkişaf proseslərinə töhfə verir.

## Savadlı, bacarıqlı, vətənpərvər gəncliyə inam

Tarixin bütün dövrlərində hər bir ölkədə gəncliyin ən böyük ehtiyacı məhz təhsil imkanları ilə bağlı olub. Müasir dünyamızda isə bu, demək olar ki, həyati vacib zərurətə çevrilib. Dünya çox sürətlə dəyişir. Biliyə, təhsilə, elmə əsaslanan innovativ bacarıqlar əsas həyat şərtinə çevrilir. İnsan kapitalının formalaşdırılması müasir cəmiyyətlər qarşısında ən mühüm vəzifə kimi durur. Bu reallıq nəzərə alınaraq Azərbaycanda da gəncliyə keyfiyyətli təhsil imkanlarının təmin edilməsi, fərdi inkişaf mühitinin hər kəs üçün əlçatanlığı naminə, demək olar ki, bütün imkanlar səfərbərliyə alınır. Azərbaycan Prezidentinin ölkə gəncliyinə əsas çağırışları da məhz təhsillə, biliklərin, innovativ bacarıqların əldə olunması ilə bağlıdır. Prezident İlham Əliyev gənclərin vətənpərvərlik tərbiyəsini son dərəcə mühüm vəzifə hesab edir. Bakı Dövlət Universitetinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdəki çıxışı zamanı bu məsələni xüsusi qeyd edib: "Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq".

## Azərbaycan gəncliyi tariximizin qüdrətli dövrünün müəllifinə çevrildi

Xalqımızın Vətən müharibəsində tarixi qələbəsi böyük milli potensialımızı üzə çıxardı. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil xalqın milli maraqlarının pozulmasına heç zaman yol verməz. Haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Xalqımızın övladları canları-qanları bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edirlər.

Vətən müharibəsi ərəfəsində, hərbi əməliyyatların gedişində hər yeri bayraqlarımızla bəzəyən, gur səsi ilə cəmiyyətimizi qələbə ovqatına kökləyən, inam yaradan da əsasən gənclərimiz idi. Prezidentin səfərbərlik çağırışına on minlərlə gənc mərdliklə cavab verdi. Azərbaycanın igid oğulları bu qəhrəmanlıqları real həyatda göstərdilər. Canları-qanları ilə tarix yazdılar. Göstərdilər ki, belə övladları olan, cəsur, mərd qəhrəmanlar yetişdirən Vətən heç vaxt yenilməz. Azərbaycan bundan sonra hər birimiz üçün həm də igidlərimizin mərdliyinə, fədakarlığına görə dəyərlidir. Ölümsüz qəhrəmanlarımızın yaddaşlarda qalan silinməz izləri ilə müqəddəsdir.

44 günlük Vətən müharibəsinin ən ağır yükü cəbhədə misilsiz qəhrəmanlıqlar göstərən, ərazi bütövlüyümüz naminə şəhid olan, yaralanan, hər bir yüksəkliyin, kəndin, qəsəbənin, şəhərin azadlığı üçün silah yoldaşları ilə çiyin-çiyinə birgə böyük əziyyətlər çəkən gənc əsgər və zabitlərimizin üzərinə düşdü.

Azərbaycan övladları əvvəlcə cəbhəətrafı kəndlərimizi, ardınca Suqovuşan qəsəbəsini, Cəbrayıl rayonunu, sonra Hadrut qəsəbəsini, Füzuli, Zəngilan, Qubadlı rayonlarını işğaldan azad etdilər. 2020-ci il noyabrın 8-də xalqımızın mədəniyyət məbədi, musiqi beşiyi Şuşa 28 illik işğaldan sonra ordumuzun şücaəti sayəsində istiqlalına qovuşdu.

Mərd oğullarımız müqəddəs şəhərimizi qol gücünə, ağır silahlardan istifadənin mümkün olmadığı çətin dağlıq şəraitində düşmənlə əlbəyaxa vuruşaraq işğaldan azad etdilər. Gəncliyi tərənnüm edən əsl vətənpərvərlik ruhu budur!

Azərbaycan Prezidenti gəncliyin şücaətinə böyük qiymət verərək deyir: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# İdman ölkəsinin gəncləri yeni zəfərlər qazanmağa hazırdırlar



Gənclik gücdür, ümiddir. Düzgün tərbiyə olunmuş, təhsil almış, öz biliyi daxilində hər hansı bir peşəyə yiyələnmiş, zəkalı, bacarıqlı gənclər millətin, dövlətin nurlu gələcəyidirlər. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial sahələrdə tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Azərbaycan gəncliyinin idman sahəsində də irəliləməsi, uğurlar qazanması üçün dövlət tərəfindən hər cür şərait yaradılıb.



Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlar qazanmalarında mühüm rol oynayır.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, həmin tarix Azərbaycan Gəncləri Günü elan edilib. Bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Azərbaycan gəncliyi onlara göstərilən diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli fəaliyyətin, davamlılığının daha bir əyani sübutudur.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlət başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, bu nəslin sağlamlığını qorumaq, təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı Zəfər sayəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu. Bu Zəfərdə idmançılarımızın da payı az olmadı. Həmişə beynəlxalq arenalarda bayrağımızı yüksəklərə qaldıran gənc idmançılarımız bu dəfə əzəli torpağımız olan Qarabağda bayrağımızın dalğalandırılmasında yaxından iştirak etdilər. Onlar idman arenalarında olduğu kimi, gərgin döyüşlərdə də mərdlik, qorxmazlıq və şücaət göstərərək adlarını qızıl hərflərlə zəfər salnaməsinə əbədi yazdılar. Onlardan yaralanan da oldu, şəhidlik zirvəsinə yüksələn də... Vətən müharibəsində ümumilikdə 988 idmançı iştirak edib ki, onlardan 320-si canlarından keçiblər. Şəhidlərin 179-u futbolla, 27-si güləşlə, 24-ü isə cüdo ilə məşğul olublar.

Hakimlik fəaliyyətimlə bağlı mütəmadi olaraq beynəlxalq yarışlarda, çempionatlarda iştirak etmişəm. Dünyaca tanınmış həmkarlarımla söhbətlərdə xüsusilə vurğulanır ki, Azərbaycan gənc idmançılarının yüksək potensialına, uğurlarına görə fərqlənir. İyirmi ildən artıqdır ki, beynəlxalq səviyyədə hakimlik fəaliyyəti göstərirəm. 3 Olimpiya oyununda dəfələrlə ən ali idman yarışlarını idarə etmişəm. Bunları deməkdə məqsədim nüfuzlu xarici idman mütəxəssislərinin gənclərimiz haqqında səsləndirdikləri rəyləri, mülahizələri diqqətə çatdırmaqdır. Şübhəsiz ki, bu nailiyyətlərlə yalnız gənc idmançılarımız deyil, elə bütün xalqımız qürur duyur. Çünki bu gün hər bir dövlətin, xalqın beynəlxalq miqyasda daha səmərəli, effektiv tanınması, nüfuz qazanması üçün onun idman yarışlarında qazandığı nailiyyətlər qədər təsirli vasitə yoxdur.

Gənclər sırasında güləşçilərimizin ölkə idmanına verdiyi töhfələr danılmazdır. Birmənalı həqiqətdir ki, güləş ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından da ön sıralarda dayanır. Tarixi kökü olan bu idman növü Azərbaycanda heç vaxt ənənəsini itirməyib. Azərbaycan güləş məktəbinin yetirmələri olan gənc olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi idmançılar sayılırlar. Yeni pəhləvanlarımız iştirak etdikləri istənilən turnirin favoritidirlər.

Unutmamalıyıq ki, qazanılan uğurların fonunda arxayınçılıq əsla olmamalıdır. Daha məsuliyyətlə işinə davam etməli, inkişafın miqyasını artırmalısan. Ancaq son illər güləş idman növündə həm problemlərlə üzləşdik, həm də lazımsız arxayınçılıq yarandı. Bunun nəticəsini Tokio Olimpiadasında pəhləvanlarımızın medal göstəricilərində aydın gördük. Rio olimpiadasında ölkəmizin aktivinə 9 medal yazdıran güləşçilərimiz Yaponiyada 3 mükafatla kifayətləndilər.

Bu problemlərlə bağlı Prezident İlham Əliyev iradlarını bildirmiş, problemləri göstərmişdi. Bu vəziyyəti Milli Olimpiya Komitəsi çərçivəsində, idman federasiyaları içində mütəxəssislərlə uzun-uzun müzakirə edirdik. Nəhayət, Prezidentin qərarı ilə Azərbaycan idmanının inkişafının yeni mərhələsi başladı. Fərid Qayıbov gənclər və idman naziri vəzifəsinə təyin olunarkən cənab Prezidentin onun qarşısında qoyduğu konkret vəzifələr islahatların başlanğıcı oldu.

Azərbaycan Güləş Federasiyasında rəhbər dəyişikliyi nəticəsində struktur, məşqçi və yığma komandaların yenidən təşkili sürətlə gedir. Öz sahələrində müasir, səmərəli fəaliyyət göstərən şəxslərin federasiyadakı ətaləti, ləngimələri tezliklə aradan qaldıracaqlarına inanırıq. Federasiya daxilində, məşqçilər korpusunda hər kəs öz vəzifəsini, məsuliyyətini dəqiq bilməli, buna uyğun da fəaliyyət göstərməlidir. Çünki son bir il ərzində təkbaşına idarəçiliyin, qərar qəbul etmənin uğursuz nəticələrini görmüşük. Qərarların qəbulunda müzakirələr aparılmalıdır, baş məşqçi belə tələb edir deyə qərarlar qəbul olunmamalıdır.

Ən mühüm islahat isə bölgələrdə aparılmalıdır. Azərbaycanın region güləş məktəblərinə həm dəstək artırılmalı, həm də onlardan mütləq şəkildə tələblər olmalıdır. Uşaq, yeniyetmə idmanına diqqətin artırılması xüsusi önəm daşımalıdır. Güləş mütəxəssislərinin, təşkilatçılarının paytaxtda, ondan da daha çox bölgələrdə formalşadırılması üçün xüsusi fəaliyyət tədbirləri müəyyənləşdirilməlidir. Problemlər yetərincədir. Sevindirici haldır ki, federasiya rəhbərliyi və onun komandası fəaliyyətlərinə düzgün istiqamətdən başlayıblar. Biz, idman mütəxəssisləri, onilliklərini güləş idmanına həsr edən şəxslər də bu prosesdə nazirin və federasiya rəhbərliyinin daim yanındayıq.

Beləliklə, Azərbaycan dövləti idmançılara hərtərəfli qayğı və diqqət göstərdiyi kimi, gənclərimiz də bu etimadı doğrultmaq üçün əllərindən gələni əsirgəməməlidirlər. Bunu bir çox gəncimizin idman bioqrafiyası sübut edir. İnanırıq ki, bu sahədə başladılan islahatlar nəticəsində beynəlxalq yarışlarda Azərbaycanın bayrağını qaldıran, himnini səsləndirən onlarca gənc yeni idmançımız, yeni adlar olacaq.

***Hicran ŞƏRİFOV,***
***Milli Olimpiya Komitəsinin Nəzarət-Təftiş Komissiyasının sədri, Əməkdar bədən tərbiyəsi və idman xadimi, beynəlxalq dərəcəli hakim***

# Zəfərin gəncləri

Əvvəli 1-ci səh.



Ali Baş Komandan İlham Əliyevin çağırışına səs verərək könüllü şəkildə silaha sarılan gənclər vətən uğrunda qan töküb can verdilər. Bu savaşda vətən uğrunda döyüşmək, vətəni sevmək, vətəni qorumaq gənclərin əsas vəzifəsi idi və bütün bunlar Azərbaycan gəncinin simasında öz ifadəsini tapdı.

Ali Baş Komandanımızın təbiri ilə desək, Qarabağı azadlığa qovuşduran əsgər və zabitlərimizin mütləq əksəriyyəti Qarabağın işğalından sonra dünyaya gəliblər. Bu vətənpərvər gənc nəsil Qarabağı görmədən onun həsrətini yaşayıblar və işğaldan qurtulması üçün qanlı mübarizəyə atılıblar. Qalib Sərkərdə haqq savaşımızda qəhrəmanlıq göstərən gənclərin şücaətini belə qiymətləndirib: “Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim Prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, İlk növbədə, biz onlara borcluyuq. Əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi”.

Həqiqətən də, dünənədək sıradan, adi, bəzən “uşaq” saydığımız on minlərlə gənc könüllü olaraq öz cəsarətləri, mərdlikləri ilə bir anın içində sanki aslana çevrildilər, “Qarabağ Azərbaycandır!” milli hərəkatının qələbə Nidasını qoydular!.

Məhz onların rəşadəti sayəsində əldə olunan şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin müasir gənclərlə bağlı səsləndirdiyi digər fikirdə də bu, bir daha öz əksini tapır: “Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər”.

Onu da qeyd etməliyik ki, gənclərimiz vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər. Arxa cəbhənin qəhrəmanları sırasında gənclərin çoxluq təşkil etməsi bunun əyani təsdiqidir. Müharibə dövründə, eləcə də savaşdan sonra məhz gənclərimizin müxtəlif əcnəbi dillərdə yaydıqları həqiqətlər əsl erməni xislətini, vandallığını, barbarlığını dünyaya nümayiş etdirdi.

Vaxtilə Ulu Öndər Heydər Əliyev deyirdi ki, hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bugünüdür, həm də sabahıdır, ümididir. Bu fikir dövlət gənclər siyasətinin fəlsəfi və ideoloji əsası olmaqla daim aktualdır və gəncləri Azərbaycanın sabahı naminə səfərbər edir. Vətən savaşı da bir daha təsdiqlədi ki, müasir Azərbaycan gənci əsl vətənpərvər, dövlətini, xalqını, bayrağını sevən, dövlətçiliyin mühafizəsində dayanan, lazım gəlsə canından keçməyə hazır olan igid qəhrəmandır.

Əminliklə deyə bilərik ki, bu gün Azərbaycanda vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilir. Ölkəmizdə gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Döyüş meydanında silahını, bayrağını atıb qaçan erməni gəncləri

## Ermənistanda gənclər ağır vəziyyətdən bezib ölkəni tərk edir, ordudan yayınır, ailə qurmaq belə istəmirlər









Əvvəli 1-ci səh.

Regionun məğlub ölkəsi olan Ermənistanda isə tam fərqli vəziyyət müşahidə olunur. Gənclərin üçdəikisi respublikanı tərk etmək haqqında düşünür. Qalanları isə sanki gənclik dövründən məhrum olublar.

### Erməni gənclər gələcəklərini başqa ölkələrdə axtarırlar

Bu ölkədə perspektivin olmaması səbəbindən gənclərin qruplar halında əsasən Rusiya istiqamətində miqrasiya etmələri və Sovet İttifaqının süqutundan sonra Ermənistanın 16-30 yaş arasındakı vətəndaşlarının bir milyonundan çoxunun öz gələcəyini itirdiyi qeyd olunur. Ermənistan hökuməti xüsusilə gənclərin ölkəni birdəfəlik tərk edərək digər ölkələrə üz tutmasından heç bir narahatlıq keçirmir, əksinə, miqrasiya edən gənclərlə narazı elektoratın və gələcək potensial inqilabçı-gənclərin sayının azalmasına və bu yolla hakimiyyətdə qalmaqda davam etməsinə ümid edir.

Bildirilir ki, Ermənistandan qısamüddətli mövsüm işlərinə yollanan gənc mühacirlərin 95-96 faizi və uzunmüddətli tərk edənlərin 75-76 faizi Rusiyaya üz tutur. Hökumət isə vəziyyətdən çıxış yolu üçün heç bir addım atmır. Ölkəni tərk edən gənclərin əksəriyyəti isə birdəfəlik gedənlərdir.

Ermənistanda gənc kişi qıtlığı səbəbindən başsız qalan erməni qadınları daha çox süni mayalanmaya üstünlük verirlər. Belə ki, İrəvanda fəaliyyətə başlayan “Fertility center” mərkəzinin direktoru, ginekoloq-reproduktoloq Eduard Ambarsumyan son illər ərzində bu mərkəzə müraciət edən erməni qadınlarının çoxaldığını etiraf edib.

Yerli mətbuat yazır ki, hələ 14 il bundan əvvəl hökumət miqrasiyanın azaldılmasını nəzərdə tutan strateji proqram hazırlayıb. Ancaq indiki mənzərəyə əsasən görürük ki, bu proqram heç bir nəticə verməyib. Gənclər ağır vəziyyətdən bezib ölkəni tərk edirlər. Digər tərəfdən, qanunun selektiv tətbiqi səbəbindən onlar ölkədən çıxıb gedirlər. Yəni Ermənistan vətəndaşları çoxdan bilirlər ki, qanunlar yazılırsa, bu, hələ onların adi vətəndaşlara şamil ediləcəyi demək deyil. Oliqarxlar, o cümlədən məmur və deputatlar, siyasi hamiləri olanlar inhisarçıya çevriliblər. Onların iqtisadi bazarda başqalarına yer verməklə bağlı nə iradəsi, nə istəyi, nə də planı var. Bu da ölkəni tərk edən gənclərin sayının daha da artmasına səbəb olur.

### Ermənistan qocalar ölkəsinə çevrilib

Ekspertlər ona da diqqət yönəldirlər ki, görülən kosmetik tədbirlərə baxmayaraq, Ermənistanda əhalinin 50 faizi yoxsulluqdan da aşağı səviyyədə yaşayır. Ermənistan əhalisi bu durumun dəyişəcəyinə ümid bəsləmir, ona görə də yeganə çıxış yolunu ölkədən köçməkdə görür. Əhalinin bir hissəsi köçsə də, yerdə qalanlar üçün iş yeri tapılmır. Bu isə sosial gərginliyi daha da artırır.

Digər tərəfdən, erməni demoqrafların fikrincə, müstəqillik illərində Ermənistan qocalan millət ölkəsinə çevrilib, çünki yaşı 63-dən çox olan ölkə sakinlərinin sayı əhalinin ümumi sayının 12,6 faizi qədərdir. Demoqrafların hesablamalarına görə, yaxın zamanda Ermənistanda yaşı 65-ə çatmış sakinlərin sayı əhalinin ümumi sayının 25-27 faizi qədər olacaq. Rəsmi məlumatlara əsasən, ölkənin əhalisi 2,9 milyon nəfər, doğum səviyyəsi isə olduqca aşağıdır.

Ekspertlər bildirirlər ki, Ermənistan artıq demoqrafik böhran həddinə çatıb və tədricən depopulyasiyaya, yəni ölüm nisbətinin doğum səviyyəsini ötdüyü mərhələyə yaxınlaşır. Çünki bütün ölkə üzrə ölüm nisbəti doğum səviyyəsini aşıb. Ermənistan Statistika Komitəsinin son məlumatları da vəziyyətin acınacaqlı olduğunu təsdiqləyir. Qurumun bildirdiyinə görə, bu ölkənin ali məktəblərində 15 min tələbə yeri boş qalıb. Qeyd olunur ki, bu, ölkənin gələcəyi üçün əsl fəlakətdir. Çünki proses getdikcə dərinləşir və bu göstərici hər il artmaqda davam edir. Ölkə əhalisinin sayının azalması artıq gənc nəslin sayında özünü büruzə verməyə başlayıb. Məlumata görə, əvvəllər ölkəni əsasən iş qabiliyyətli əhalinin yaşı 30-dan yuxarı olanları tərk edirdisə, indi ailələr uşaqları ilə birlikdə gedirlər.

Ölkəni tərk edən ailələrin uşaqlarını özləri ilə aparması halları 2020-ci ilin payızında baş verən 44 günlük İkinci Qarabağ müharibəsindən sonra daha da sürətlənib. İctimai fəalların dediyinə görə, erməni ailələr uşaqlarının gələcəkdə baş verəcək növbəti müharibələrə qurban getməməsi üçün onları başda Rusiya olmaqla digər xarici ölkələrə aparır, oradakı məktəblərə qoyur və qeydiyyata saldırırlar. Qeyd olunur ki, 2021-ci ilin 8 ayı ərzində Ermənistanı hava yolu ilə tərk edən ölkə vətəndaşlarının sayı gələnlərdən 64 min 78 nəfər çoxdur.

### 10 min gənc fərarilik edib

Ölkədə yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı indi daha sürətlə pisləşməkdə davam edir. Sərhədə göndərməyə lazımi sayda insan resursu yoxdur. Artıq Ermənistan rəhbərliyi də yaxşı bilir ki, həqiqi hərbi xidmətə çağırışla silahlı qüvvələri komplektləşdirmək olmur. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi hal alır. Belə vəziyyətdə ordudan yayınanların sayının artmasına görə qaldırılan cinayət işlərinin sayı çoxalır. Bir sözlə, Ermənistan ordusunda xaosun yeni dalğası başlayır.

Vətən müharibəsinin gedişində hər iki ölkənin döyüşən ordusu arasında qabarıq görünən faktlardan biri də şəxsi heyətlər arasında gedən müqayisələrdə ortaya çıxdı. Belə ki, gənclərin ölkəni tərk etməsi ucbatından orduya cəlb etmək üçün adam tapmayan Paşinyan hakimiyyəti qocalara ümid bağladı.

Döyüş meydanında papağını, hərbi biletini qoyub qaçan, yaralı əsgərlərini və meyitlərini götürüb aparmayan erməni gənclərin fərarilik halları müharibə müddətində daha çox diqqət mərkəzində yer aldı. Açıqlanan rəqəmlərdə qeyd olundu ki, ümumilikdə Ermənistanda axtarışa verilən 12 mindən çox gəncin 10 min nəfəri hərbi xidmətdən boyun qaçıranlar olub. Onlar barəsində Cinayət Məcəlləsinin 327-ci maddəsi ilə cinayət işi açılıb.

Bu, bir tərəfdən Ermənistan ordusunda olan dözülməz şəraitlə bağlı idisə, digər tərəfdən erməni gənclərinin özününkü olmayan torpaqlar uğrunda döyüşmək istəməməsinin nəticəsi idi. Prezident İlham Əliyev də Ermənistan ordusunun hansı prinsiplər və əsaslar üzərində qurulduğuna, hansı mənəvi normalarla idarə edildiyinə diqqət çəkərək, əslində, onların silahlı qüvvələrinin mahiyyətini göstərmişdi. Ali Baş Komandan Ermənistan ordusu barədə demişdir: *“Onların ordusu oğrulardan ibarətdir. Son iki il ərzində nə qədər oğru erməni generalı həbs edildi?! Tuşonka satan, əsgərin payını satan generallar oğrudurlar. Onların “qəhrəmanları” qorxaqdırlar, onların rəhbərləri cinayətkardırlar”.*

Müharibənin gedişində Ermənistan parlamentinin növbədənkənar iclasının sessiyasında ikinci və yekun oxunuşda müharibə dövründə bəzi əməllərə görə cəzaların sərtləşdirilməsini nəzərdə tutan Cinayət Məcəlləsinə dəyişikliklər qəbul edilmişdi. Bu dəyişikliyə əsasən, müharibə dövründə hərbi xidmətdən, təlim düşərgələrindən və ya səfərbərlikdən yayınanlar əvvəllər nəzərdə tutulduğu 4 ildən 8 ilədək deyil, 6 ildən 12 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaqlar. Müharibə dövründə vəzifə borcunu yerinə yetirməkdən və ya vergi ödəməkdən yayınan şəxslər üçün cəzanın ən yüksək həddi - 4 ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə maddəsi bir ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə maddəsi ilə əvəzlənib. Müharibə dövründə əmrə tabe olmamağa görə cəza isə 5 ildən 15 ilədək müddətə deyil, 8 ildən 15 ilədək müddətə azadlıqdan məhrumetmə ilə təsdiqlənib.

Ermənistan ordusunun baş qərargah rəisinin keçmiş müavini, keçmiş hərbi komissar general-mayor Levon Stepanyan demişdi ki, ordu sıralarından minimum 10 min əsgər fərarilik edərək döyüşü tərk edib. Qarabağın şimalındakı döyüş mövqelərindən ordunun bir hissəsi geri çəkilib. Arxa cəbhəni təmin etmək üçün kifayət qədər resursun olmadığını bəhanə gətirən bəzi bölmələr isə irəlidə mövqe tutmaqdan imtina ediblər.

Ermənistan ordusunda hökm sürən xaos, nizamnamədən kənar münasibətlər, özbaşınalıq, ruh düşkünlüyü səbəbindən hərbi qulluqçular arasında özünəqəsd faktı da artıb. Lakin hakimiyyət bütün vasitələrdən istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hərbi hissələrdə əsgərlərin valideynləri ilə əlaqə saxlaması üçün yaradılan internet otaqlarını isə məlumatların sızmasının qarşısını almaq üçün bağlayıblar. Bütün bu qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, Ermənistan ordusunda vəziyyət təsəvvür edildiyindən də qat-qat ağırdır. Etirazçılar davamlı şəkildə hökumət əleyhinə şüarlar və bəyanatlar səsləndirir, valideynlər övladlarının ölüm səbəbinin onlara açıqlanmasını tələb edirlər.

Beləliklə, mövcud vəziyyət qarşıdakı dövrün Ermənistanda hər sahədə ağır fəsadların yaranacağını göstərir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Mingəçevir Dövlət Universiteti müasirləşmə mərhələsindədir

2021/2022-ci tədris ilinin payız semestri Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və yenilməz Azərbaycan Silahlı Qüvvələrinin rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin birinci ildönümü ilə əlaqədar olaraq bir çox əlamətdar hadisələrlə yadda qalmışdır.



Dünyada pandemiyanın davam etdiyi bir şəraitdə Azərbaycanda COVID-19 infeksiyasına qarşı həyata keçirilən effektiv mübarizə tədbirləri və uğurlu vaksinasiya siyasəti sayəsində uzunmüddətli fasilədən sonra cari tədris ilindən etibarən respublikamızın ali təhsil müəssisələrində, o cümlədən Mingəçevir Dövlət Universitetində (MDU) ənənəvi tədris bərpa edilmiş, bütün istiqamətlərdə fəaliyyətlərin mövcud çağırışlara və reallıqlara uyğun qurulmasına çalışılmışdır.

Ölkə rəhbərinin ali təhsil sahəsində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək hökumət tərəfindən qəbul edilmiş yeni qaydalar və təlimatlar, Təhsil Nazirliyinin birbaşa dəstəyi ilə ali təhsil müəssisələri tərəfindən həyata keçirilən tədbirlər, eləcə də universitetlərdə əldə edilən təcrübələr və yaradılan yeni imkanlar nəticəsində cari tədris ilinin payız semestri uğurla başa çatdırılmışdır.



Yeni dövrün universitetinə çevrilmək, paytaxtın qabaqcıl universitetləri səviyyəsində ali təhsil xidmətləri göstərmək, ölkəmizin, o cümlədən yerləşdiyi regionun hərtərəfli inkişafına davamlı töhfə vermək kimi strateji hədəflərə doğru mühüm addımlar atan MDU-da bütün fəaliyyətlər milli və beynəlxalq ali təhsil məkanında müşahidə olunan inkişaf trendləri, meydana çıxan yeni çağırışlar və reallıqlar, eləcə də mövcud potensial nəzərə alınaraq həyata keçirilmişdir.

MDU-da müasir və səmərəli ali təhsil mühitinin təmin edilməsi məqsədilə çevik və şəffaf idarəetmə, ictimai hesabatlılıq, universitetin strukturunun yenilənməsi, təhsilverənlərin və təhsilalanların hərtərəfli inkişafı və sosial rifahı, tələbəyönümlülük və cəmiyyətə fəal inteqrasiya məsələlərinə daim prioritet əhəmiyyət verilir.

Milli ali təhsil sisteminin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, dünya ali təhsil məkanında baş verən dəyişikliklər, universitetin strateji hədəfləri, qabaqcıl yerli və beynəlxalq təcrübə, müasir və daha səmərəli idarəetmənin təmin edilməsi zəruriliyi nəzərə alınaraq payız semestrində universitetin strukturunun təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır.

MDU-da İnformasiya texnologiyaları fakültəsinin yaradılması, Mühəndislik fakültəsinin yenidən qurulması, Pedaqoji fakültənin Təhsil fakültəsi adlandırılması, Magistratura və Doktorantura Təhsil Mərkəzinin, Dayanıqlı İnkişaf və Regional İnnovasiyalar Tədqiqat Mərkəzinin, Karyera və İnkişaf Mərkəzinin yaradılması haqqında müvafiq qərarlar qəbul olunmuşdur.

Ölkəmizdə ali təhsilə göstərilən yüksək dövlət qayğısı, təhsil işçilərinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması prioriteti və MDU-nun mövcud maliyyə imkanları əsas tutularaq universitetin professor-müəllim və inzibati-texniki heyət üzvlərinin aylıq əməkhaqları orta hesabla 20 faiz artırılmışdır.

Hazırda universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 24 ixtisas (bakalavriat) və 14 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. Üç fakültənin və on kafedranın mövcud olduğu universitetdə ümumilikdə, 3000-ə yaxın tələbə və magistrant təhsil alır. Bütövlükdə, 300-dən çox əməkdaşı olan MDU-da 195 professor-müəllim heyəti üzvü çalışır ki, onlardan 5 nəfərin elmlər doktoru, 57 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi, 3 nəfərin professor və 43 nəfərin isə dosent elmi adı vardır. Bundan əlavə, cari tədris ilindən etibarən, MDU-da Türkiyənin Qazi Universitetindən 2 professor fəaliyyət göstərir.

Cari tədris ilindən etibarən xüsusi karantin rejiminin mövcud tələbləri, qanunvericiliyə edilmiş müvafiq dəyişikliklər, mövcud infrastruktur imkanlar, təhsilalanların və akademik heyətin COVID-19 infeksiyasından maksimum qorunması amilləri nəzərə alınmaqla universitetin Elmi Şurası tərəfindən "2021/2022-ci tədris ilinin payız semestrində MDU-da tədrisin və təlim-tərbiyə prosesinin təşkilinə dair Qaydalar" qəbul edilmişdir. Qaydalara əsasən MDU-da tədris prosesi hibrid formada təşkil edilmişdir.

Azərbaycan Respublikasının təhsil nazirinin "2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə" 10 dekabr 2021-ci il tarixli müvafiq əmrinin tələbləri və buna uyğun olaraq universitet rektorunun müvafiq əmri ilə təsdiq edilmiş qaydalar əsasında cari imtahan sessiyası əyani formada təşkil edilmişdir. İmtahanlara hazırlıq məqsədilə MDU-da hər bir struktur bölməyə konkret tapşırıqlar verilmiş, dəqiq funksional iş bölgüsü aparılmış və imtahan sessiyasının mövcud qanunvericiliyin tələbləri çərçivəsində təşkili məqsədilə bütün zəruri addımlar atılmışdır. Habelə mühazirə mətnləri, təqdimatlar, dərslik və dərs vəsaitləri, imtahan sualları və onların xülasə şəklində cavablarının elektron formatda tələbələrə çatdırılması tədris olunan fənlərin tələbələr tərəfindən mənimsənilmə səviyyəsinin yüksəlməsinə və onların akademik göstəricilərinin daha da yaxşılaşmasına hədəflənmişdir.

COVID-19 pandemiyasının davam etdiyi bir şəraitdə MDU-da kollektiv üzvlərinin sağlamlığına, xüsusi karantin rejiminin tələblərinə riayət edilməsinə, tələbə və müəllim kollektivinin müvafiq dozalar üzrə vaksinasiya prosesində fəal iştirakına, müntəzəm olaraq tibbi-profilaktik və dezinfeksiya işlərinin aparılmasına xüsusi diqqət yetirilmişdir.

Ölkənin və regionun inkişafına töhfə verən, səmərəli və nəticəyönümlü elmi fəaliyyətin həyata keçirilməsi diqqət mərkəzində saxlanılan MDU-da son dövrdə elmi potensialın inkişaf etdirilməsi sahəsində meydana çıxan müsbət trendlər 2021/2022-ci tədris ilinin payız semestri ərzində daha da gücləndirilmiş və bu istiqamətdə yeni keyfiyyət dəyişiklikləri baş vermişdir.

MDU-da akademik heyət üzvlərinin tədqiqat qabiliyyətinin və bacarıqlarının artırılmasına, səmərəli elmi tədqiqat işlərinin yerinə yetirilməsinə və elmi fəaliyyətlərinin təşviq edilməsinə xüsusi diqqətin göstərilməsi, elmi nəşrlərə dərc edilən əsərlərə görə əməkdaşların mükafatlandırılması universitetdə elmi fəaliyyətin genişlənməsinə və nüfuzlu beynəlxalq elmi jurnallarda dərc edilən məqalələrin sayının artmasına səbəb olmuşdur. Belə ki, 2019-2021-ci illər ərzində MDU əməkdaşlarının "Web of Science" bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrinin sayı (15 ədəd) 1991-2018-ci illər üzrə müvafiq göstəricidən (7 ədəd) 2 dəfədən çox olmuşdur.

Ötən tədris ilində təsis olunan və MDU tarixində ilk elmi jurnal hesab edilən "Dayanıqlı inkişaf" multidissiplinar elmi jurnalının payız semestrində birinci və ikinci buraxılışları çap olunmuş və elektron variantda universitetin rəsmi saytında yerləşdirilmişdir.

2021-ci ilin may-iyun aylarında müxtəlif elm sahələri üzrə universitetin bir əməkdaşı elmlər doktoru, üç əməkdaşı fəlsəfə doktoru, dekabr ayında isə daha iki əməkdaşı fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya işlərini uğurla müdafiə etmişlər. Hazırda MDU-nun bir əməkdaşı və bir məzunu Türkiyənin Qazi Universitetində doktorantura təhsili alırlar. Universitetin bir əməkdaşı isə Erasmus+ proqramı çərçivəsində Sloveniya Respublikasının Nova Gorica Universitetində doktorantura təhsilini davam etdirir.

MDU-da Ümummilli Lider Heydər Əliyevin zəngin idarəçilik irsinin tədqiqi və təbliğinə xüsusi önəm verilmiş, dövlət müstəqilliyinin bərpasının 30 illiyinə, Vətən müharibəsində əldə olunan tarixi Zəfərin birinci ildönümünə, "Nizami Gəncəvi ili"nə və digər əlamətdar tarixi mövzulara və cəmiyyətin aktual məsələlərinə həsr edilən müxtəlif formatlı çoxsaylı elmi tədbirlər keçirilmişdir.

2021-ci ilin 10-11 dekabr tarixlərində Azərbaycan Respublikasının Təhsil və İqtisadiyyat nazirliklərinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə MDU tarixində ilk dəfə olaraq keçirilən beynəlxalq elmi konfrans elm ictimaiyyətinin böyük marağına səbəb olmuşdur. "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda təşkil edilən beynəlxalq konfransa dünyanın 15 ölkəsindən 72 ali təhsil müəssisəsinin və elmi-tədqiqat institutunun akademik heyət üzvləri və alimləri qatılmış, 462 tezis və məqalə daxil olmuşdur.

Cari payız semestri ərzində MDU-da təhsilalanların və təhsilverənlərin hərtərəfli inkişafına xidmət edən çoxsaylı təlimlər təşkil edilmişdir. Konkret olaraq, karyera planlaşdırma, sahibkarlıq, xarici dil, rəqəmsal, pedaqoji və tədqiqat bacarıqlarının artırılması məqsədilə tanınmış ekspert və mütəxəssislər tərəfindən MDU-da keçirilən təlimlər xüsusi maraqla qarşılanmışdır.

Regional ekosistemin mühüm aktorlarından birinə çevrilməyi hədəfləyən MDU-da kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi və tədqiqatların nəticəyönümlüyünün artırılması məqsədilə müxtəlif formatlı təhsil-sənaye əməkdaşlığının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir. Ötən tədris ilində MDU, Mingəçevir Peşə Məktəbi və "Azmade Group" MMC şirkəti arasında "universitet-peşə məktəbi-sənaye" formatında üçtərəfli əməkdaşlıq, "Azərbaycan İES" MMC, "Ataşgah" Sığorta Şirkəti və "Kapital Bank" ASC ilə işbirliyi çərçivəsində təlim-təcrübə proqramı, elmi konfrans, nəzəri-praktiki seminar, "dəyirmi masa", infotur və digər müxtəlif formatlı tədbirlər keçirilmişdir.

MDU-da tələbəyönümlü məzmunun yaradılmasına, tələbə gənclərin hərtərəfli inkişafına, onların universitet idarəçiliyində fəal təmsil olunmasına, çoxşaxəli könüllülük fəaliyyətinə cəlb edilməsinə və tələbə təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. MDU gənclərinin nailiyyətləri sırasında "Heydər Əliyev və Azərbaycan tarixi" VII ümumrespublika bilik yarışında uğurlu iştirakı, Bakı Qida Hakatonunda birinciliyin əldə edilməsini, müxtəlif startap müsabiqələrində və idman yarışlarında müvəffəqiyyət qazanılmasını xüsusi qeyd etmək olar.

Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan MDU-da təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu məqsədlə müntəzəm olaraq universitetin şəhid məzunlarının ailələri ziyarət edilmiş, onlar haqqında silsilə məqalələr dərc olunmuş, Şəhidlər xiyabanında əziz xatirələri anılmış, qazi məzunlarla görüşlər keçirilmiş, Hərbi Qənimətlər Parkına ekskursiya təşkil edilmişdir. Şəhid məzunların ildönümü münasibətilə anım tədbirləri keçirilmiş, qəhrəmanlarımıza həsr olunmuş tədbirlərdə tələbə və əməkdaşların fəal iştirakı təmin edilmişdir. Bu fəaliyyətlərdə MDU-da yaradılan Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi xüsusi rol oynamışdır.

MDU-da akademik potensialın gücləndirilməsi və ali təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə paytaxtın qabaqcıl universitetləri ilə sıx əməkdaşlığa strateji önəm verilir. Belə ki, tərəfdaş ali təhsil müəssisələrindən olan Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə əlaqələrin inkişafı istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. 2021-ci ilin oktyabrında MDU-nun Lənkəran Dövlət Universiteti ilə əməkdaşlığının əsası qoyulmuşdur.

Eyni zamanda payız semestrində universitetin beynəlxalq əməkdaşlığı genişlənmiş və məhsuldar olmuşdur. Universitetin Erasmus+ proqramında fəal iştirakı davam etdirilmiş, Türkiyənin Qazi Universiteti, Ankara Hacı Bayram Veli Universiteti və KTO Karatay Universiteti, eləcə də Ukraynanın Kiyev Milli İqtisadiyyat Universiteti ilə işbirliyi inkişaf etdirilmiş, Kiyev Milli Texnologiya və Dizayn Universiteti və İstanbul Gedik Universiteti ilə əməkdaşlığa başlanılmışdır. 2021-ci ilin dekabr ayında MDU Çində fəaliyyət göstərən Kəmər və Yol Universitet Alyansına üzv qəbul edilmişdir.

Fikrimizcə, ötən dövr ərzində dövlətimizin diqqət və qayğısı sayəsində MDU-da bütün fəaliyyət istiqamətləri üzrə baş verən müsbət keyfiyyət dəyişiklikləri və əldə olunan nailiyyətlər universitetin müasirləşməsi yolunda qarşıya qoyulan strateji hədəflərə yaxınlaşmasına böyük zəmin yaradır.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# Bir ildə 10 təlim, 5 layihə, 3 görüş

## Azərbaycan Könüllülər İctimai Birliyinin gəncləri tükənməz enerjiləri, çalışqan ruhları ilə yüksək uğurlara doğru addımlayırlar






Bu gün dövlətin güvənc yeri, uğurlu gələcəyin təminatçısı olan gənclərin günüdür. 25 ildir ki, hər il fevralın 2-si Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Ulu Öndər Heydər Əliyevin 1997-ci ildə imzaladığı sərəncamla bu gün müasir, vətənpərvər və kreativ Azərbaycan gəncliyinin iftixar gününə çevrildi.





Son illərdə Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Ölkədə mövcud olan 300-dən artıq gənclər təşkilatlarında çalışan yeni nəslin nümayəndələri Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, yetişməkdə olan yeniyetmələrin vətənpərvərlik ruhunun daha da artırılması, gənclərin öz hüquqlarını dərindən mənimsəməsi və digər xoşməramlı missiyaların reallaşdırılması prosesində fəal iştirak edirlər.

Belə təşkilatlardan biri də Azərbaycan Könüllülər İctimai Birliyidir (AKİB). 22 il əvvəl bir neçə universitet tələbəsinin könüllü təşəbbüsü ilə yaradılan AKİB hər il çox maraqlı və əhəmiyyətli layihələr reallaşdırır. Elə bu məqsədlə də AKİB-in ötənilki fəaliyyəti və gələcək planları ilə tanış olmaq üçün təşkilatın prezidenti **İmaməddin Quliyev**lə müsahib olduq.

*- Təşkilatın fəaliyyətinə, həyata keçirdiyi layihələrə nəzər yetirdikdə böyük və maraqlı proqramların reallaşdırıldığına şahidlik edirik. Bəs ötən il, yəni qlobal böhranla mübarizənin davam etdiyi dövrdə hansı layihələri gerçəkləşdirə bildiniz?*

- Öncə onu deyim ki, bu gün Azərbaycanda uğurlu gənclər siyasəti həyata keçirilir. Azərbaycan gəncliyi qürurlu illərini yaşayır. Çünki tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövlətinin gəncləri bu uğurları, qələbələri görür və bununla fəxr edir. Bütün bunlar həm də gənclərin daha böyük həvəslə çalışmalarına böyük stimul verir. Ölkəmizdə qeydiyyatdan keçmiş 300-dən artıq gənclər təşkilatının mövcudluğu da dövlətin gənclərə göstərdiyi diqqətin bariz təcəssümüdür.

Gənclər təşkilatlarının formalaşması dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olmaqla yanaşı, vətəndaş cəmiyyətinin qurulmasında gənclərin iştirakını şərtləndirən əsas amillərdən biridir. Gənclər müxtəlif təşkilatlarda birləşərək öz imkan və bacarıqlarını konkret istiqamətlər üzrə səfərbər etməklə həm öz kimliyini axtarıb tapır, həm də vətəndaş cəmiyyətinin fəal iştirakçısı olurlar.

2021-ci ili, ümumilikdə, Azərbaycan Könüllülər İctimai Birliyi üçün uğurlu hesab etmək olar. Ətrafına 2000 gənci toplayan təşkilatımız ötən il ərzində 10 təlim, 5 layihə, 3 görüş, onlayn musiqi yarışması, musiqili klip çəkilişi və klip təqdimatı keçirib. 4 regionu əhatə edən layihələr çərçivəsində 4 dövlət, 4 biznes qurumları və 2 beynəlxalq təşkilatla əməkdaşlıq etmişik. Bu layihələrimizdən birbaşa faydalanan gənclərin sayı isə 500 nəfərdən artıq olub.

Azərbaycan Könüllülər İctimai Birliyi tərəfindən 2018-ci ildən bəri 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan "Golden Kids Awards" müsabiqəsi təşkil edilir. Yeri gəlmişkən, bu, yeganə ən böyük uşaq mükafatlandırma mərasimidir. COVID-19 pandemiyası səbəbindən hər il olduğu kimi, 2021-ci ildə də keçirilməli olan mərasim baş tutmadı. Buna baxmayaraq, təşkilat komitəsi ilə istedadlı balaları yenə də bir araya yığaraq "Yutub" kanalı vasitəsilə onlayn konsert proqramını ərsəyə gətirdik.

*- Vətən müharibəsindəki böyük Zəfərimiz münasibətilə hansısa layihə həyata keçirdinizmi?*

- "Azərbaycan Könüllülər" İctimai Birliyi bu təşəbbüsdən yan keçə bilməzdi. Çünki şanlı Zəfərimiz gənclərimizdə böyük ruh yüksəkliyi yaradaraq onları daha həvəslə, ürəklə çalışmağa sövq etdi. Gənclər tərəfindən arxa cəbhədə Azərbaycan həqiqətlərinin dünyaya yayılması, informasiya müharibəsi istiqamətində təqdirəlayiq işlər görüldü.

2021-ci ilin noyabr-dekabr ayları ərzində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və AKİB-in təşkilatçılığı ilə "Könüllülərin Zəfəri" layihəsini həyata keçirdik. Layihə çərçivəsində Vətən müharibəsi iştirakçılarının, hərbi ekspertlərin və Azərbaycanı xarici təşkilatlarda təmsil edən nümayəndələrin gənc könüllülərlə görüşləri təşkil edildi. Layihənin icrasının başlıca məqsədi gənclərin könüllülük hərəkatına maraqlarını daha da artırmaqdan, milli vətənpərvərlik və Vətənə sədaqət ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilən layihələrdə fəal iştiraklarını təmin etməkdən ibarət idi. Dekabrın 6-da "Cinema Plus"da bu layihə çərçivəsində "Könüllülərin Zəfəri" klipinin təqdimatı da oldu. Təqdimat mərasimində 100-dən artıq gənc iştirak etdi. Klip 44 günlük Vətən müharibəsində iştirak edən könüllü gənclərin fəaliyyətinə və "5 Dekabr - Beynəlxalq Könüllülər Günü"nə həsr olunmuşdu. Klipdə əsas mesaj könüllü olmaq, könüllülərin iştirakı ilə tarixin qızıl hərflərlə yazıldığı anının qısa musiqili parça şəklində gənclərə aşılanması idi. Həmçinin klipdə könüllülərin vətənə və dövlətə sevgi ilə xidmətindən də bəhs edilirdi.

*- Bu il olduğu kimi, ötən ildə də qlobal pandemiya səbəbindən beynəlxalq səviyyədə tədbirlərin keçirilməsi azlıq təşkil etdi. Bəs AKİB-in bu istiqamətdə hər hansısa layihəsi baş tutdumu?*

- Qlobal böhran dünyanın əksər ölkələrində tədbirlərin, yarışların, layihələrin təxirə salınmasına səbəb oldu. Amma buna baxmayaraq ictimai birliyimiz bir neçə layihədə iştirak etdi.

Ötən ilin 12-18 avqust tarixlərində Gürcüstanın Kobuleti şəhərində Avropa İttifaqının maliyyə dəstəyi, "Europea Polska" təşkilatının təşkilatçılığı ilə Erasmus+ proqramı çərçivəsində "Analyze-act-attract-achieve: Sustainable Development Goals in youth work" adlı layihədə iştirak etdik. Layihənin əsas qayəsi gənclərə Davamlı İnkişaf Məqsədlərinin tətbiqində bilik və bacarıqlar vermək, sağlam həyat tərzi və rifahı təbliğ etmək üçün müxtəlif vasitələrdən istifadə etmə bacarıqlarını aşılamaq, iqlim dəyişikliyi fenomenini araşdırmaq, ətraf mühitlə bağlı daha az imkanları olan gənclərlə işləmək bacarıqlarını inkişaf etdirmək, Aİ proqramı və tərəfdaş ölkələri ilə gənclərlə iş sahəsində qeyri-rəsmi təhsil və əməkdaşlığı inkişaf etdirmək idi.

Yeddi günlük təlim zamanı nəzəri təqdimatlar, interaktiv seminarlar, müzakirələr, yerli gənclərlə görüş keçirildi və gənclərlə iş haqqında uğurlu hekayələrin paylaşılması, müxtəlif ölkələrdən gələnlərin təcrübələri, daha az imkanları olan insanları cəlb etməyin praktik üsulları bölüşüldü.

*- Hazırda icra edilən layihələriniz varmı və bunlar hansı istiqaməti əhatə edir?*

- Hazırda bir layihəmizin icrası davam etməkdədir. Bu, demək olar ki, ən böyük layihələrimizdən biridir. 2021-ci ilin avqust ayından başlayıb, 2022-ci ilin may ayına kimi davam edəcək layihə "Pellet məhsulları ilə Azərbaycanın orta məktəblərinin isidilməsi" ilə bağlıdır. Layihə bp və tərəfdaşlarının dəstəyi ilə icra edilir.

Bu layihədə Azərbaycanda təbii qaz və ya digər alternativ istilik sistemləri ilə təchiz olunmamış məktəblərin pellet yanacağı vasitəsilə qızdırılması nəzərdə tutulur. Pellet yanacağı ağac və taxta tullantılarının təkrar emalı nəticəsində əldə olunan ekoloji cəhətdən təmiz, "təbiət dostu" olan enerji mənbəyidir.

Artıq Tovuz və Ağstafa rayonlarında seçilmiş 5 orta məktəbin 6 korpusunda pellet yanacağı ilə işləyən isitmə sistemi quraşdırılıb və bu qış mövsümündə məktəblərin istifadəsinə verilib.

*- Yəqin ki, bu il üçün planlaşdırdığınız digər layihələr də var. Sirr deyilsə, AKİB-in 2022-ci ildə həyata keçirəcəyi layihələr barədə məlumat verə bilərmisinizmi?*

- Nəzərdə tutduğumuz yeni layihələr maraqlı sahələri əhatə edir. Onların əksəriyyəti maarifləndirici layihələrdir. Ümumiyyətlə, davamlı olaraq keçirdiyimiz maarifləndirici layihələrdə gənclərin ekoloji problemlər, onların aradan qaldırılması yolları və bu istiqamətdə həyata keçirilən dövlət proqramlarından xəbərsiz olduğunu müşahidə edirik. Bu amilləri nəzərə alaraq və bu istiqamətdə könüllülük fəaliyyətini artırmaq məqsədilə il ərzində 200 nəfərdən çox gəncin iştirakı nəzərdə tutulan 2 ekoloji layihənin keçirilməsini planlaşdırırıq.

Fevral-may ayları ərzində insan və ətraf mühitin mühafizəsini təmin etmək üçün Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin köməyi ilə "Gənclərin plastik tullantılara qarşı mübarizədə rolu" adlı forum və ekoloji təmizlik aksiyası təşkil olunacaq. Bu, 100-ə yaxın gəncin iştirakı ilə ərsəyə gətiriləcək.

Forum plastik torba ehtiyatları ilə nə edilməli olduğunu, yalnız bir dəfə istifadə olunan plastik torbalara parça, həsir, kətandan hazırlana biləcək alternativləri və turizmin ətraf mühitə təsirini müzakirə etmək üçün hökumət və maraqlı tərəflərin iştirak edəcəyi platforma yaradacaq. Burada iştirakçılar fikir mübadiləsi apara, oxşar təcrübəyə malik tərəfdaşlar öz bilgilərini paylaşa biləcəklər. Plastik torbadan istifadə qadağalarının əhəmiyyəti barədə ictimaiyyət, o cümlədən gənclər daha yaxşı maariflənəcəklər.

Digər layihəmiz isə "Gəlin çimərliklərimizi təmiz saxlayaq" devizi altında könüllülərin iştirakı ilə sahilyanı təmizlik işlərinin aparılması kampaniyasıdır. Şübhəsiz ki, tədbir zamanı pandemiya ilə bağlı sosial izolyasiya qaydalarına riayət olunacaq. Kampaniyanın məqsədi ölkədə, xüsusilə paytaxtda ekoloji problemlərin həllində dövlətə ictimai dəstək verməkdir. BMT-in "Ətraf mühit" proqramı modelinin Azərbaycan ərazisinə tətbiq etməklə qısa zaman ərzində müsbət dəyişikliklər üçün ciddi addımlar atılması və əhalinin ekoloji savadlılığının yüksəldilməsi nəzərdə tutulur.

Bundan əlavə, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 20 iyun - 20 sentyabr tarixləri arasında "Yaşıl könüllülər" layihəsini icra edəcəyik. Təqdim etdiyimiz bu layihə BMT tərəfindən dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş 17 məqsəddən - 12-ci "Dayanıqlı İstehlak və İstehsal" və 13-cü "İqlim dəyişikliyi" məqsədlərinə uyğundur.

Layihənin həyata keçirilməsində başlıca məqsəd gəncləri ekologiya sahəsində məlumat daşıyıcısı kimi formalaşdırmaqla onları birgə fəaliyyətə həvəsləndirmək, ətraf mühitin qayğısına qalmağa təşviq etməklə asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaratmaqdır. Ümumilikdə, maarifləndirmədə əsas praktiki istiqamətlər ekoloji aksiyalar keçirməkdən və sosial çarxlar hazırlamaqdan ibarətdir.

Göründüyü kimi, "Azərbaycan Könüllülər" İctimai Birliyi davamlı şəkildə gənclər arasında maarifləndirici layihələr gerçəkləşdirməkdədir. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın uğurlu gələcəyinin təminatçıları olan gəncliyimizin müasir düşüncəli və sağlam ruhda inkişafı üçün atılan addımların tərkib hissəsidir.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# "ASAN" işin, əsl "DOST"un həmdəmi

## KÖNÜLLÜLƏR

Tarixinin ən şanlı və qüdrətli dövrünü yaşayan Azərbaycanda bu gün Gənclər Günü qeyd edilir. 26 il əvvəl - 1996-cı ildə Ulu Öndər Heydər Əliyev Azərbaycanda gənclərin ilk forumunu keçirərək ölkənin gələcəyi sayılanların yol xəritəsini, hədəflərini müəyyənləşdirdi və illər ötdükcə Azərbaycan gəncləri bütün sahələrdə nailiyyətlər qazanmaqla göstərilən etimadı doğrultdular.

2013-cü ildən isə dövlətin gənclər siyasətində yeni mərhələ başladı. Səsvermə hüququna malik olan gənclərin mütləq əksəriyyətinin böyük etimad göstərdiyi İlham Əliyev Azərbaycan gənclərinin hamisinə çevrildi. Gənclərə hər zaman inandığını, güvəndiyini söyləyən Prezident İlham Əliyev belə bir çağırış etdi: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Bu fikirlər Azərbaycan gənclərinin həm dövlətə güvənini, həm də özünəinam hissini artırdı.

### "ASAN xidmət"dən başlayan uğurlu yol

Azərbaycanın dinamik inkişafını təmin edən fundamental faktorlardan birini cəmiyyətin ən fəal təbəqəsi qismində çıxış edən gənclərin potensialından səmərəli istifadə təşkil etdi. Ölkədə gənclər hərəkatı yüksəliş mərhələsinə qədəm qoydu. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçildi və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynamağa başladı.

İlham Əliyevin reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri də neft kapitalının insan kapitalına çevrilməsi idi. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac yarandı və təbii ki, bu sahədə könüllülük fəaliyyəti mühüm önəm daşımağa başladı. 2009-cu ildə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" qanun qəbul etməsi könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla ölkədə könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi qazanca əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. Könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək dünyada kütləvi sosial fəaliyyətə çevrilib.













Müstəqilliyin bərpasından sonra Azərbaycanda könüllülük fəaliyyəti yaransa da, onun hərəkat kimi formalaşması 2012-ci ilə təsadüf edir. İlham Əliyevin müəllifi olduğu müasir Azərbaycan brendi sayılan "ASAN xidmət"in fəaliyyətə başlaması ilə könüllülük hərəkatının əsası qoyuldu. 2012-ci il dekabrın 29-da 1 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı zamanı bir qrup "ASAN könüllüsü" ilə görüşən dövlət başçısı "ASAN" könüllülük hərəkatına xeyir-duasını verdi.

"ASAN xidmət"ə qədər müxtəlif qeyri-hökumət və beynəlxalq təşkilatlarda yüzlərlə azərbaycanlı gənci könüllü kimi fəaliyyət göstərirdi. Lakin könüllülük hərəkatı olaraq bu fəaliyyət məhz "ASAN xidmət"dən başladı. 2016-cı il dekabrın 28-də 1 saylı Bakı "ASAN Kommunal" mərkəzinin açılışı zamanı dövlət başçısının dedikləri bunun bariz sübutudur: "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq könüllülər hərəkatı nədir, onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır".

"ASAN" könüllülük fəaliyyəti "Master 1", "Master 2" və digər bölmələrdən ibarətdir. "Master 1" özündə 3 aylıq müddətdə "ASAN xidmət" mərkəzində keçirilən könüllülük fəaliyyətini ehtiva edir. Bu müddət ərzində onlar vətəndaşlara xidmət göstərir, sorğularda iştirak edir, korporativ mədəniyyəti mənimsəyir, layihələrin iştirakçılarına çevrilir, əvvəlcədən müəyyən edilmiş mövzular haqqında qrup şəklində araşdırmalar aparır və onların təqdimatını hazırlayırlar. Artıq "Master 1" pilləsini başa vurmuş "ASAN Könüllüləri"nin sayı 29.000-dən çoxdur.

"Master 2" proqramı könüllü kimi ixtisas sahəsi üzrə təcrübə toplamaq istəyən gənclər üçün yaradılmışdır. "Master 2" fəaliyyəti Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin müvafiq şöbələrində və "ASAN xidmət" mərkəzlərinin müvafiq sektorlarında gənclərin öz ixtisas sahələri üzrə təcrübə proqramı keçmələrinə şərait yaradır. Fəaliyyətə başladığından etibarən 5000-dən çox "ASAN" könüllüsü "Master 2" pilləsində təcrübə qazanıb.

Fəaliyyəti başa vurduqdan sonra hər bir "ASAN" könüllüsü karyera mərkəzinə müraciət edərək www.asankadr.az portalında qeydiyyatdan keçib, özü haqqında məlumatı daxil etdikdən sonra CV-lərini yerləşdirir və mövcud vakansiyalara müraciət edə bilir. İşə qəbul olan gənclər artıq "ASAN kadr" adını daşıyırlar. Bu günə qədər "ASAN kadr" vasitəsilə işlə təmin olunan "ASAN könüllüləri"nin sayı 3000-ə yaxındır.

"ASAN könüllülük" fəaliyyətində iştirak edib məzun olmuş könüllüləri özündə birləşdirən "ASAN könüllüləri" təşkilatı artıq 8 ildir ki, fəaliyyət göstərir. Təşkilatın fəaliyyətinin əsas məqsədi gənclərin inkişafına şərait yaratmaqla dövlətin dayanıqlı inkişafında çalışan gənclər qrupu formalaşdırmaq, könüllülərin yaradıcı potensialının inkişaf etdirilməsi üçün imkanlar yaratmaq, gənclərin təşəbbüslərini bütün sahələrdə stimullaşdırmaq, ölkənin maraqlarını qoruyan vətəndaş cəmiyyətinin formalaşmasına dəstək olmaqdır.

"ASAN könüllüləri" təşkilatı artıq 29.000-dən çox üzvü özündə birləşdirir. Təsis edildiyi gündən etibarən "ASAN könüllüləri" təşkilatı vətənpərvərlik, təhsil, ekologiya, sosial, səhiyyə, mədəniyyət, eləcə də fərdi inkişaf sahələri üzrə 750-dən çox layihə və 5000-dən çox təlim və seminar həyata keçirərək 100.000-dən artıq gənci əhatə edib.

### "Könüllü DOST" - operativ, səmimi və qayğıkeş

Azərbaycanda son illərdə sosial-iqtisadi sahədə mühüm islahatlar həyata keçirilməkdədir. Bu, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Üç ilə yaxındır fəaliyyət göstərən "DOST" Agentliyi də ölkədə aparılan genişmiqyaslı iqtisadi-sosial islahatların tərkib hissəsidir.

2019-cu ilin may ayından bəri Bakıda və Abşeron rayonunda 5 "DOST" mərkəzi yaradılıb və "DOST" mərkəzlərinə 700 mindən çox vətəndaş müraciəti qeydə alınıb. Bu mərkəzlərdə vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98 faizdir.

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan "DOST" Agentliyinin məqsədi məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həll yollarının tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan "DOST" layihəsi dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunmasına şərait yaradıb.

"DOST" mərkəzlərindən xidmətdən məmnunluğun bu qədər yüksək olmasında operativ və şəffaf fəaliyyət göstərən peşəkar, təcrübəli kadrlarla yanaşı, könüllülərin də böyük rolu var.

Könüllülər mərkəzlərdə vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, elektron sistemlərdən istifadə üçün kömək göstərilməsi, xidmət üzrə sənədlərin siyahısı ilə vətəndaşların tanış edilməsi, müxtəlif anket, forma və digər sənədlərin doldurulması, əlillərə xüsusi diqqət və qayğı göstərilməsi, rəy sorğularının keçirilməsi işlərini yerinə yetirirlər.

"Könüllü DOST" proqramına indiyədək 50 min nəfərə yaxın şəxs müraciət edib və ötən dövrdə bu proqram üzrə 1685 nəfər könüllü kimi "DOST" mərkəzlərinə cəlb edilib. Proqram fərqli ictimai və yaş təbəqələrini əhatə edən bir neçə altproqramdan ibarətdir: "Gənc DOST", "Gümüşü DOST", - "Distant DOST" və "Korporativ DOST".

"Gənc DOST" altproqramı 16-29 yaş aralığında olan gənclərin, o cümlədən əlilliyi olan şəxslərin vətəndaşlara xidmət sahəsində təcrübə qazanması, ilkin işgüzar vərdişlər əldə etməsi, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarının təməlinin qoyulması məqsədi daşıyır. Könüllülük fəaliyyətinin müddəti iki aydır.

"Gümüşü DOST" altproqramı pensiyaçıların cəmiyyətə reinteqrasiyası, nəsillərarası təcrübə və bilik mübadiləsi, yaşlı şəxslərin asudə vaxtının aktiv təşkili və fəal yaşlanması məqsədi daşıyır.

"Distant DOST" altproqramı təhsil, təlim, tədqiqat, PR, konsaltinq və digər sahələr üzrə verilən tapşırıqların onlayn qaydada könüllülər tərəfindən yerinə yetirilməsi məqsədi daşıyır. Bu altproqram əsasında müvafiq sahələr üzrə peşəkar mütəxəssislər, ictimai xadimlər, habelə əlilliyi olan şəxslər kompüter, planşet və ya smartfondan istifadə etməklə ofis və ya evlərində könüllü kimi fəaliyyət göstərmək imkanına malik olurlar.

"Korporativ DOST" altproqramı cəmiyyətdə ictimai-sosial məsuliyyət hissinin artırılması, müxtəlif təşkilatların korporativ sosial məsuliyyətlilik proqramlarının daha effektiv formada təşkili və sosial sahədəki təşəbbüslərin qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində ehtiyac olan sahələr üzrə istiqamətləndirilməsi məqsədi daşıyır.

Böyük əksəriyyəti gənclər və tələbələr olan könüllülər gündəlik olaraq 3 saat fəaliyyət göstərirlər. İki ayın yekununda onlar məzun olurlar və daha sonra mərkəzə yeni könüllülərin seçimi başlayır.

Ümumiyyətlə, "Könüllü DOST" proqramının gənclər üçün əhəmiyyəti işgüzar vərdişlər əldə etmək, fərdi inkişaf, asudə vaxtın səmərəli keçirilməsi, yeni dostlar və karyera yolunda ilk uğurlu addımların təməli baxımından faydalıdır. Proqram özündə dövlətçilik və vətənpərvərlik, ictimai-sosial məsuliyyətlilik, birlik və əməkdaşlıq, qayğıkeşlik və yardımsevərlik prinsiplərini ehtiva edir. Hazırda "DOST" mərkəzlərində fəaliyyət göstərən könüllülərin əksəriyyəti ali məktəb tələbələridir. Onların əksəriyyəti sosial işçi ixtisası üzrə təhsil alırlar. Könüllülük fəaliyyətləri isə əldə etdikləri biliklərin təcrübədə tətbiq etmələrinə imkan yaradır. "Könüllü DOST"un ümumilikdə 1479 nəfər məzunu var. Onların hər biri "DOST"a töhfə vermiş gənclərdir.

### Vətən müharibəsində gənclərin qəhrəmanlığı könüllülüyün dəyərini daha da yüksəldib

Göründüyü kimi, Azərbaycanda formalaşmış könüllülük hərəkatı ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır. Bu xeyriyyə təşəbbüsü davam etməkdədir. Çox yaxşı haldır ki, ölkəmizdə könüllülüyün təbliği üzrə kifayət qədər uğurlu işlər görülür, dövlət qurumları, özəl sektor və müxtəlif təşkilatlar bu fəaliyyətin təbliği istiqamətində bir sıra layihələr həyata keçirirlər.

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi də dövlətin gənclərə verdiyi yüksək dəyərin ali mükafatıdır. Onu da vurğulamalıyıq ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində işğal altında olan torpaqlarımızın azad edilməsində könüllü iştirak edən, öz qəlbinin səsi, ürəyinin hökmü ilə müqəddəs haqq savaşına qalxan əsgərlərimizin göstərdiyi qəhrəmanlıq və rəşadət nümunəsi könüllülüyün dəyərini daha da yüksəltdi. Çünki böyük Zəfərin qazanılmasında qalib Azərbaycan gəncinin çox böyük və əvəzedilməz payı oldu.

Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə könüllülük fəaliyyətinin inkişafına göstərdiyi yüksək diqqət və qayğı, bu sahədə əldə olunan nailiyyətlər və könüllülərin ölkəmizin inkişafında əvəzsiz xidmətləri qarşıdakı dövrdə daha böyük uğurların qazanılacağını deməyə əsas verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***













# Müasir gənclik gələcəyə olan ümidin rəhnidir

Respublikamızda dövlət gənclər siyasətinin müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün hər cür şərait yaradılıb və bu sahədə mühüm nəticələrə nail olunub.

25 il öncə - 1997-ci ildə Ulu Öndər fevralın 2-ni Gənclər Günü elan etdi və həmin tarix qəlbi qurub-yaratmaq eşqi ilə döyünən hər bir Azərbaycan gəncinin Vətən qarşısında hesabat günü oldu.

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də hər zaman fəaliyyətində gənclərlə iş məsələsinə çox həssaslıqla yanaşır, müstəqil Azərbaycan dövlətinin bugünün və gələcəyinin əsas sosial qüvvəsi olan müasir gəncliyin vətənpərvər ruhda yetişməsi üçün nə lazımdırsa edir.

Dövlət gənclər siyasətini prioritet istiqamət kimi diqqət mərkəzində saxlamaqla, gəncliyin cəmiyyətin inkişafında sosial təbəqəyə çevrilməsinə, demokratikləşmədə, sosial-iqtisadi sahələrdə uğurlar əldə etməsinə, islahatların gerçəkləşdirilməsi prosesinə qoşulmasına dəstək verir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclər hər bir xalqın xoşbəxt gələcəyə olan ümidinin rəhnidir. Gənclər cəmiyyətin dinamik, hərəkətverici, fəal hissəsi, ideyaların gələcəyə ötürülmə qüvvəsidir.

Prezident İlham Əliyev son 19 ildə gənclərimizin hərtərəfli inkişafı, onların intellektual səviyyəsinin yüksəldilməsi üçün bütün imkanlardan istifadə edir. Bu gün gənclərimiz müxtəlif siyasi və qeyri-hökumət təşkilatlarında uğurlu fəaliyyətləri ilə seçilirlər. Təmsil etdiyim Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir ki, onların 40 faizdən çoxu gənclərdir. Yəni bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq.

Prezident İlham Əliyevin "Gənclərə müraciət edirəm! Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm" sözləri əslində Azərbaycan gəncliyinin qarşısında açılan aydın üfüqlərdir.

Azərbaycanda gənclərin hərtərəfli inkişafı istiqamətində genişmiqyaslı işlər aparılır. Prezident İlham Əliyevin 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət gənclər siyasətinin yeni mərhələyə qədəm qoyduğunu bir daha göstərdi. Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, bundan ölkəmizin mənafeyi naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

Ötən dövr ərzində adıçəkilən strategiya və proqram gənclər siyasətinin səmərəli həyata keçirilməsində, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaradılmasında əhəmiyyətli rol oynayıb. Bu, eyni zamanda təhsil sisteminin gücləndirilməsinə, ölkədə elmi potensialın artırılmasına əsaslı şərait yaradıb.

Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə sahib olan gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar.

Vətən müharibəsindəki şanlı Zəfərin əldə olunmasında da gənclərin böyük, əvəzedilməz rolu oldu. Qüdrətli Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə yazdığı möhtəşəm zəfər tarixində gənclər misilsiz qəhrəmanlıqlar göstərdilər. Bu gün isə Azərbaycan gəncləri işğaldan azad olunmuş torpaqlarımızın dirçəlməsində fəal iştirak edirlər.

Azərbaycanda Gənclər Günü 25 ildir ki, qeyd olunur. Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə çevrilib. Bu gün hər bir Azərbaycan gənci Ali Baş Komandanın əsgəridir. Orduda əsgəridir, təhsildə əsgəridir.

Azərbaycan gəncliyi xoşbəxtdir ki, uzaqgörən lideri, qətiyyətli Prezidenti ona daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib. Bu gün Azərbaycanın gələcəyi olaraq biz gənclərin üzərinə çox böyük vəzifələr düşür. Gənclər Prezidentin göstərdiyi etimadı doğrultmalı və yeni ideyalarla Azərbaycanın daha da inkişafı üçün çalışmalıdırlar. Bütün fəaliyyətimizdə cənab Prezidentə arxalanır və qayğısını hər zaman hiss edirik.

***Günel MƏLİKLİ,***
***AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Tələbələrin yataqxana problemi

## Hələ də həll olunmamış qalır

Yataqxanalar ali təhsil müəssisələrinin reytinqində vacib meyarlardan biri hesab olunur. Lakin statistik rəqəmlər və real mənzərə göstərir ki, respublikamızda bu sahədə vəziyyət qənaətbəxş deyil. Bu gün tələbələrin yataqxana ilə təminatının olduqca aşağı səviyyədə olması onların ailəsi üçün əlavə xərclərin yaranmasına gətirib çıxarır. Ailənin maddi təminatı aşağı olduqda isə bu vəziyyət daha da kəskinləşir.

Birinci kurs tələbəsi olan Günay Müslümova da bu çətinlikləri yaşayan tələbələrdən biridir. Ali məktəbə daxil olduğu zaman ailəsinin maddi imkanını nəzərə alaraq, oxuduğu təhsil müəssisəsinin yataqxanasında qalmağı planlaşdırsa da, buna nail olmayıb, çünki yer tapa bilməyib. Buna görə də bir neçə tələbə yoldaşı ilə birlikdə kirayə evdə qalmaq məcburiyyətindədir. Günay növbəti tədris illərində bu məsələnin həll ediləcəyinə ümid bəsləyir. Lakin mövcud reallıq tələbələrin bu ümidlərini gercəkləşdirməyə imkan verirmi?!

### Ali təhsil alanların cəmi 2,5 faizi yataqxana ilə təmin edilir

Hazırda ali təhsil müəssisələrinin ümumi tələbə sayının 200 min nəfərə yaxın olmasına baxmayaraq, yataqxana ilə təmin edilən tələbələrin sayı 2,5 faiz təşkil edir. Bu isə bir çox dünya ölkələri ilə müqayisədə olduqca aşağı göstəricidir.

Mövcud yataqxanalar təhsilalanların çox az hissəsinin yaşayış yeri ilə təminatına imkan verdiyindən tələbələr vəziyyətdən yeganə çıxış yolunu dərs ilindən əvvəl münasib qiymətlərlə kirayə evlər tapmaqda görürlər. Əmlakçılar da dərs ili ərəfəsində kirayə bazarında canlanmanın artmasının və qiymətlərin yüksəlməsinin bundan qaynaqlandığını etiraf edirlər.

Əmlakçıların sözlərinə görə, kirayə bazarında canlanma artdıqca tələbələrin ucuz qiymətə kirayə ev tapması da çətinləşir. Digər tərəfdən, şəhərin mərkəzində ucuz kirayə evlərin verildiyi binaların sökülməsi və onların yerində hündürmərtəbəli binaların tikilməsi qiymətlərin iki dəfə artmasına gətirib çıxarır. Bu səbəbdən tələbələrin məktəblərə yaxın ərazilərdə, yəni şəhərin mərkəzində kirayə ev tutması onlara getdikcə daha baha qiymətə başa gəlir. Şəhərdən kənarda kirayə evlərin tutulması isə gediş-gəlişin çətinliyi baxımından sərfəli olmur. Bütün bu amillər tələbələrin yataqxanalara olan ehtiyacını getdikcə daha çox artırır və bu problemin həlli zərurətini aktuallaşdırır.

### Ölkə üzrə 53 yataqxanadan 16-sı təmirlidir

Təhsil Nazirliyinin tabeliyində olan dövlət ali təhsil müəssisələrinin tabeliyində 53 yataqxana binası olsa da, onlardan yalnız 3859 nəfərlik tutumu olan 16 bina təmirlidir. Hazırda fəaliyyət göstərən bu təmirli yataqxanalar Azərbaycan Memarlıq və İnşaat Universitetinə (1 bina), Azərbaycan Dövlət Pedaqoji Universitetinə (1 bina), Naxçıvan Dövlət Universitetinə (2 bina), Lənkəran Dövlət Universitetinə (2 bina), Bakı Mühəndislik Universitetinə (2 bina), Azərbaycan Dillər Universitetinə (1 bina), Bakı Dövlət Universitetinə (1 bina), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə (1 bina), Azərbaycan Dövlət Aqrar Universitetinə (2 bina), Gəncə Dövlət Universitetinə (3 bina) aiddir.

Bunlardan əlavə, 1141 nəfərlik tutumu olan 11 təmirsiz yataqxana binası mövcuddur. Təmirsiz yataqxanası olan binaların 2-si Bakı Dövlət Universitetinin, 1-i Azərbaycan Texniki Universitetinin, 1-i Bakı Slavyan Universitetinin, 1-i Azərbaycan Dillər Universitetinin, 4-ü Gəncə Dövlət Universitetinin, 2-si Azərbaycan Texnologiya Universitetinin tabeliyindədir. Digər 27 yataqxana binasında məcburi köçkünlər məskunlaşdığı üçün onların tələbələrin istifadəsinə verilməsi mümkünsüzdür. Bu binaların 5-i Azərbaycan Texniki Universitetinin, 5-i Azərbaycan Memarlıq və İnşaat Universitetinin, 5-i Azərbaycan Dövlət İqtisad Universitetinin, 5-i Azərbaycan Dövlət Pedaqoji Universitetinin, 3-ü Bakı Slavyan Universitetinin, 1-i Azərbaycan Dillər Universitetinin, 1-i Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, 2-si Sumqayıt Dövlət Universitetinin, 1-i Gəncə Dövlət Universitetinin balansındadır.

Son illər ərzində bəzi yataqxanalar təmir edilib. 2020-2021-ci illərdə Gəncə Dövlət Universitetinin 706 nəfərlik tutumu olan 3, Bakı Dövlət Universitetinin isə 216 nəfərlik tutumu olan 1, Dövlət Aqrar Universitetinin 1040 nəfərlik tutumu olan 2 yataqxana binası təmir edilib. Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ərazisində 800 nəfərlik yataqxana binası tikilərək istifadəyə verilib. Lakin mövcud vəziyyət göstərir ki, hazırkı yataqxana sayı tələbələr üçün yetərli deyil və bu sayın artırılması üçün yeni işlərin görülməsi vacibdir.

Azərbaycan Texniki Universitetinin (AzTU) mətbuat katibi Sevinc İsgəndərova bildirir ki, tələbə şəhərciklərindəki yataqxanalarda 1988-90-cı illərdə məcburi köçkün ailələri məskunlaşıblar. Yataqxanalarda ümumilikdə 900-dək məcburi köçkün ailəsi yaşayırdı. Hazırda binalarda 124 ailə qalıb: "Yataqxana kompleksi tamamilə yararsız hala düşüb. Binalardakı vəziyyət hər hansı yaşayış standartlarına cavab vermir. Su, elektrik və qaz xətləri, habelə kanalizasiya sistemi məcburi köçkünlər tərəfindən öz məişətlərinə uyğun dəyişdirilib. Yataqxana kompleksindəki ərazidə vaxtilə mövcud olmuş idman, sağlamlıq və ictimai iaşə obyektləri, habelə ətraf yollar və yaşıllıqlar tamamilə yararsız hala düşüb. Məcburi köçkünlər köçürüldüyü təqdirdə belə yataqxanalar əsaslı təmir edilmədən öz təyinatı üzrə istifadə edilə bilməz".

S.İsgəndərova bildirir ki, hazırda universitetin yataqxanalarında məskunlaşan məcburi köçkünlər yeni qəsəbələrə köçürülür və proses davam edir. Köçürülmə prosesi tam yekunlaşdıqdan sonra yataqxanalar əsaslı şəkildə təmir olunacaq.

Dövlət İqtisad Universitetindən isə bildirdilər ki, hazırda 5 yataqxanaları olsa da, onların hamısında məcburi köçkünlər məskunlaşdığından tələbələri yerləşdirə bilmirlər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) mətbuat katibi Cavid Hüseynovun sözlərinə görə, hazırda bu təhsil müəssisəsinin 240 nəfərlik 1 yataqxanası var. Yataqxana universitetin "Gənclik" metrosuna yaxın olan ikinci korpusunun yanında yerləşir: "Otaqlar geniş və iki nəfərlikdir, tam təmir edilib. Aylıq ödəniş 70 manatdır. Yataqxananın tam şəraiti var. Əsaslı təmir olunub. Yataqxanaya yerləşdirmə zamanı maddi vəziyyəti ağır olan xanım tələbələrə üstünlük verilir, daha sonra boş qalan yerlərə digər tələbələr yerləşdirilir".

### Tədris müəssisələrinin özləri də problemə laqeyd yanaşırlar

Bir çox ölkələrdə tələbələrin yataqxana ilə təminatı həm dövlət, həm də özəl sektorun dəstəyi hesabına öz həllini tapır. Məsələn, Türkiyədə təhsil alan tələbələr üçün həm dövlət, həm də özəl yataqxanalar fəaliyyət göstərir. Tələbə maddi büdcəsinə və müraciət tarixinə görə hər hansı bir yataqxana seçə bilər. Dövlət yataqxanalarında aylıq ödəniş 120-250 türk lirəsidir. Bu vəsaitə gündə 1 dəfə yemək, kommunal xərclər, çamaşırxana və digər xidmətlərin ödənişləri də daxildir.

Özəl yataqxanalarda isə aylıq ödənişlər 500-2000 lirə arasında dəyişir. Bu qiymətlər yataqxananın yerləşdiyi şəhərə, otaqda adam sayına görə dəyişir. Yataqxanalarda yüksək sürətdə internet, 10 gündən bir camaşırların yuyulması, məşq zalı, stolüstü tennis, sinema otağı, sağlıq mərkəzi, mətbəx, dinlənmə və dərs otaqları, çanta və yüklərin saxlanılması üçün depolar, qaraj və s. təklif edilir. Yataqxanaların təhlükəsizliyi özəl güvənlik şirkətləri tərəfindən təmin edilir.

Azərbaycanda isə tələbələrin yaşadıqları yataqxanalar, demək olar ki, dövlət tərəfindən tikilib.

Tələbələrin yataqxana ilə təminatı onların akademik nailiyyətlərinə təsir göstərdiyi üçün bütün ali məktəblər, istər dövlət, istərsə də özəl məktəblər yataqxanalarının olmasına maraq göstərməlidirlər. Ərazisi olan məktəbə yataqxana tikməyə icazə verilir. Məktəblər bu imkandan istifadə etməlidirlər. Onlar təhsil haqlarından əldə etdikləri gəlirlərdən bu problemin tam olmasa belə, qismən həllinə vəsait yönəldə bilərlər. Özəl sektoru da ərazilərində yataqxanaların inşasına cəlb edərək kirayədə qalan tələbələrin bu ağır yükün altından çıxmasına yardım göstərmək mümkündür.

Ancaq bir çox dövlət məktəbləri bu məsələyə laqeyd yanaşaraq yataqxana probleminin yalnız dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti hesabına həll edilməsini gözləyir, mövcud yataqxanaların təmiri və ya yeni yataqxananın inşası üçün öz büdcələrindən vəsait xərcləmək istəmirlər. Hesablama Palatasının ötən illər ərzində apardığı araşdırmalardan da bu qənaətə gəlmək olur ki, ali məktəblər istədikləri təqdirdə bu istiqamət üzrə maliyyə vəsaiti xərcləyə bilərlər. Yoxlamalar nəticəsində aşkarlanan faktlar - ali məktəblərin minlərlə manat həcmində büdcə və qeyri-büdcə vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi də bunu təsdiq edir ki, məktəblərin vəsaitləri var, sadəcə, bu problemin həlli üçün istəkləri yoxdur...

Digər tərəfdən, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da özəl sektor bu sahədə müstəqil bir subyekt olaraq fəallıq göstərə bilər. Lakin bu gün ölkəmizdə özəl sektor tələbələrin yataqxana ilə təminatında nəinki iştirak etmir, hətta buna maraq belə göstərmir. Əsas səbəbsə şirkətlərin bu sahəyə daha az mənfəət verən sahə kimi baxması, tikdikləri binaların yataqxana kimi istifadəsindənsə, mənzillərin satılmasına daha çox üstünlük verməsidir.

Sözsüz ki, tikinti şirkətləri özəl sektor olaraq, daha çox öz iqtisadi maraqlarını önə çəkərək yataqxana probleminin həllində maraqlı deyillər. Ancaq ali məktəblər bu məsələnin həllindən kənarda qalmamalı və tələbələri üçün ayrıca yaşayış binasının tikilməsində, yaxud mövcud olanının təmir edilib istifadəyə verilməsində təşəbbüskar olmalıdırlar.

Qiymətlərə gəldikdə, Azərbaycanda dövlət ali məktəblərin yataqxanalarında aylıq ödənişlər 30-100 manat arasında dəyişir. Yalnız "Univerium" yüksək səviyyəli yataqxana olduğu üçün burada aylıq ödənişlərin məbləği 200 manatdır. Dövlət müəssisələri yataqxanalarının ödəniş qiymətlərini özləri müəyyən edirlər. Qiymətlərin müəyyən edilməsi zamanı oradakı şərait nəzərə alınır.

Tələbə yataqxanasının inşasının planlaşdırılmış şəkildə aparılması da olduqca əhəmiyyətlidir. Bunun üçün tədqiqat aparılaraq müvəqqəti yaşayış yerinə ehtiyac duyan tələbələrin təxmini sayının müəyyən edilməsi vacibdir. Çünki elə ali məktəblər var ki, oraya rayondan gəlib qəbul olanların sayı azlıq təşkil etdiyindən yataqxanaya o qədər də ehtiyacı yaranmır. Başqa bir universitetdə isə bunun əks vəziyyəti müşahidə edilir.

### Yataqxana yerləri ən azı dörd-beş dəfə artırılmalıdır

Təhsil üzrə ekspert Elçin Süleymanov deyir ki, hazırda universitetlərin tələbələrə təqdim edə biləcəyi yataqxana yeri təxminən 4-5 min nəfər civarındadır. İki yüz minlik tələbə kontingentinin ən azı 30-40 faizinin regionlardan gələn tələbələr oldugu nəzərə alınarsa, bu yerlər ən azı dörd-beş dəfə artırılmalıdır.

Ekspert belə hesab edir ki, yataqxanası olan universitetlər istisna olmaqla, digər universitetlərə ya birbaşa, ya da dolayı yolla dəstək verilməlidir. Dövlət və ya özəl sektorla birgə yataqxanalar inşa etməklə problemi həll etmək mümkündür: "Düzdür, dövlət sifarişli yerlərin artması və tələbə təhsil krediti sisteminin fəaliyyətə başlaması tələbələrin maliyyə problemini qismən həll edib. Amma yenə də kirayə qiymətlərinin yüksək olmasını nəzərə alıb yataqxana tikintisinə diqqət artırılmalıdır. Tələbənin xərclərinin əhəmiyyətli bir hissəsini yaşayış xərcləri təşkil edir. Yataqxana məsələsi tələbələrimizin üzləşdiyi ən böyük problemdir. Kirayə qiymətləri çox zaman tələbələrin büdcələrinə ekvivalent olmur. Bəzi tələbələr var ki, universitetə qəbul olur, amma təhsil haqqı və kirayə qalmaq məsələsinə görə təhsilini davam etdirə bilmir. Milli Məclisin Elm və təhsil komitəsinin hazırladığı "Ali təhsil haqqında" qanun layihəsinə görə, ali təhsil müəssisələri qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq yaşayış yerinə ehtiyacı olan tələbələri yataqxanada yerləşdirməlidirlər. Belə bir maddənin qanun layihəsində yer alması çox təqdirəlayiqdir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi həssas kateqoriyadan olan tələbələrin yataqxanalarda yaşayış yeri ilə ilk növbədə təmin ediləcək kateqoriya olması da çox aktual addımdır".

E.Süleymanov hesab edir ki, məcburi köçkünlərin məskunlaşdıqları, uzun müddət təyinatı üzrə istifadə edilməyən yataqxanaların təmirinin və ya yenidən tikilməsinin hansısa bir proqram çərçivəsində həll edilməsi daha yaxşı olardı. Onun sözlərinə görə, tələbələr üçün sosial yataqxanalar tikilə və onlar güzəştli qiymətlərlə təklif edilə bilər: "Məsələn, Türkiyədə Kredit və Yataqxanalar Qurumu tərəfindən ehtiyacı olan tələbələrə bu sistemdən yararlanmağa şərait yaradılır. Nəticədə tələbələr yaşayış yeri üçün cüzi vəsait ödəyirlər. Qalan borcu isə məzun olduqdan sonra işləyərək geri qaytarırlar. Tələbənin oxuduğu dövrdə dövlət onun həm təhsil, həm də yaşayış haqqını öz öhdəsinə götürür. Məzun olduqdan sonra isə tələbə ödənişi geri qaytarır və qurum da o vəsaitdən daha yaxşı, keyfiyyətli xidmət üçün istifadə edir".

E.Süleymanovun fikrincə, yataqxanaların olması universitetlərin reytinqində önəmli nüanslardan və istifadə edilən meyarlardan biridir. Hazırda bəzi universitetlərin komfortlu şəraiti olan yataqxanaları olsa da, onların ödənişləri bahadır. Ona görə də tələbə orada qalmaqda çətinlik çəkir. Bu səbəbdən sosial yataqxanaların açılması önəmlidir.

Sirr deyil ki, bəzi tələbələr kirayə pulunu ödəyə bilməkdən ötrü dərsdən sonra işləmək məcburiyyətində qalırlar. Bu isə sözsüz ki, tələbənin akademik nailiyyətlərinin zəifləməsinə və onun gələcəkdə savadlı kadr kimi yetişməməsinə gətirib çıxarır.

Azərbaycanda son illərdə yataqxanaların bərpası istiqamətində müəyyən işlər görülsə də, bunlar tələbənin münbit təhsil şəraitində oxuması üçün yetərli deyil. Buna görə də inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da ehtiyacı olan tələbələrin yaşayış yeri ilə təminatı ali məktəblər üçün ən vacib məsələlərdən biri olmalı və bu istiqamətdə səmərəli addımlar atılmalıdır.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Üç beynəlxalq müsabiqənin laureatı

## Gənc dirijor Mustafa Mehmandarov həm də dünyanı uğurları ilə dolaşan istedadlılarımızdan biri kimi tanınır

İstedadları ilə sərhədləri aşan gənclərimiz az deyil. Onlardan biri də Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na adı yazılan, "Caspian Virtuosos" Orkestrinin təsisçisi, bədii rəhbəri və baş dirijoru, TÜRKSOY Kamera Orkestrinin qonaq-dirijoru və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru Mustafa Mehmandarovdur.



1992-ci il iyunun 2-də Bakıda dünyaya göz açıb. 1998-2009-cu illərdə Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində Orta İxtisas Musiqi Məktəb-Studiyasında mərhum professor Bayandur Mehdiyevin sinfində skripka ifaçısı ixtisası üzrə dərs alıb. O, tanınmış simfonik orkestrlərin iştirakı ilə ABŞ, Böyük Britaniya, Almaniya, Avstriya, Fransa, İtaliya, Slovakiya, Finlandiya, Türkiyə, Monteneqro, Makedoniya, Bosniya və Herseqovina, Serbiya və digər ölkələrdə konsert proqramları ilə çıxış edib.

Azərbaycanın hərb tarixinə adlarını qızıl hərflərlə yazan məşhur Mehmandarovlar soyuna şöhrət gətirənlər çox olub. İlk azərbaycanlı ali təhsilli hüquqşünas Mirzə Sadıq bəy Mehmandarovun, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general-leytenant Səməd bəy Mehmandarovun, ilk azərbaycanlı ali təhsilli həkim, tanınmış ictimai xadim Kərim bəy Mehmandarovun xidmətləri böyükdür. Mustafa Mehmandarov da istedadı, sənətdə pillə-pillə ucalmağı ilə bu missiyanı davam etdirir.

Təlim-tərbiyəsində valideynləri ilə yanaşı, nənəsi Leyla xanımın da xüsusi rolu olub. Leyla xanım məşhur Rüstəmbəyovlar nəslindən olmaqla yanaşı, həm də Bakı milyonçusu, mesenant Hacı Zeynalabdin Tağıyevin nəticəsidir. Ömrünün sonuna qədər Azərbaycan Dövlət Konservatoriyasında dərs deyən, Musiqi tarixi kafedrasında dosent vəzifəsində çalışan Leyla xanımın evdəki pianosu Mustafa üçün ilk musiqi aləti olub.

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının musiqi redaktoru Həmidə Adilova deyir ki, Mustafa Mehmandarovun gənc olmasına baxmayaraq, erkən qazandığı uğurları kifayət qədərdir. O, skripkaçı kimi də bir sıra beynəlxalq müsabiqələrin laureatıdır: "2007-ci ildə Bolqarıstanda keçirilən Beynəlxalq Müsabiqədə 2-ci yerə çıxıb və "Laureat" adını qazanıb. 2011-ci ildə isə Lüksemburqda "Qızıl medal"ın və "Laureat" diplomunun sahibi olub. 2012-ci ildə İtaliya və Avstriyada qazandığı uğura görə, "Laureat" diplomu ilə təltif edilib. Vətənə I yerin sahibi kimi dönüb. Mustafa Mehmandarov 2013-cü ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Skripka fakültəsini fərqlənmə diplomu ilə bitirib. Dərslərini görkəmli dirijor, Xalq artisti, professor Rauf Abdullayevdən alan, 2018-ci ildə Vyana Konservatoriyasının Opera-Simfonik Dirijorluğu fakültəsini fərqlənmə diplomu ilə bitirən ilk azərbaycanlı dirijor da məhz Mustafa Mehmandarov olub. Gənc dirijorun repertuarına Avropa, rus klassikləri, həmçinin Azərbaycan bəstəkarlarının əsərləri daxildir..."

2019-2020 və 2021-ci illərdə Mustafa Mehmandarov dövlət başçısının müvafiq sərəncamına əsasən, Gənclər üçün Prezident Mükafatına layiq görülüb. O, ixtisas və peşəsi ilə bağlı suala cavabı da peşəkarlıqla verir: "... Doğrudur, 15 il skripka ifa etmişəm, hətta 3 beynəlxalq müsabiqənin laureatı da olmuşam. Amma skripka ifa etdiyim zamanlarda belə dirijorluğa böyük marağım olub. Bir neçə dirijorla çalışmışam. Öz ixtisasımda qalsaydım, işim ancaq solo ifadan ibarət olacaqdı. Mənsə bununla kifayətlənə bilməzdim. İrihəcmli musiqiyə lap əvvəldən maraq vardı və bu, məni dirijorluq sənətinə gətirib çıxardı..."

Mustafa Mehmandarov Vyanada təhsil aldığı illərdə Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasına yazdığı uvertüranı tədris proqramına saldırıb. Bu, heç də asan məsələ deyildi. Deyir ki, buna tək o, özü yox, professor Maksimilian Çençiçin köməyi ilə nail olub: "Heç ağlıma da gəlməzdi ki, belə bir şey mümkün olar, çünki bu, çox çətin idi. Professor təklifimi müsbət qarşıladı və yarım il ərzində orada təhsil alan bütün tələbələr bu əsəri öyrənməyə başladılar. Mən dahi bəstəkarımız Üzeyir bəy və əsər haqqında onlara geniş məlumat verirdim. Təhsil aldığım məkanda imtahanlar publik konsertlər şəklində olurdu. Həmin konsertlərdən birində "Koroğlu" uvertürası səsləndi. Avstriya tarixində ilk dəfə idi ki, Azərbaycanın simfonik musiqisi Vyanada ifa olunurdu..."

Musiqi redaktoru onu da xüsusi vurğulayır ki, hər bir insan üçün öz ailəsi və kökləri əzizdir, üstündür. Mustafa söhbətlərinin birində bildirib ki, onun həyatında bu, ikiqat üstünlük təşkil edir. Yəni, Mehmandarovlar nəsli Azərbaycan tarixində bir çox ilklərə imza atıb. Gənc dirijorumuz fikirlərini belə ifadə edir: "Öncəliklə Azərbaycanın ilk ali təhsilli həkimlərindən olan ulu babam Əbdülkərim bəy Mehmandarovun adını çəkməliyəm. Azərbaycan Demokratik Respublikasının qurulmasında xüsusi rol oynamış digər ulu babam Səməd bəy Mehmandarovun da adını qeyd etməliyəm. Bu səbəbdən soyadım məndə hər zaman böyük bir məsuliyyət hissi yaradıb və bu, son nəfəsimə qədər davam edəcək. Ona görə də atdığım addımların soyadıma layiq olmasına çalışıram..."

Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada Mehmandarovlara da məxsus mülk-malikanə var. Şuşanın həsrətini illər uzunu çəkən Mehmandarovlardan biri kimi, Mustafa da həmin mülkü ziyarət edib. Və həm də ilk növbədə Şuşaya "əliboş" getməyib.

Ötən il Milli Musiqi Günü ərəfəsində Şuşaya səfər etmək, orada rəhbəri olduğu orkestrlə konsert vermək kimi bir müqəddəs ziyarəti heç zaman unutmayacağını deyir. Üzeyir bəyin əsərlərinin Şuşada səslləndirilməsi bir vaxtlar onun xəyalında qanad açan arzulara dönmüşdü. Reallaşdığına görə də kollektivi və ümumiyyətlə, musiqisevərlər adından Müzəffər Ali Baş Komandan İlham Əliyevə təşəkkürünü çatdıran Mustafa Mehmandarov ömrünə o anların qızıl hərflərlə yazıldığını deyir.

Televiziya kanallarında tez-tez nümayiş etdirilən Şuşadakı məşhur ev Kərim bəy Mehmandarova və onun həyat yoldaşı İran şahzadəsi Zəri xanım Qacarın ailəsinə aid olub. Kərim bəy Mehmandarov ali tibb təhsili alan ilk azərbaycanlılardan biri idi. O, həm də xalqımız qarşısında böyük xidmətləri olan "Difai" təşkilatının Qarabağ bölməsinin rəhbəri olub. O, qarabağlıların yaddaşında insanları təmənnasız müalicə edən və xalqı erməni təcavüzkarlarından qoruyan həkim kimi qalıb.

Mustafa Mehmandarov deyir ki, onlar əmioğlu kimi çox mehriban olublar. Səməd bəy Peterburqda təhsil alan zaman Kərim bəy Mehmandarovun kirayə götürdüyü evdə qalıb: "Bu gün Mehmandarovların bütün nəsli Şuşanın işğaldan azad olunmasına və Kərim bəy Mehmandarovun evinin bərpasına başlanmasına görə Azərbaycan xalqının dahi oğlu, möhtərəm Prezident İlham Əliyevə çox minnətdardırlar. Prezidentə və hörmətli birinci xanım Mehriban Əliyevaya dərin təşəkkürlərini bildirirlər. Şükürlər olsun ki, işğalda qalan illər ərzində ulu babamızın mülkü dağıdılmayıb. Yanında ulu babam Mirzə Əli bəyin tikdirdiyi məscid də durur. Bunu da qeyd edim ki, Yuxarı Gövhər ağa məscidi ilə bizim malikanənin memarı Kərbəlayi Səfixan Qarabaği olub..."

İnanırıq ki, bundan sonra Şuşada keçiriləcək musiqili-nəğməli tədbirlərdə gənc dirijorun rəhbərlik etdiyi orkestrin səs-sədası Cıdır düzünü, İsa bulağını, Topxana meşəsini, qartallı dağları bürüyəcək. O günlər üçün Zəfər yolunuz daima açıq olsun, gənc sənət fədaisi...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İnsanın bacarmadığı iş yoxdur

...Onlar sadəcə, hərəkət məhdudiyyətlilərdir. Onların arasında o qədər istedadlı, qabiliyyətli, hətta dünya səviyyəsində tanınanları var ki.





Paralimpiyaçıların arasında dünya çempionları azdırmı? Bu mənada elə özləri də istəmirlər ki, onlara əlil kimi baxılsın. Ələbaxan da deyillər, hər birinin qəlbindəki Vətən sevgisi əvəzedilməz sərvətdir.

Ulu Öndər Heydər Əliyev də məhz buna görə vaxtilə demişdir: "İnsan çox şeyə qadirdir və o, nə qədər çətinliklərlə qarşılaşsa da, öz istedadını, biliyini, bacarığını cəmiyyətə təqdim etməli və öz ölkəsinə həsr etməlidir..."

Azərbaycan Prezidenti İlham Əliyevin "Mən çox istəyirəm ki, Azərbaycanda yaşayan bütün əlilliyi olan şəxslər cəmiyyətin həyatında da fəal rol oynasınlar" fikri dövlətin bu kateqoriyadan olan şəxslərlə bağlı apardığı sosial siyasətin ifadəsidir.

Onlara küçə və bazarlarda addımbaşına rast gəlinmir. Cəmiyyətdən bir qədər təcrid həyat tərzi keçirməyə məhkum olanlardan söhbət gedir. Dili qüsurluların söhbətləri sözsüz və səssiz olur. Bunu anlamaq, duymaq və cavab vermək isə asan deyil. Bir sözlə, onlar həm də çox istedadlı olurlar...

1996-cı ildə Şəkidə anadan olan Novruzlu Yusif Məmməd oğlunun da istedadı və əl qabiliyyəti onu digər bu kateqoriyadan olan həmyaşıdlarından fərqləndirir. 2017-ci ildə ƏƏSM Nazirliyinin Peşə Reablitasiya Mərkəzinin ağac üzərində oyma kursuna gələn Yusif Novruzlu burada sevdiyi peşəyə olan həvəsi, bacarığı sayəsində onun sirlərinə dərindən yiyələnib.

O, talassemiyalı olsa da, geniş təxəyyülü, səbri və səliqəsi nəticəsində mükəmməl sənət əsəri nümunələri yaratmağı bacarıb. Elə həmin il Yusif Ankarada Avropa könüllüsü kimi gənclərin beynəlxalq mübadilə proqramlarında yaxından iştirak edib. Digər ölkələrdən gəlmiş, əlilliyi olan gənclərə ağac üzərində oyma peşəsini öyrətməklə özünü həm tanıdıb, həm də sevdirib. Bu tanışlıq ona həm də maddi cəhətdən dəstək olub: həvəslə işlədiyi əl işlərinin fərdi satışı ilə də məşğuldur.

Yaratdığı sənət əsəri nümunələri arasında milli musiqi alətləri xüsusilə diqqəti cəlb edir. Onların arasında nələr yoxdur ki: saz, balaban, qara zurna, tütək, nağara, qaval...

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Gənc rəssamın uğurları

Bakıda, Gənclər Günü münasibətilə keçirilən sərginin iştirakçılarından biri də gənc rəssam Mətanət Novruzludur. Mətanət xanım bu sərgiyə "Gül", "Oğlan" və digər əsərləri ilə qatılıb.



Mətanət rəssamlığa orta məktəb illərindən böyük həvəs göstərib. Çəkdiyi rəsmləri həmyaşıdları və valideynləri heyranlıqla qarşılayıb. Bakının Əhmədli qəsəbəsindəki 269 nömrəli orta məktəbin 4-cü sinfində oxuyarkən müəllimlərinin tövsiyəsi ilə valideynləri "balaca rəssamı" H.Z.Tağıyev adına kombinatın nəzdindəki rəssamlıq kursuna yazdırırlar. Mətanət burada dərslərini yaxşı oxumaqla, marağında olduğu peşənin çətinliklərinə həvəslə qatlanır. 4 il rəssamlığın ən incə sirlərini öyrənərək yaşıdlarından fərqli qabiliyyəti və duyumu sayəsində diqqətçəkən irəliləyişlər əldə edə bilir, kursu fərqlənmə diplomu ilə bitirir.

2010-cu ildə Respublika Milli Tarix muzeyində keçirilən sərgidə 11 yaşlı Mətanət Novruzlunun əl işləri münsiflər heyəti tərəfindən Fəxri fərmana layiq görülür.

Gənc rəssam bu illərdə milli bayramlarda və tarixi günlərdə paytaxtın müxtəlif ünvanlarında keçirilən rəsm sərgilərində fəallıqla iştirak edib. Onun hər il mayın 11-də keçirilən Gül bayramlarında iştirakı respublikanın Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qiymətləndirilir. Gənc rəssam 2012-ci il mayın 11-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibəti ilə təsviri və tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi-seminarda iştirakına görə Fəxri fərmanla mükafatlandırılır.

2013-cu ildə ailə Rusiyanın Krasnodar şəhərinə köçür. O, burada Memarlıq texnikumuna daxil olur. Bu illəri, Mətanətin özünün etirafına görə, rəssamlıq yaradıcılığında dönüş mərhələsi hesab etmək olar. Dediyinə görə, texnikumda çox ciddi və yüksək səviyyədə rəsm çəkmək qabiliyyəti tələb olunurdu: "Bu tələb məni ürəkdən sevdiyim rəssamlıq sənətinə daha möhkəm tellərlə bağladı. Bakıya qayıtdıqdan sonra davamlı olaraq rəsm çəkməklə məşğul oldum. Əsərlərim Yutubda izlənildikcə qürurlanırdım. Tanımadığım insanlardan gələn rəylər məni çox sevindirirdi. Bu ovqatla rəssam Araz Şahvələdovdan dərs aldım. Bu istiqamətdə elmi-nəzəri biliyimi artırmaq və sənətin dərinliklərinə baş vurmaq üçün Xəzər Universitetinin Dizayner fakültəsinə daxil oldum".

Mətanət Novruzlu tələbəlik illərində də rəsm yaradıcılığı ilə ciddi məşğul olaraq internet vasitəsilə dünyanın bir çox ölkələrində tamaşaçı rəğbəti qazanır. İnstaqram səhifəsində xarici ölkələrdən sifarişlər gəlməyə başlayır. Bu sıradan o, ilk dəfə 2020-ci ildə Almanyadan ödənişli portret sifariş almışdır.

2 Fevral Gənclər Günü münasibətilə keçirilən rəsm əsərləri sərgisinin həmmüəlliflərindən olan 23 yaşlı gənc rəssam bildirdi ki, gələcəkdə böyük layihələrə imza atmaq fikrindədir: "Azərbaycanın bütün bölgələrində, dünyanın bir çox ölkələrində mənzillərin divarlarında rəsmlərimin asılmağı mənə qürur hissi yaşadır".

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Tarixin acı gerçəkliyi

## Azərbaycan torpaqları ötən əsrdə Ermənistana hissə-hissə pay verilib

Cənubi Qafqaz dövlətləri 1920-1921-ci illər ərzində Sovet Rusiyası tərəfindən işğal olundu və burada sovet hakimiyyəti qurulduqdan sonra respublikalar arasında 1918-1920-ci illərdə müvəqqəti olaraq sərhədlər müəyyənləşdirildi. Dövlətlər arasındakı əraziyə sərhəd xətti kimi deyil, əksinə, yaradılması nəzərdə tutulan SSRİ dövlətinin gələcək ərazi-inzibati bölgü sisteminin tərkib hissəsi kimi baxılırdı.

Tarixi faktlar təsdiq edir ki, 1918-ci ilin fevralında yaradılmış Cənubi Qafqaz Seyminin ümumi ərazisi 210.000 kvadratkilometrə bərabər olub. Bu ərazinin 45.000 kvadratkilometri Brest-Litovsk (mart 1918-ci il) və Batum (iyun 1918-ci il) müqavilələrinin şərtlərinə görə Osmanlı Türkiyəsinə verilib, AXC MŞ-nın 29 may 1918-ci il tarixli qərarı ilə İrəvan şəhəri daxil olmaqla 9 min kvadratkilometr ərazi ermənilərə güzəşt edilib, 100,6 min kvadratkilometri Azəbaycan Xalq Cümhuriyyətinə, 55,4 min kvadratkilometri isə Gürcüstana aid edilib.

Ümumilikdə isə, Azərbaycan torpaqları mərhələlərlə 1918-ci il mayın 28-dən başlayaraq, xüsusilə 1920-1929-cu illərdə "Ermənistan SSR tərkibinə verilib".




### Sərhəd bölgüsü və yeni inzibati-ərazi dəyişiklikləri

1922-ci ildə Cənubi Qafqaz (Zaqafqaziya) Sovet Federativ Sosialist Respublikası yarandıqdan sonra bu ərazidə yeni inzibati-ərazi dəyişiklikləri başlanıldı ki, bu da ilk növbədə, burada mövcud olan inzibati-ərazi bölgüsünün yeni siyasi və iqtisadi tələblərə uyğun gəlməməsi ilə əlaqədar idi.

Buna görə də Sovet Rusiyası Cənubi Qafqaz regionunda Bakı neft rayonunu tam şəkildə özünə tabe etmək şərtilə burada mürəkkəb iqtisadi rayonlar yaratmaq, respublikaların iqtisadi imkanlarını süni şəkildə bərabərləşdirmək məqsədi daşıyırdı.

Eyni zamanda, inzibati-ərazi bölgüsünün aşağıdakı prinsipləri tanınırdı:

Əsas sənaye sahələrinin təmərküzləşdirilməsi, milli mədəniyyətlərin maksimum səviyyədə yaxınlaşdırılmasına nail olmaqla gələcək vahid sovet mədəniyyətinin özülünü qoymaq, əhalinin sənaye məntəqələrinə yaxın ərazilərdə yerləşdirilməsinin təmin edilməsi, rabitə xətlərinin istiqamətlərinin və xarakterinin müəyyən edilməsi, əhalinin sayı və milli tərkibi.

Göründüyü kimi, Moskva tərəfindən Cənubi Qafqazda həyata keçirilən sərhəd bölgüsü siyasətində birinci yerdə Sovet Rusiyasının iqtisadi maraqları, sonuncu yerdə isə bu regionun əhalisinin milli maraqları dayanırdı.

Vəziyyətin absurdluğu ondan ibarət idi ki, həyata keçirilən siyasətdə milli maraqların üstünlüyü və dövlətin Cənubi Qafqaz xalqlarının iqtisadi rifahından "narahat olması" ideyası ictimai şüura məqsədyönlü şəkildə təbiğ edilirdi.

1921-ci il avqustun 15-də RKP (b) MK-nın Qafqaz Bürosu Cənubi Qafqaz Sovet Respublikaları arasında sərhədlər məsələsini dinləyərək, bu respublikaların Xalq Komissarları Soveti sədrlərinə və Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR İnqilab komitələri sədrlərinə üç respublika arasında sərhədləri müəyyən edən müqavilə imzalayacaqları barədə müraciət etdi. Lakin gələcəkdə belə bir ümumi müqavilə imzalanmadı.

1922-ci il avqustun 22-də Cənubi Qafqaz Fövqəladə Komissiyasının sədrinin imzası ilə Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR Fövqəladə komissiyalarına həmin andan 24 saat ərzində sərhəd məntəqələrinin, gözətçilərin və nəzarət məntəqələrinin ləğv edilməsi haqqında sərəncam verildi.

Sərəncamda qeyd olunduğu kimi, artıq xarici sərhədlər Türkiyə və İranın sərhədləri sayılırdı. Bu sərəncamla Cənubi Qafqazın üç respublikası arasındakı 1918-1920-ci illərdə yaranmış sərhədlər faktiki olaraq dövlət əhəmiyyətini itirdi.

1921-ci ilin iyununda RKP (b) Qafqaz Bürosunun Plenumu Cənubi Qafqaz respublikalarında maldarlıqla məşğul olan əhalinin otlaqlara sərbəst çıxışı haqqında qərar qəbul etdi. Nəticədə Cənubi Qafqazın üç respublikasının maldarlıqla məşğul olan kəndliləri qərarla müəyyən edilən sərhəd hüdudları daxilində sərbəst hərəkət etmək hüququ əldə etdilər.

Əslində bu qərarın qəbulu bir sira anlaşılmazlıqların yaranmasına və üç Cənubi Qafqaz respublikasının sərhəd ərazilərində yaşayan azərbaycanlı və erməni əhalisi arasında qarşıdurmalara səbəb oldu. Bu mübahisələri həll etmək üçün 1922-ci ilin dekabrında N.Nərimanov, Myasnikov və S.Orconikidze başda olmaqla RKP (b) Cənubi Qafqaz MİK-nin xüsusi komissiyası yaradıldı.

1922-ci il oktyabrın 25-də Azərbaycan SSR Xalq Torpaq Komissarlığı Xarici İşlər üzrə Katibliyə Azərbaycan SSR-in ərazisi haqqında təqdim olunan arayışda deyilir ki, Azərbaycan SSR-in bütün ərazisi 7.989.105 desyatindir (metr sistemindən qabaq tətbiq edilən yer ölçü vahidi, 1 desyatin = 1,09 hektar).

Üç ölkənin arasında bas tutan razılığa əsasən Azərbaycan ərazilərindən keçmiş Qazax qəzasından Ermənistana 379.984 desyatin (4.151 kvadrat km), keçmiş Zəngəzur qəzasından Ermənistana 405.000 desyatin (4.424 kvadrat km) və keçmiş Tbilisi qəzasından Azərbaycana 79.600 desyatin (869 kvadrat km) ərazi verilir.

Beləliklə, 1922-ci ildə Azərbaycan 7.989.105 desyatin təşkil edən ərazisindən (379.984; 405.000) 784.984 desyatin itirir, əvəzində cəmi 79.600 desyatin əldə edir. Bu da ümumilikdə 7.283.721 desyatin (79,577 kvadrat km) təşkil edir.

### Mübahisəsiz ərazi və sovet rəhbərliyinin gizli niyyətləri

Azərbaycan SSR-in Ermənistan ilə mübahisəsiz ərazisi Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədlərindən keçib, sonra Qazax qəzasından Aleksandropol və Yeni Bəyazid qəzaları ilə Maralca dağlarına qədər gedirdi. Oradan Göyçə gölünə birbaşa enir, Çubuqlu kəndindən şərqə doğru təqribən bir, bir onda iki verst (Verst - keçmiş rus uzunluq ölçü vahididir. 1 verst = 1.0668 km) keçir. Sonra Göyçə gölünü tən yarıdan bölür, onun cənub sahili ilə qərb istiqamətində gedirdi. Göyçə gölünün cənub sahilində sərhəd Zağalı və Gödəkbulaq kəndləri arasından başlayır, sonra Yarnızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərinin yanından Göyçə gölünün cənub sahilinin dağ rayonu ilə Qızıl Xarabaya, 10859 yüksəkliyinə və Ağmahan yüksəkliyinə, qərbdə Kiçik Ağdağ dağına doğru, İrəvan və Yeni Bəyazid qəzalarının sərhədinə qədər gedir, azərbaycanlıların yaşadıqları dağlıq rayonları erməni kəndlərinin tutduğu sahillərdən ayırırdı.

Sonra sərhəd Kiçik Ağdağ dağından əvvəlcə şimal-qərb istiqamətinə doğru Toğmahan gölü istiqamətində, ardınca qərb istiqamətində Təzəkənd kəndinə, daha sonra Gərni çayı ilə Yuxarı Ağbaş kəndinə doğru gedir, onun qarşısından şimala doğru 3620 yüksəkliyə beş verstlik qalxır, oradan cənub-qərbə Uluxanlıya doğru, daha sonra Araz çayına qədər, oradan da Rəncbər kəndindən şimala gedirdi. Rəncbər kəndindən Araz çayında sərhəd birbaşa qərbə doğru gedir, Sürməli və Eçmiadzin qəzalarının və Kars vilayətinin keçmiş inzibati sərhədlərində keçmiş rus-türk sərhədində Təndürək dağlarına qədər uzanırdı. Azərbaycan ərazilərinə dair arayışın hazırlanması ilə bağlı verilən tələblər sovet rəhbərliyinin gizli niyyətlərinin olduğundan xəbər verirdi.

### Hər dəfə erməni tərəfinin xeyrinə həll edilən sərhəd mübahisələri

Arxiv sənədləri göstərir ki, Azərbaycan SSR ilə Ermənistan SSR-in ayrı-ayrı rayonları arasında baş vermiş sərhəd mübahisələri əksər hallarda erməni tərəfinin xeyrinə həll edilmişdir. Bununla bağlı yalnız bir neçə faktı göstərmək olar.

Ermənistan SSR Dilican qəzasının Qulp kəndi ilə Azərbaycan SSR Qazax qəzasının II Şıxlı kəndi arasında mübahisəli ərazisi 940 hektar olan Çömçə sahəsi Qulp kəndinə verilib.

Ermənistan SSR-in Dilican qəzasının Kotkənd kəndi ilə Azərbaycan SSR Qazax qəzasının Daşsalahlı kəndi arasında mübahisəli ərazisi 700 hektar olan Qaraçöl ərazisi Ermənistan SSR-in Kökənd kəndinə verilib.

Ermənistan SSR Dilican qəzasının Lələkənd kəndi ilə MSSR Qazax qəzasının Çaxmalı kəndi arasında mübahisəli sahəsi 69 hektar olan torpaq sahəsi Azərbaycan SSR-in Lələkənd kəndinin arxasında qalıb. Cənubi Qafqaz MİK-nin Torpaq Komissiyasının xüsusi yerli komissiyasının 8 noyabr 1924-cü il tarixli qərarı ilə Ermənistan SSR Dilican qəzasının Noraşen, Moseskənd və Aşağı Qızılbulaq kəndləri ilə Azərbaycan SSR-in Qazax qəzasının Qacalı və Əlibəyli kəndləri arasında mübahisəli olan 753 desyatin (8,2 $km^2$) ərazisi olan "Günəş" ərazisi iki hissəyə bölünüb.

Azərbaycan SSR-in Qazax qəzasının Şınıx-Ayrım ərazisindəki 4000 desyatinlik (43,7 $km^2$) torpaq sahəsi Ermənistan SSR-in Dilican qəzasının tərkibinə verilib.

Bundan əlavə, Qazax qəzasının Soflu, Bərxudarlı və Yuxarı Əskipara kəndlərinin ümumi sahəsi 3104 desyatin, sayı 577 nəfər sakinin Dilican qəzası daxilində qalması məsələsi də mübahisə doğururdu. Qazax qəzasının (Gəncə dairəsi) inzibati sərhədlərinə daxil olan bu kəndlərin ondan zolaqlı bir xətlə ayrıldığı məlum oldu. Cənubi Qafqaz MİK-nın yerli komissiyasının 1929-cu il iyulun 19-20-də keçirilən iclasında qərara alındı ki, zolaqlı xəttin aradan qaldırılmasının yeganə mümkün və məqsədəuyğun həll forması hər üç kəndin Dilican qəzasının tərkibinə verilməsinə baxılmasıdır. MİK-nın eyni sərəncamı ilə Dilican qəzasının Güney-Xeyrimli (100 ev) kəndi əhalisi (26 ev) kiçik sayda olan Qazax qəzasının Xeyrimli kəndilə birləşdirildi və Ermənistan SSR Dilican qəzasının tərkibinə verildi. Bununla da Qazax qəzasının əhalisi 50 faiz yaylaq torpaqlarından məhrum edildi.

Ümumiyyətlə, Azərbaycan SSR-in Cənubi Qafqaz Federasiyasının qonşu respublikaları ilə sərhəd mübahisələri üzrə 1928-ci il MİK Torpaq Komissiyasının hesabatından da göründüyü kimi, Ermənistan SSR-ə 75904 desyatin (829,2 kvadratkilometr) münbit torpaq və 79208 desyatin (865,3 kvadratkilometr) isə "yararsız" torpaq verilib.

1921-ci ilin iyulunda Zəngəzurun Qərb hissəsinin işğalı və Ermənistan SSR-ə birləşdirilməsi, Qarabağın dağlıq hissəsində süni erməni muxtariyyətinin sərhədlərini müəyyən etmək məqsədilə burada aparılan inzibati dəyişikliklər, Azərbaycan SSR-lə Ermənistan SSR arasında sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı Ermənistan SSR-in Zəngəzur qəzası ilə Azərbaycan SSR-in Qarabağ bölgəsinin ayrı-ayrı rayonları arasında yaranmış durum vəziyyəti daha da gərginləşdirdi.

Arxiv materiallarının təhlilindən göründüyü kimi, bu ərazi mübahisələri birmənalı olaraq Azərbaycanın xeyrinə həll edilməmişdir. Şuşa qəzasının torpaq idarəsinin rəisi Roqozinin 26 iyul 1923-cü il tarixli hesabatına əsasən, Zəngəzur və Şuşa qəzalarının maldarları arasında sərhəd mübahisəsi həll edilərkən 20 yaylaq sahəsi tərəflər arasında silahlı toqquşma baş verməməsi üçün Zəngəzur qəzasına verilmişdir.

Ermənistan SSR-in Dərələyəz və Novo-Bayazit qəzaları ilə Azərbaycan SSR-in Kürdüstan qəzasının sərhədində, təxminən 12 min desyatin (131,1 $km^2$) ərazisi olan Alagöl gölünün ətrafında yerləşən Alagöl və ya Alagöllər yay otlaqları da Ermənistanın Azəbaycan SSR-ə qarşı ərazi iddialarına daxil idi. Ermənistan SSR rəhbərliyi 1923-cü ildə bu ərazilərin Novo-Bayazit qəzasının tərkibinə daxil edilməsi məsələsini qaldırmışdı. Belə ki, Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsi 1926-cı il iyunun 23-də Azərbaycan SSR MSK sədrinə göndərdiyi teleqramda bildirirdi ki, hələ 1921-ci ildə sahəsi 13170 desyatin (143,8 $km^2$) olan Alagöllər otlaq sahəsi Dərələyəz qəzasına verilmişdir. Buna cavab olaraq, Azərbaycan SSR MİK Rəyasət Heyətinin katibliyi 1926-cı il iyulun 5-də Ermənistan SSR MİK-in katibliyindən xahiş etdi ki, Alagöllər sahəsinin otlaqlarının Dərələyəz qəzası tərkibinə verilməsi haqqında Cənubi Qafqaz MİK qərarının nə vaxt qəbul edildiyi barədə qərarı təqdim etsin. Oxşar sorğu 1926-cı il dekabrın 25-də Azərbaycan SSR MİK-nın katibliyi tərəfindən təkrar edilmiş, lakin Ermənistan SSR MİK katibliyindən heç bir cavab alınmamışdı.

### Azərbaycan torpaqlarının ermənilərə güzəştə gedilməsinin və Ermənistan SSR tərkibinə verilməsinin xronologiyası:

| | Tarix | Qərarı qəbul edən orqan və sənəd | Verilən ərazilər |
|---|---|---|---|
| 1. | 29.05.1918 | AXC MMŞ-nın tarixli qərarı ilə (protokol №3) | **İrəvan** şəhəri daxil olmaqla ümumi sahəsi **9 min km² olan ərazi ermənilərə güzəştə gedilmişdir.** |
| 2. | 25.10.1922 | Azərbaycan SSR **Xalq Kənd Təsərrüfatı Komissarlığının** respublika Xalq Xarici İşlər Komissarlığının katibliyi üçün hazırladığı **arayışda** deyilir: | "**Azərbaycan SSR-in bütün ərazisi** 7.989.105 desyatin – yəni **87.284,1 km² olmuşdur**.<br>Göstərilən ümumi sahədən:<br>a. **Qazax qəzasından Ermənistan SSR tərkibinə** 379.984 desyatin–yəni **4.151,4 km²;**<br>b. **keçmiş Zəngəzur qəzasından Ermənistan SSR tərkibinə** 405.000 desyatin-**4424,7 km² ərazi verilmişdir** |
| 3. | 27.10.1924<br>30.10.1924 | Cənubi Qafqaz MİK-nın xüsusi yerli<br>Torpaq Komissiyasının qərarı (protokol No 19) | **Ermənistan** SSR-in **Dilican** qəzasının **Baranı kəndi** ilə **Azərbaycan** SSR **Qazax** qəzasının **Qaymaqlı kəndi arasında mübahisəli ərazisi** 1002 desyatin (**10,9 km²**) **olan Acı ərazisi Torpaq Komissiyasının qərarı ilə bölünmüşdü.**<br>1924-cü il oktyabrın 31-də onun 612 desyatin – yəni **6,7 km² ərazisi olan şimal-şərq hissəsi Azərbaycan** SSR-in **Qaymaqlı kəndinə, cənub-qərb hissəsi** isə 390 desyatin-yəni **4,2 km²-i Ermənistan** SSR **Dilican** qəzasının **Baranı kəndinə verilmişdir.** |
| 4. | 08.11.1924 | Cənubi Qafqaz MİK-nin Torpaq Komissiyasının xüsusi yerli komissiyasının 8 noyabr 1924-cü il tarixli qərarı ilə | **Ermənistan** SSR **Dilican** qəzasının **Noraşen, Moseskənd** və **Aşağı Qızılbulaq kəndləri ilə Azərbaycan** SSR-in **Qazax** qəzasının **Qacalı** və **Əlibəyli kəndləri arasında mübahisəli olan** 753 desyatin–yəni **8,2 km² ərazisi olan "Günəş" ərazisi iki hissəyə bölünmüş,**<br>Cənubi Qafqaz MİK Torpaq Komissiyasının 1925-ci il qərarı ilə həmin ərazinin 186,5 desyatin–yəni **2,03 km²** olan hissəsi **Azərbaycan** SSR **Qazax** qəzasının **Qacalı və Əlibəyli kəndlərinə,** qalan hissəsi - 566,5 desyatin-yəni **6,1 km² sahəsi isə Ermənistan** SSR **Dilican** qəzasının **Noraşen və Moseskənd kəndlərinin ərazisinə verilmiş** və<br>Cənubi Qafqaz MİK-nın 18 fevral 1929-cu il tarixli qərarı ilə **təsdiq edilmişdir**. |
| | 1925 | Cənubi Qafqaz MİK Torpaq Komissiyasının 1925-ci il qərarı | |
| | 18.02.1929 | Cənubi Qafqaz MİK-nın 18 fevral 1929-cu il tarixli qərarı | |
| 5. | 1925-ci ilin sentyabrı | Ermənistan SSR və Azərbaycan SSR nümayəndələrinin iştirakı ilə Ermənistan SSR hökumətinin təkliflərini əks etdirən Qazax qəzasının **Şınıx-Ayrım bölgəsinin tədqiqi məsələsinin Cənubi Qafqaz Komissiyasında muzakirə olunması**nı təklif edilir və əldə olunan razılıq əsasında **müqavilə imzalanır**. | Bu müqaviləyə görə **Azərbaycan** SSR-in **Qazax** qəzasının **Şınıx-Ayrım ərazisindəki** 4000 desyatinlik–yəni **43,7 km²** torpaq sahəsi **Ermənistan** SSR-in **Dilican** qəzasının **tərkibinə verilmişdir**.<br>**Başkənd erməni kəndi** 3485 desyatin–yəni **38 km² ərazi "kompensasiya" kimi Azəbaycan SSR tərkibinə verilmişdir.**<br>Həmin müqavilə Cənubi Qafqaz MİK-nın 18 fevral 1929-cu il tarixli qərarı ilə təsdiq edilmişdir. |
| | 18.02.1929 | Həmin müqavilə Cənubi Qafqaz MİK-nın 18 fevral 1929-cu il tarixli qərarı ilə təsdiq edilmişdir. | |
| 6. | 1928-ci il | 1928-ci il Cənubi Qafqaz MİK Torpaq Komissiyasının hesabatı | Cənubi Qafqaz MİK Torpaq Komissiyasının hesabatında göstərilir ki, **Azərbaycan** SSR **ərazisindən Ermənistan SSR-ə** 75904 desyatin yəni-**829,2 km² münbit torpaq verilmişdir**. |
| 7. | 18.02.1929 | Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il qərarı | Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il qərarı ilə<br>**Azərbaycan** SSR-in<br>✓ **Cəbrayıl** qəzasının **Nüvədi, Eynəzir və Tuqut** kəndləri, habelə<br>✓ **Ordubad sahəsinin Qərçivan** və **Kilid** kəndinin torpaqlarının **bir hissəsi**<br>**Ermənistan** SSR-in **Meğri** qəzasının inzibati **idarəçiliyinə verilmişdir**.<br>Bu ərazinin ümumi sahəsi **664 km²-dir.** |
| 8. | 05.03.1938 | Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 1938-ci il 5 mart tarixli qərarı | Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 1938-ci il 5 mart tarixli qərarı ilə<br>✓ **Naxcıvan** MSSR-nin **Sədərək** və<br>✓ **Kərki** kəndlərinin, o cümlədən<br>✓ **Şərur qəzasının kəndləri ətrafındakı torpaqların bir hissəsi** də **Sovet Ermənistanına verilmişdir.** |
| | 01.01.1933 | | Nəticədə, 1 yanvar 1933-ci ildən **Naxçıvan** Muxtar Sovet Sosialist Respublikasının ərazisində ümumi sahəsi **5329,6 km² təşkil etdi.** |
| 9. | 1946 | | 1946-cı ildə<br>✓ **Qazax** rayonu ərazisindən **40 kv. km. meşə sahəsi,**<br>✓ **Tovuz** rayonu ərazisindən isə **7,6 kv. km.** Torpaq **Ermənistan SSR tərkibinə verilmişdir.**<br>**Ermənistan** SSR tərkibinə **verilən** kənd ərazilərinin ümumi sahəsi **658,4 km²** olmuşdur. |
| | 1945-1987 | Ermənistan SSR rəhbərliyi tərəfindən 1945-ci ilin noyabrında, 1956, 1962, 1967, 1972, 1977, 1987-ci illədə Azərbaycan SSR-in **Qarabağ regionunun dağlıq hissəsində ermənilər yaşayan ərazilərin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi SSRİ dövləti rəhbərliyi qarşısında qaldırılmış** və Azərbacan SSR rəhbərləri M.C.Bağırov, İ.D.Mustafayev, V.Y.Axundov və H.Ə.Əliyevin həyata keçirdikləri təsirli tədbirlər, göstərdikləri səylər nəticəsində rədd edilmişdir. | |

### Moskva və Qars müqaviləsinin kobud şəkildə pozulması

Tarixi faktlar təsdiq edir ki, Naxçıvan Muxtar Respublikasının bir neçə kəndi də Ermənistan SSR-in tərkibinə verilib. Belə ki, Ermənistan SSR Qars müqaviləsinə əsasən Azərbaycan SSR tərkibində Naxçıvanın muxtariyyətini rəsmən tanısa da, gələcəkdə onu özünə birləşdirmək niyyətindən əl çəkməyib və bir müddət sonra Ermənistan Naxçıvan MSSR torpaqlarının bir hissəsinin öz ərazisinə birləşdirilməsinə nail olub.

Cənubi Qafqaz MİK-nın 1929-cu il 18 fevral tarixli qərarı ilə Naxçıvan MSSR-in Qurdqulaq, Horadiz, Xaçık, Ağbın, Ağaç, Almalı, Dağalmalı, İtqıran, Sultanbəy kəndləri, ona bitişik suayrıcı silsiləsi və Qərçivan kəndinə qədər olan otlaqlar, habelə Ordubad sahəsinin Qərçivan və Kilid kəndinin torpaqlarının bir hissəsi, Cənubi Qafqaz MİK-nın 1938-ci il 5 mart tarixli qərarı ilə isə Sədərək və Kərki kəndlərinin, o cümlədən Şərur qəzasının kəndləri ətrafındakı torpaqların bir hissəsi Sovet Ermənistanına verilib. Ermənistan SSR tərkibinə verilən kənd ərazilərinin ümumi sahəsi 658,4 km olub. Nəticədə 1 yanvar 1933-cü ildən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ərazisinin ümumi sahəsi 5.329,6 km təşkil edib.

Bütün bu addımlar Naxçıvan MSSR-in statusu və sərhədləri haqqında Moskva və Qars müqavilələrinin şərtlərinin kobud şəkildə pozulması idi. Belə ki, Cənubi Qafqaz FSR tərkibinə daxil edildikdən sonra Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədləri çərçivəsində reallaşan ərazi-inzibati dəyişikliklər Azərbaycan əhalisinin iqtisadi həyatının tarixən formalaşmış təbii sərhədləri və şərtləri nəzərə alınmadan pozuldu və SSRİ dovlətinin birbaşa müdaxiləsi Azərbaycan torpaqlarının parçalanması hesabına Ermənistan SSR-in sərhədlərinin genişləndirilməsini təmin etməyə yönəldi.

Tarixin bütün dövrlərində Azərbaycana qarşı əsassız iddiaların yerinə yetirilməsi erməni dairələrini daha da şirnikləşdirdi və fəaliyyətlərini genişləndirməyə rəvac verdi. Bu, həm də ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyalarının gerçəkləşməsi üçün real imkanlar yaradırdı.

Ermənistan SSR rəhbərliyi tərəfindən 1945-ci ilin noyabrında, 1956, 1962, 1967, 1972, 1977 və 1987-ci illədə də Azəbaycan SSR-in Qarabağ regionunun dağlıq hissəsində ermənilər yaşayan ərazilərin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi SSRİ dövləti rəhbərliyi qarşısında qaldırılıb və Azərbaycan SSR rəhbərləri M.C.Bağırov, İ.D.Mustafayev, V.Y.Axundov və Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən təsirli tədbirlər, göstərilən səylər nəticəsində təkliflər rədd edilib.

### Zəngəzur, Göyçə mahalı tarixi Azərbaycan torpaqları sahiblərinə qaytarıla bilər

Bu arayış hazırlanarkən dövlət arxiv sənədlərindən və mövcud problemlə bağlı nəşr edilmiş elmi ədəbiyyat materiallarından istifadə olunub. Məlum olduğu kimi, tarixi tədqiqatlar yalnız yaxın və ya uzaq keçmişdə nələrin olduğunu təsbit etmək üçün deyil, həm də baş vermiş hadisə və proseslərin səbəb-nəticə bağlılığını açmaq, özündən sonrakı tarixə necə təsir etdiyini öyrənmək və ibrət almaq üçün aparılır. Ona görə də təqdim edilən bu araşdırma zamanı bir sıra suallara cavab verməyə səylər edilmişdir.

Qeyd edilən bütün tarixi faktlar əsl reallığı əks etdirir. Özlərini "məzlum xalq" kimi göstərərək dövlət yaratmaq istəyən ermənilər XVIII əsrdən üzü bəri çar Rusiyasına və digər dövlətlərə arxalanaraq tarixi Azərbaycan torpaqlarını hissə-hissə işğal ediblər. Dövlətçilik tariximizdə xüsusi yeri olan, bugünkü müstəqil Azərbaycanın siyasi və hüquqi varisi olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Azərbaycan torpaqlarının Ermənistana verilməsi ilə bağlı qərar isə torpaqlarımızın itirilməsi baxımından acı tarixdir.

Bu gün isə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan ədaləti bərpa etmək gücünə sahibdir. 44 günlük Vətən müharibəsindən sonra yaranan yeni reallıqlar da bunu deməyə əsas verir.

Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, Zəngəzur, Göyçə mahalı tarixi Azərbaycan torpaqlarıdır. Bu gün ermənilərin yaşadığı İrəvan şəhəri də Azərbaycana məxsus olub. Vətən müharibəsindən sonra Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar, reallaşdırılan layihələr onu deməyə əsas verir ki, tezliklə Zəngəzur da Şuşa, Laçın, Kəlbəcər, Ağdam kimi işğaldan azad edilərək öz sahibinə qovuşacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Fransanın media qurumu ERE TV-nin nümayəndələri Ağdama səfər ediblər








Fransanın media qurumu ERE TV-nin nümayəndələri Ağdama səfər ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin Qarabağ İqtisadi Rayonunun işğaldan azad edilmiş hissəsi üzrə Xüsusi Nümayəndəliyinin rəsmi tviter səhifəsində paylaşım edilib. Səfər zamanı qonaqlara dağıdılmış abidələr göstərilib və şəhərin yenidənqurma planı haqqında məlumat verilib.

Qeyd edək ki, ERE TV-nin nümayəndələri ötən gün Füzuliyə səfər ediblər. Səfər zamanı qonaqlar Füzulinin dağıdılmış hissələri, eyni zamanda, işğaldan azad olunduqdan sonra həyata keçirilən yenidənqurma və bərpa işləri ilə də tanış olublar.

# Koronavirusun mutasiyalarından asılı olmayaraq müalicə metodları eynidir

Son günlər rəsmi səhiyyə qurumlarına bəzi özəl laboratoriyalarda COVID-19 testi üçün müraciət edən vətəndaşlara iki test götürülməsi təklif olunması barədə məlumatlar daxil olur.

Özəl laboratoriya əməkdaşları 1-ci testin vətəndaşın COVID-19 infeksiyasına yoluxub-yoluxmamasını, 2-ci testin isə aşkarlanan virusun SARS-CoV-2 21K "omikron" variantı olub-olmamasını müəyyənləşdirmək üçün vacib olduğunu bildirirlər. Nəticədə müraciət edən şəxs əlavə test müayinəsinin ödənişini etməli olur.

Qeyd edək ki, koronavirusun mutasiyalarından asılı olmayaraq müalicə metodları eynidir. Təklif edilən ikinci test təyin olunacaq müalicə üçün heç bir diaqnostik və kliniki əhəmiyyət daşımır.

AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB birgə məlumat yayıblar.

Məlumatda bildirilir ki, yeni ştamın simptomları çox vaxt kəskin respirator infeksiya əlamətlərinə bənzəyir və əsasən yuxarı tənəffüs yollarına təsir edir. Simptomları hiss etdikdə ilk növbədə ərazi üzrə poliklinikaya, ailə həkiminə (sahə həkimi-pediatrı, sahə həkimi-terapevti) müraciət edilməlidir.

Aparılan tədqiqatların nəticələri bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarının yarada biləcəyi ağırlaşma hallarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Bu səbəbdən səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 5 ay sonra ("buster") doza ilə peyvəndləməyə çağırır.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən peyvəndin 2-ci dozasının üzərindən 6 aydan çox keçmiş şəxslərin "Peyvənd sertifikatı" fevralın 15-dən etibarlı hesab edilməyəcək.

# Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adı və Prezident təqaüdünün təyinatına başlanıldı

Prezident İlham Əliyevin 2021-ci il 29 dekabr tarixli sərəncamının icrası olaraq Vətən müharibəsinin iştirakçılarına "Müharibə veteranı" adı və Prezidentin aylıq təqaüdünün təyinatına başlanılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ilkin olaraq Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında həmin qurumların 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş hərbi qulluqçularına "Müharibə veteranı" adı verilib.

DSX üzrə iştirakçılar barədə məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Zəfər" altsisteminə daxil edilib.

Nazirlik tərəfindən isə altsistemə barələrində məlumat daxil edilmiş həmin hərbi qulluqçulara 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib.

Təqaüdlərin təyinatı hərbi qulluqçuların müraciəti olmadan, heç bir sənəd təqdim edilmədən, e-sistem üzərindən proaktiv qaydada aparılır. Təyin edildiyi tarixdən asılı olmayaraq təyinat tarixi 2022-ci il yanvarın 1-dən rəsmiləşdirilərək ödənilir.

Hazırda digər qurumlar (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və s.) üzrə də qeyd olunan adın verilməsi və təqaüd təyinatının aparılması üçün aidiyyəti işlər aparılır.

Vətən müharibəsinin bütün iştirakçılarına "Müharibə veteranı" adının verilməsi və Prezidentin aylıq təqaüdünün təyinatı prosesi yaxın günlərdə tam yekunlaşacaq.

Müharibə veteranı kimi Prezidentin aylıq təqaüdü təyin edildiyi andan şəxsin adında olan telefon nömrəsinə bu barədə, habelə təqaüd kartını hansı bankdan əldə edəcəyinə dair SMS göndəriləcək.

# Bu il ərzində Şuşada yerli və beynəlxalq tədbirlərin təşkili, yeni filmlərin çəkilişi planlaşdırılır

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2022-ci il ölkəmizdə "Şuşa ili" elan olunub. Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa ili" ilə bağlı "Tədbirlər planı" hazırlanır. Azərbaycanın Mədəniyyət paytaxtı Şuşada mədəniyyətin dirçəlməsi istiqamətində aparılan işlər çərçivəsində tarixi abidələrin, muzey və kitabxanaların, mədəniyyət müəssisələrinin bərpası nəzərdə tutulur.

Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə deyib.

Onun sözlərinə görə, bu il ərzində Şuşada yerli və beynəlxalq tədbirlərin, konsert və festivalların, mediaturların təşkili, yeni filmlərin çəkilişi planlaşdırılır. Şuşanın mədəni adət-ənənələrinin dirçəlməsi istiqamətində "Xarıbülbül", Vaqif Poeziya Günləri, Üzeyir bəy Hacıbəyli Musiqi Festivalı kimi ənənəvi mədəni tədbirlərlə yanaşı, bu il Xan qızı Xurşidbanu Natəvanın 190 illiyi ilə bağlı Şuşada ədəbiyyat festivalının keçirilməsi də nəzərdə tutulur.

Məryəm Qafarzadə deyib: "Mədəniyyət Nazirliyi tərəfindən qədim şəhərimizin zəngin mədəni irsini tanıtmaq məqsədilə "Şuşa mədəniyyətinin inciləri" adlı layihəyə də start verilib. Layihə yeddi istiqamətdən ibarətdir: "Şuşanın memarlıq salnaməsi", "Azərbaycan musiqisinin məbədi - Şuşa", "Muğam ocağı - Şuşa", "Qarabağ xalçaçılıq məktəbi - Şuşa", "Şuşanın ədəbi həyatı", "Şuşanın simaları", "Şuşa milli geyim üslubu". Layihənin əsas məqsədi qədim tarixə malik olan Şuşa şəhərinin zəngin mədəniyyətinin daha geniş təbliğatını həyata keçirməkdir".

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 5223 yoluxma faktı qeydə alınıb




Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 5223 yoluxma faktı qeydə alınıb, 2319 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 21 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 663 min 693 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 627 min 342 nəfər müalicə olunaraq sağalıb, 8755 nəfər vəfat edib. Aktiv xəstə sayı 27 min 596 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 15 min 945, dünənə qədər isə ümumilikdə 6 milyon 172 min 333 test icra olunub.

# Dünən Azərbaycanda "buster" doza ilə peyvənd olunanların sayı 33 min 634 nəfər təşkil edib

Fevralın 1-də Azərbaycanda 38 min 362 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksin olunanların sayı 3308, ikinci doza üzrə 1420, "buster" doza ilə peyvənd olunanların sayı isə 33 min 634 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 12 milyon 39 min 129, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 233 min 696, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 743 min 594 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 2 milyon 61 min 839 nəfər təşkil edir.




# Şəhid baş leytenant Fuad Bağırov Şirvan şəhərində dəfn olunub



Baş leytenant Fuad Bağırovun nəşi bu gün günorta saatlarında Şirvan şəhərinə gətirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhidin nəşi izdihamla qarşılanıb və onun doğulub boya-başa çatdığı evdə vida mərasimi keçirilib.

Sonra şəhidin nəşi dəfn üçün Şəhidlər xiyabanına gətirilib. Yaylım atəşi altında şəhid Baş leytenant Fuad Bağırov torpağa tapşırılıb. Dəfn mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Müdafiə Nazirliyinin, yerli icra və hüquq-mühafizə orqanlarının əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, baş leytenant Fuad Bağırov qarlı hava şəraiti nəticəsində Kəlbəcər rayonunun Alagöllər ərazisində itkin düşmüşdü. Onun nəşi üç gün aparılan axtarışlardan sonra tapılıb.

Fuad Bağırov 1991-ci il noyabrın 3-də Şirvan şəhərində doğulub. 2009-2013-cü illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alıb və ordu sıralarında xidmət edib.

Ailəsi ilə birlikdə Gəncə şəhərində yaşayan Fuad Bağırovun bir oğlan və bir qız övladı yadigar qalıb.

# Vətən müharibəsi şəhidi Ülvi Hacıyevin xatirəsi anılıb





Dövlət Gömrük Komitəsinin Vətən müharibəsində şəhid olan əməkdaşı Ülvi Hacıyevin xatirəsinə həsr olunmuş "Ən yüksək rütbəli gömrükçü" anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikası gömrük orqanlarının yaradılmasının 30-cu ildönümü və gömrük əməkdaşlarının peşə bayramı günündə təşkil olunub.

Mərasimdə əvvəlcə Dövlət Himni səsləndirilib, sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Vətən müharibəsi şəhidinin şərəfli həyat yolu haqqında məlumat verilib. Bildirilib ki, Ülvi Hacıyev 2020-ci ilin iyul ayında Ermənistanın Tovuz rayonu istiqamətindəki təxribatdan sonra könüllü olaraq orduya yazılıb. Müharibənin ilk günlərindən cəbhəyə yollanan Ülvi Hacıyev Füzuli, Cəbrayıl, Xocavənd rayonları və Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 19-da Şuşa şəhərinin 10 kilometrliyində baş verən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Anım mərasimində Milli Məclisin deputatı Rəşad Mahmudov 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı parlaq Qələbədən danışıb. Qeyd olunub ki, şəhidlərimizin və qazilərimizin canı, qanı bahasına 30 ildir düşmən tapdağında olan torpaqlarımız azad olundu, dünyaya nəyə qadir olduğumuzu sübut etdik. O, şəhidlərimizin şərəfli həyat yolunun gələcək nəsillər tərəfindən davam etdiriləcəyini və azad edilən ərazilərimizin göz bəbəyi kimi qorunub saxlanılacağını diqqətə çatdırıb.

Dövlət Gömrük Komitəsinin əməkdaşları general-mayor Təmkin Xəlilov, Fərhad Babayev, Aydan Kərimova şəhid gömrük işçisi Ülvi Hacıyevin öz işini sevdiyini və nümunəvi işçi olduğunu qeyd ediblər. Bildirilib ki, hər kəsə nəsib olmayan şəhidlik məqamı bütün rütbə və zirvələrdən yüksəkdir. Müqəddəs amallar uğrunda həmin zirvəni fəth edənlərin ölmədiyi və əbədiyyət qazandığı diqqətə çatdırılıb. Çıxış edənlər dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan bəhs edib, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan addımlardan söhbət açıblar. Şəhidlərin əziz xatirəsinin qədirbilən xalqımız tərəfindən daim yaşadılacağı, onların şərəfli həyat və döyüş yolunun gələcək nəsillərə örnək olacağı qeyd edilib.

Sonra şəhidin atası Şirin Hacıyevə Dövlət Gömrük Komitəsinin 30 illiyi yubiley medalı təqdim edilib.

Xalq artisti Fidan Hacıyeva, Xalq şairi Vahid Əziz, şəhid pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin həyat yoldaşı Könül Hüseynova və başqaları çıxış edərək Azərbaycan Ordusunun 44 gün ərzində tarix yazdığını, alnımızdakı ləkənin şəhid və qazilərin canı, qanı bahasına təmizləndiyini vurğulayıblar. Çıxış edənlər 44 günün qəhrəmanlarının bir zamanlar yıxılan qürurumuzu dirçəltdiyini qeyd ediblər.

V.Əziz içərisində Ülvi Hacıyevə həsr olunan şeirin də yer aldığı kitabını şəhidin anası Həmidə Qurbanovaya təqdim edib.

Ülvi Hacıyevin döyüş yoluna dair videoçarx nümayiş olunub, silahdaşları onunla bağlı xatirələrini bölüşüblər.

Tədbirdə gömrük əməkdaşı, təşkilatçı rəsm qalereyasının həvəskar rəssamı Aydan Kərimovanın "Ən Yüksək Rütbəli Gömrükçü" adlı əsəri şəhidin ailəsinə hədiyyə olunub.

Sonda şəhidin anası Həmidə Qurbanova çıxış edərək gömrük əməkdaşlarının peşə bayramlarını təbrik edib, tədbiri təşkil edənlərə minnətdarlığını bildirib. "Ülvi cəbhəyə könüllü getdi, şəhid olmaq isə öz arzusu idi. Oğlum öz arzusuna çatdı. Mən onunla həmişə fəxr etmişəm. Şəhadəti ilə duyduğum fəxarət və qürur hissini dəfələrlə artırdı. Elə bir oğulu itirmək nə qədər çətin olsa da, mən daim başımı dik tutacağam", - deyə H.Qurbanova bildirib.

Mərasimdə, həmçinin bədii hissə nümayiş etdirilib, mahnı və şeirlər səsləndirilib.

# Yanvarda saxta sənədlərlə dövlət sərhədini keçməyə cəhd edən 32 nəfər saxlanılıb

Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd nəzarəti tərəfindən 2022-ci ilin yanvar ayı ərzində dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkili, qaçaqmalçılıq fəaliyyətləri, qanunsuz miqrasiya ilə mübarizə sahəsində fəaliyyət uğurla davam etdirilib.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 29 halda 32 nəfər saxta sənədlərlə dövlət sərhədini keçməyə cəhd edərkən saxlanılıb. Onların 25 nəfəri Azərbaycan, 7-si Türkiyə vətəndaşları olub. Araşdırma zamanı saxtalaşdırılmış sənədlərin əsasən Avropa İttifaqına üzv ölkələrin şəxsiyyət vəsiqələri, daimi yaşayış kartları olması müəyyənləşdirilib.

Hesabat dövründə hüquq-mühafizə qurumlarının axtarışında olan 218 nəfər dövlət sərhədindən buraxılış məntəqələrində saxlanılaraq aidiyyəti orqanlara təhvil verilib. Bununla yanaşı, ölkədən çıxışı qadağan olan 265 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 11 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

Dövlət sərhədindən buraxılış məntəqələrində rejim qaydalarının kobud şəkildə pozulması ilə əlaqədar 3 halda 3 nəfər saxlanılaraq müvafiq qurumlara təhvil verilib.

# ANAMA: "Ötən ay 402,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, yanvarın 5-dən 31-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 32, tank əleyhinə 27 mina və 230 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ay ərzində 402,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

2020-ci il noyabrın 10-dan bu il yanvarın 31-dək isə piyada əleyhinə 10 min 504, tank əleyhinə 4802 mina və 13 min 444 ədəd partlamamış hərbi sursat aşkarlanıb.

Bu müddət ərzində 7180 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.



# AZAL Bakı ilə Aktau arasında uçuşlara başlayır




"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, 1 fevral 2022-ci il tarixdən etibarən "Azərbaycan Hava Yolları" aviaşirkəti uçuşların coğrafiyasını genişləndirdiyi barədə elan edir. Fevralın 18-dən aviadaşıyıcı Bakı-Aktau-Bakı marşrutu üzrə birbaşa reyslər açır.

Bakıdan Aktau şəhərinə uçuşlar çərşənbə axşamı, cümə və bazar günləri həyata keçiriləcək.

Aviabiletləri aviaşirkətin rəsmi saytında, həmçinin aviadaşıyıcının akkreditə olunmuş agentliklərində rəsmiləşdirmək mümkün olacaq.

Reyslərə yalnız COVID-19 pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Qazaxıstana səyahət edən Azərbaycan vətəndaşları ölkəyə giriş qaydaları ilə burada tanış ola bilər: **https://www.azal.az/az/information/covid-kazakhstan**

Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: **https://www.azal.az/az/information/covid-clinics.**

Sərnişin Aktau şəhərindən Bakıya uçuş zaman COVID-19-a dair testi dövlət tərəfindən akkreditə olunmuş və PCR-testi üsulu ilə analiz götürən istənilən klinika və ya laboratoriyada verə bilər. PCR-testin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

Azərbaycana giriş qaydaları ilə burada tanış olmaq mümkündür: **https://www.azal.az/az/information/covid-azerbaijan.**

# "Azercell" Bakıda keçirilən "Baku International HR Forum"a dəstək olub

## Şirkətin prezidenti Zərinə Zeynalova sürətlə dəyişən texnologiyalar mühitində insan resursları funksiyasının rolu barədə fikirlərini bölüşüb

Yanvarın 28-də Azərbaycan İnsan Resursları İnstitutunun təşkilatçılığı ilə insan resursları (İR) sahəsindəki innovasiyaların təşviqi və müxtəlif sahələrdə təcrübə mübadiləsi məqsədilə "Baku International HR Forum" (BIHRF) keçirilib.



Azərbaycanın telekommunikasiya bazarının lideri "Azercell" tədbirin baş sponsorlarından biri kimi çıxış edib.

6 ölkədən 16 spiker sürətlə dəyişən korporativ mühitdə insan resurslarının rolu ilə bağlı fikirlərini yerli və beynəlxalq təşkilatları təmsil edən 300 iştirakçı, müxtəlif sektorlardan olan İR departamentlərinin rəhbərləri, dövlət rəsmiləri, sahibkarlar və digərləri ilə bölüşüblər.

CEO panelinin İR funksiyasının təşkilatın uğurundakı rolu ətrafındakı müzakirəsində çıxış edən Zərinə Zeynalova, əsl biznes tərəfdaşı olmaq üçün həmin funksiyanın vacibliyini vurğulayıb. *"Texnologiya və digər sənaye sahələrində innovasiyaların sürətli tətbiqi dəyişən şəraitə yüksək səviyyədə uyğunlaşma tələb edir. Bu baxımdan, kommersiya bacarıqları və sahibkarlıq ruhu, analitik bacarıqlar, emosional dayanıqlılıq, yüksək səviyyədə özünüdərk, ağıllı qərarlar qəbul etmək qabiliyyəti, dürüstlük və etimad İR mütəxəssisindən tələb olunan əsas keyfiyyətlərdir"*, - deyə "Azercell" prezidenti bildirib. "Azercell" prezidentinin sessiyadakı çıxışı transformasiya liderliyi və dəyişikliklərin idarə edilməsi ilə bağlı fikirləri ətrafında ona auditoriyanın çoxsaylı suallarının yönəlməsinə səbəb olub.

Onu da qeyd edək ki, "BIHRF" çərçivəsində keçirilən "HR Awards" 2022 mükafatlandırma mərasimi zamanı "Azercell" şirkətinin İnsan Kapitalının İdarə Edilməsi Departamentinin əməkdaşları "Ən Yaxşı Sağlamlıq və İşçi Rifahı Strategiyası" və "Ən Yaxşı Təlim və İnkişaf Strategiyası" nominasiyalarında iki yüksək nailiyyət sertifikatı ilə təltif olunub.

**◆Dünya gündəmi**

# İran pandemiyanın altıncı dalğasının məngənəsinə düşüb

## Deputatların koronavirusa yoluxması səbəbindən parlament işini dayandırıb

İranlı deputatların COVID-19-a yoluxması səbəbindən ölkə parlamentinin işi müvəqqəti dayandırılıb. Millət vəkillərindən birinin məlumatına görə, məclisin 290 üzvündən 47-sinin koronavirus testləri pozitiv nəticə verib. Onlardan 10-u hazırda xəstəxanaya yerləşdirilib. Bu, ölkə rəhbərliyini fevralın 1-də və 2-də keçiriləcək iclasları ləğv etməyə, həmçinin müxtəlif komissiyaların sessiyalarını başqa vaxta keçirməyə sövq edib.



Deputat Moctəba Yusifinin bildirdiyinə görə, onlarla deputatın yoluxması artıq təsdiqlənib, amma yoluxanların real sayı daha yüksək ola bilər. Onun həmkarı Cəlal Rəşidi testin nəticələrini əldə etdikdən sonra belə məclis üzvlərinin əksəriyyətinin iclaslarda iştirak etməsinə hiddətini bildirib. Riafan agentliyinin xəbərinə görə, bu davranış parlamentarini şok vəziyyətinə salıb. "Heç bir bəhanə digər insanların sağlamlığını təhlükəyə salan hərəkətlərə haqq qazandırmayacaq", - deyə Rəşidi vurğulayıb.

Keçən dəfə, 2021-ci ilin aprelində, parlamentarilərin səhhətinə və həyatına risk yaratmamaq üçün iclaslar ləğv edilmişdi. Pandemiyanın birinci dalğası zamanı bir neçə deputat yoluxmanın yaratdığı fəsadlardan dünyasını dəyişmişdi. İndi təhlükə yenidən artır, çünki ölkədə "Omikron" ştamı sürətlə yayılır, yerli preparatların və virusa qarşı müalicə metodlarının effektivliyinin öyrənilməsi isə hələ ki mümkün deyil.

KİV-in məlumatına görə, virusun bu növü yaranandan sonra İran "altıncı dalğanın məngənəsinə düşüb". Bu yaxınlara kimi koronavirusla bağlı vəziyyət nisbətən sabit olaraq qalırdı, lakin ötən həftə statistika şəhərlərdən birində xəstəliyin kəskin artdığını göstərib. Cəmi beş gündən sonra "qırmızı" təhlükə səviyyəsinə çıxan yaşayış məntəqələrinin sayı 15-ə çatıb, yüksək riskli zonada isə 8 yox, 61 məntəqə yer alıb.

Bununla yanaşı, ölüm səviyyəsi iki gün əvvəl 44 letal nəticəyə çatıb ki, bu da altıncı dalğadan əvvəl qeydə alınmış göstəricidən iki dəfə çoxdur. Lakin dünən bu göstərici 30-a düşüb. Buna baxmayaraq, xəstəliyin hər gün aşkarlanan sayı sürətlə artır və yanvar ayının əvvəlində bu rəqəm 700 təşkil edirdisə, hazırda 29 mindir.

Bütün bunların fonunda İran Prezidenti İbrahim Rəisi əyalət səfərlərini dayandırıb. Lakin onun administrasiyası hələ ki əhali üçün hansısa yeni tədbirlər və məhdudiyyətlər barədə məlumat vermir. Bundan əlavə, hakimiyyət orqanları peyvənddən yayınanlara və tibbi xidmətlərin tələblərinə laqeyd yanaşanlara təsir göstərmək üçün tələsmir. Məlumata görə, hazırda bu kateqoriyaya böyüklər arasında vətəndaşların təxminən yarısı daxildir.

Məmurlar fəal şəkildə insanları vaksin vurdurmağa çağırırlar. Çünki Yaxın Şərqin digər dövlətləri arasında hələ ki İran İslam Respublikası koronavirusla əlaqəli ölümlərin sayına görə liderdir. Pandemiya dövründə ölkədə 132 mindən çox adam vəfat edib, yoluxma hallarının ümumi sayı isə 6,3 milyondan çoxdur. Bir sıra mənbələr real rəqəmlərin əhəmiyyətli dərəcədə daha çox olduğunu iddia edir.

İndi hakimiyyət xaricdən vaksin əldə etməyə çalışır, çünki milli güclər operativ şəkildə dövləti lazımi miqdarda preparatla təmin edə bilmir.

İran Səhiyyə Nazirliyinin məlumatına görə, ölkənin 84 milyon nəfər vətəndaşından 17 milyon nəfəri üçüncü doza, təxminən 54 milyonu isə iki doza peyvənd alıb.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## "Azərişıq" ASC Tovuz rayonu, Qovlar qəsəbəsi ərazisində yerləşən mövcud 110/10 kV-luq "Qovlar" yarımstansiyasının 110/35/10 kV-luq 2x25 MVA gücündə yenidən qurulması işlərinin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 250 (iki yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi, 130 ünvanından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.
Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Əlaqələndirici şəxs - Namiq Heybətov namiq.heybetov@azerishiq.az
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 16.02.2022-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 17 fevral 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün maqnit kompasların satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 fevral 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Rasim Başirova anası

**VALENTİNA BAŞİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Cavanşir Mürsəlova atası

**İSMAYIL MÜRSƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Rus İqtisad Məktəbinin direktor müavini Svetlana Məmmədovaya atası

**YEVGENİ SUXAREVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri,*
*Mətbuat prospekti,*
*529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5206
Sifariş 288
Qiyməti 40 qəpik